29 Natiq Rəsulzadə
Bartolomeo



Qədiməli Əhməd
şeir vaxtı 37

39 Qərib Mehdi
nəsr



46 Yuri Şerbakov
tərcümə saatı

47 Gülşən Əliyeva-Kəngərli
tribuna

52 Vüsalə Süleyman
elegiya

54 Fərhad Ramizoğlu
nəsr

57 Zaur Sahil
əsgər məktubu

58 Hicran
modifikasiya

60 Fəridə Haciyeva
şeir vaxtı

61 Hüsamettin Olğun
Hüseyin Muherrem Arat
türk eli

67 İradə Əlili
miniatür



68 dərgidə kitab



Təsisçilər:
Azərbaycan Yazıçılar Birliyi və «Ulduz» jurnalının kollektivi

Baş redaktor
Qulu Ağsəs

Redaksiya heyəti
Təranə Vahid
(Baş redaktor müavini)
Həyat Şəmi
Elçin Mirzəbəyli
Xəyal Rza
Şəhər
Xanəmir
Rəsmiyyə Sabir
Elxan Yurdoğlu
Nuranə Nur
Anar Amin
Elmar Vüqarlı
Ələmdar Cabbarlı
Qılman İman
Hafiz Hacxalıl
Nisəbəyim
Fərid Hüseyn
Məshəti Musa
Elşən Əzim
Seyfəddin Altaylı
(Türkiyə)
Xaqani Qayıblı
(Estoniya)
Baloğlan Cəlil
(Başqırdıstan)
Saodat Muxammadova
(Özbəkistan)
Nilufər Şıxlı
(Rusiya)

Bədii redaktor
Ədalət Həsən

Ünvanı: Az-1000, Bakı,
Xaqani küçəsi, 25
ulduz_dergisi@mail.ru
dursul@mail.ru
www.ayb.az
Telefon: 498-72-43
Çapa imzalanıb: 19.05.2016
«Ulduz» jurnalı redaksiyasında yığılıb səhifələnib. «Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsində çap olunub.
Sifariş. №55, Tiraj: 300
Qiyməti: 2 man.

1967-ci ildən çıxır
Şəhadətnamə № 238

Nömrənin eksperti:
Nizaməddin Şəmsizadə



«AZƏRMƏTBUATYAYIMI» AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

«Ulduz» jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «Mətbuatyayımı» şöbələrinə müraciət etməyiniz kifayətdir.

«QAYA» MƏTBUAT YAYIMI

«Ulduz» jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «QAYA» mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

«EKSPRESS» MƏTBUAT YAYIMI

«Ulduz» jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «EKSPRESS» mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

Jurnalın

1 aylıq abunə qiyməti – 2.00 man.

6 aylıq abunə qiyməti – 12.00 man.

Bakı şəhərində abunə yazılmaq istəyənlər:

440 – 27 – 85
440 – 39 – 83
440 – 46 – 94

564 – 63 – 45
598 – 35 – 22
556 – 67 – 13
564 – 48 – 96

437 – 28 – 10
408 – 17 – 51

nömrəli telefonlara zəng edə bilərlər.

ISNN 0134-522 İNDEKS AZ 1000 2 AZN



Yaxın və uzaq "Ulduz"...

Əyyub QİYAS

"Ulduz" dərgisinin aprel, 2016-cı il sayını köşkdən alıb oxumağa başlayan andan Qulu Ağsəsin qulaqlarımda əks-səda verən səsi çəkilib getdi. Adam məni tələsdirə-tələsdirə "gecikirik, sənə görə qalmışıq" deyirdi. Amma Telli Pənah-qızının ilk səhifədəki ekspert yazısını - "Yaz yazısı"nı oxumağa başladım və Telli xanım məni də öz nostalji ruhu ilə bərabər alıb "Ulduz"lu xatirələrə apardı. İlk olaraq isə gözlərmin önündə rəhmətlik Yusif Səmədoğlunun ("Ulduz" dərgisinin o vaxtkı baş redaktoru) qapısının üstündəki tablo canlandı. Hansısa ərköyün müəlliflərdən biri (bəlkə də, elə redaksiya işçilərindən biri) tablodakı "Müəlliflərin qəbul günü" yazısını kiçik redaktə edərək "bu" hərflərin üstündən çarpaz xətt çəkmiş, üstdən isə "t" hərfi yazmışdı, yəni qapının üstündəki yazı "Müəlliflərin qətl günü" şəklində qalmışdı.

"Ulduz" bir neçə ədəbi nəsil gənclərinin böyük ədəbiyyata gedən yoluna işıq tutub, neçə-neçə gənc istedadın üzə çıxmasına vəsilə olub desəm, yanılmaram. Elə mən özüm də "Ulduz"da çıxan hər bir yazıma uşaq kimi sevinmişəm. Çünki "Ulduz" hər tində-bucaqda adamın gözünü ağrıdan, sarı, boz, nə bilim ey, rəngli karandaş qutusundakı rənglər qədər çeşidli rəngləri olan mətbuat nümunələrindən fərqli olaraq, həmişə simasını qoruyub saxlaya bilib. Nə isə... Məncə, "Ulduz"a bəy tərifi etməyə ehtiyac yoxdur, onsuz da bilən bilir...

Telli xanımın səmimiyyət dolu ekspert yazısından sonra dərginin nisan sayı Ulucay Akifin dərgi üçün ənənəvi olan "özüylə söhbət" rubrikası ilə başlayır. Gənc qələm dostumuz Ulucayın elə ilk cümlələri ruhuma sərinlik ələdi: "Mən yazmağa şeirlə, hekayə ilə başlamamışam. Məktəb illərində sevdiyim qıza məktublar yazmışam ilk dəfə..." Əslində, sonradan yazar olan hər kəs yaradıcılığa elə belə - sevdiyi qıza məktublar yazmaqla başlayır, amma nədənsə çoxumuz (bəlkə də, lap çoxumuz) məktubların yaza bilməyimizdə oynadığı rolu unuduruq. Ulucay isə bunu etiraf etməkdən çəkinmir.

Çoxumuz Ulucayı Akif Səmədin yadigarı kimi tanıyır. Təbii ki, Akifin ruhu və xatirəsi oğlunun həyatından təsirsiz keçmir, amma etiraf edim ki, mən gənc dostumun yazılarında İncə dərəsinin mistik, dərvişanə, irfani aurasının təsirindən daha çox Bakının, Bayılın, "20-ci sahə"nin aurasını hiss etdim.

"Mən cəhənnəm, şəhərə yazığın gəlmədimi?
çox dəyişib sən gedəndən buralar..."

Qardaş başqa bir şeirində isə:

"Qalaq-qalaq şeirlər
səpələsəm də ayaqların altına,
bir telinə dəyməz ədəbiyyat, bilirəm", - deyir.

Nisan sayının növbəti təqdimatı ədəbi tənqidimizin ağsaqqallarından birinin - Vaqif Yusiflinin "Gənc şairlər, sözüm sizədir" yazısıdır. Hörmətli tənqidçimiz bu yazısı ilə gənclərdən Elşad Baratın "Qar dənələri" kitabı haqqında fikirlərini bildirir, müəllifin yaradıcılığına ağsaqqal gözü ilə nəzər salır, Elşadın şeirlərindən nümunələr gətirməklə oxucuda müəllif haqqında dolğun təsəvvür yaratmağa çalışır. Amma təqdim edilən şeir parçalarında Allah "obrazı"nın zənginliyi nədənsə diqqətimi çəkdi. V.Yusiflinin növbəti "hədəfləri" yenə gənc müəlliflər - Günel Şamilqızı, İntiqam Yaşar və Şəhriyar del Geranidir. Hər üç müəllifin yaradıcılığı ilə az-çox tanış olduğum üçün Vaqif müəllimin gənclər haqqında dediyi xoş fikirlərlə, göstərdiyi iradlarla mən də şərikəm və gənc qələm dostlarıma uğur arzulayıram. Amma açığını deyim ki, Şəhriyarın yazıları mənə daha doğma, ruhu mənə daha tanışdır və bu, sadəcə mənim subyektiv qənaətimdir:

"səndən mənə bircə küçə qaldı
çıxıb getməyə bu şəhərdən
bircə dəniz qaldı unutmağa
bircə pişiyimiz vardı darıxmağa..."

Növbəti təqdimatla verilən Vasif Zöhrabоğlunun şeirlərini oxumağa başlamazdan əvvəl 19 nisan doğumlu Vasifin doğum gününü gec də olsa təbrik etmək keçdi ürəyimdən, amma Vasifin öz sözləri ilə:

"Çağırsam, yanıma gəlmirsən axı,
Gəlmirsən, gəlmirsən, yol uzaq olur...
Sən hardan biləsən, bilmirsən axı
Adam təkliyində yalquzaq olur."

Gözəldi! Elə bu da gözəldir:

"Bilməzsən ağrımı nələr kiridir,
Kölgəni yığıram ağ pərdələrdən."

Növbəti səhifədəki yazı haqqında demək istədiyim odur ki, Fərid Hüseynin intellekti, tərbiyəsi və ədəbi savadı mükəmməldir. Bu sayda onun təqdimatında Per Lagerkvistin məşhur "Varvara" romanı barədə "Paralel" və "Paradoks" altbaşlıqları ilə verilən konseptual yazısı adı çəkilən roman haqqında sadəcə oxucu, yazar fikri deyil, bu, kifayət qədər püxtələşmiş bir insanın roman fakturasından çıxış edərək gerçək həyata diktəsidir. Fərid roman haqqında fikirlərini və təhlillərini peşəkarlıqla ifadə edə bilib.



Nisan sayında gənc şairlərdən Cahandar Ağabəyin, Məhəmməd Turanın şeirləri ilə yanaşı, Elman Tovuzun və Qələndər Xaçınçaylının da şeirləri yer alıb. Elman Tovuzun şeirlərində irfan ədəbiyyatı və klassik aşıq şeirinin ruhunu sevgi ilə hiss eləmək olur. Elmanın şeirlərini professor Nəsir Əhmədli təqdim edir.

Dərginin bu sayında sənətşünas Ziyadxan Əliyevin gənc rəssam Xaqan Bayramov haqqında yazısı da maraqla oxunur və yazını oxuduqca adam könlünü rənglərə bağışlayan gənc dostumuza uğur arzulamaqdan başqa heç nə fikirləşmir.

Şəhid şairimiz Ülvi Bünyadzadənin tərcüməsində (şəhidin arxivindən) L.Averyanovun "Necə məşhurlaşmaq olar" adlı yumoristik hekayəsində yalan üzərində qurulan dünyanın məşhurluğa aparan yollarından biri təsvir edilir. Hekayəni birnəfəsə oxuyub tərcüməçinin ədəbi ruhuna alqış deməklə yanaşı, belə bir istedadlı gəncin faciəli həyatına acımamaqda olmur.

Hicran Hüseynovanın aktyor, rejissor və şair dostumuz Nazir Rüstəmlə olan söhbəti Nazirin poetik ruhu ilə qidalanan şeirlərdən qopan suallar və Nazirin poetik ruhundan qopan cavablarla köklənib. Nazir, şeirləri haqqında:

"Mənim şeirim ağ-qara
Bir qəmli kino kimi.
Göz yaşıdı yanaqda
Bir eşqin sonu kimi", - deyir.

Nisan sayında istedadlı tərcüməçi Ayişə Nəbinin tərcüməsində dünya şöhrətli Amerika yazarı Edqar Allan Ponun "Oğurlanmış məktub" adlı çox maraqlı bir hekayəsi yer alıb.

Dərginin əməkdaşı və şairə Fərqanənin təqdimatında üç yazara – Afayət Afiqə, Taleh Mansura və Vüsal Qasımova ünvanlanmış 9 eyni sual və 9 müxtəlif cavab da maraqla oxunur. Suallar da, cavablar da rəngarəng, səmimi, iddialı və maraqlıdır. Növbəti səhifədə isə Cəlil Cavanşirin yenə dost-tanışı başına yığıb ad sadalamağından başqa yerdə qalan hər şey son dərəcə səmimi görünür. Elə Cəlilin "Yarımçıq hekayə"si də maraqlıdır.

Cahanxanım Seyidzadənin müasir türk ədəbiyyatının ünlü simalarından biri olan Elif Şafak haqqında yazısı, adı çəkilən müəllifin həyat və yaradıcılığına qısa bir səyahətə bənzəyir. Yazıda türk yazarın yaradıcılığı və şəxsi həyatı ilə bağlı maraqlı faktlar, yəqin ki, nisan sayını oxuyanların diqqətini çəkib. Sadəcə yazı müəllifinin yazarın adını nədənsə Elif Şafak kimi deyil, azərbaycanlılaşdıraraq Əlif Şəfəq kimi təqdim etməsi ilə razılaşa bilmirəm.

Elvira Məmmədovanın uşaq ədəbiyyatı nümunəsi olan üç miniatür hekayəsi də maraq doğurur. Xüsusilə "Zibil qabının arsuzu" hekayəsi alleqorik dillə insanlığa ünvanlanan realist bir yazı kimi diqqət çəkir.

İmzasını kifayət qədər təsdiq edə bilən İlqar Atabəyin "Qəlpə" hekayəsi Sovet Ordusu vaxtlarında hərbi xidmət keçirənlər üçün, elə indiki gənclər üçün də, ümumiyyətlə, yaxşı yazı oxumaq istəyənlər üçün maraqlı olacaq.

Mina Rəşidin şair Qəşəm Nəcəfzadəyə həsr etdiyi "İydə çiçəyi kimi" adlı yazısı doğmalıqla, sevgi və səmimiyyətlə yazının qəhrəmanına, ümumiyyətlə, seirə, ədəbiyyata olan diqqəti və sevgini göstərir.

Rus poeziyasının bilicisi professor Bədirxan Xəlilovun "İvan Bunin: həyatı və yaradıcılığı" yazısı məşhur rus şairinin ömrünün təzadlı məqamları və şeirlərindən nümunələrlə yadda qalır. Pəri Mirəliyevanın Pikasso və Dalinin fikir çələngi ilə toxunan çevirmələri də bu iki məşhur simanın həyata baxışları və hissləri barədə dolğun təsəvvür yarada bilir. Dərginin son səhifələri istedadlı gənc araşdırmaçı Elmin Nurinin təsəvvüf esseləri ilə qapanır. Müəllifin təqdim etdiyi esselər lirik ruhu, obrazlı yanaşmaları ilə diqqət çəkir. Elmin Nuri esselərində kinematoqrafiya, rənglər dünyası, xanəndəlik sənəti və səs, klassik poeziya və ilahi sevginin sirri kimi məqamlara yer ayırır. Son səhifəni sizinlə birlikdə qapayıb oxuduğu bir-birindən maraqlı, rəngli, bəzən təzadlı, bəzən qıcıq yaradan yazıların təsirində olan isə mən idim...

Gülnar SƏMA

özüylə söhbəti...

- Qadından yaş soruşmazlar?

- Niyə soruşmurlar ki, mənim otuz yaşım bu bahar tamamlandı.

- Doğum günün nə vaxtdır ki?

- Anadan olduğum gün 1986-cı ilin 22 aprelidir, lakin rəsmən mayın 15-i yazılıb.

- Ədəbiyyata nə verib ala bilmirsən?

- Mən əminliklə deyə bilərəm, yeganə tədqiqatla məşğul olan insanam ki, bir yazar haqqında yazı yazmaq üçün pulumu verib onun kitabını alıram. Sonra da həmin kitabı ciddi şəkildə oxuyaraq, yazını hazırlayıb korrektə və redaktə edirəm. Nəşr olunmaq üçün mətbuata göndərirəm. Qəzet və ya jurnalda çap olunduqdan sonra pulumu verib alıram və yazı yazdığım insana da o qəzet və jurnaldan hədiyyə edirəm. Ədəbiyyatdan aldığım isə Gənclər və İdman Nazirliyinin mükafatı, bir də Prezident təqaüdü olub.

- Neynəyib e, bu ədəbiyyat sənə?

- Ədəbiyyat mənim həm bədii, həm də elmi yaradıcılığıma sahib olub. Hətta pedaqoji fəaliyyətim də bu sahədədir, dil-ədəbiyyat müəllimiyəm. Göründüyü kimi, mən ədəbiyyatı yox, ədəbiyyat məni seçib.

- Bəs sənin mənə sualın yoxmu?

- "Məni candan usandırdı, cəfadan yar usanmazmı?!"

...və şeirləri

AYRILIQ BƏHANƏSİ

Ayrılıqlar həmişə
öz bəhanəsiylə qonaq gəlir.
Sən "olmaz!" dediyin şeylər
tez-tez gündəmə gətirilirsə,
demək, növbəti dayanacaq
ayrılıqda dayanmayacaq.

Sürət daha da artacaq,
olmazlar özlərinə yer edəcək.
Sənin görmək istəmədiyin situasiyalar
əslində, ayrılığın əlamətləridir.
Ayrılıq isə bədii təyin deyil,
əbədi təyinatdır.

Ayrıldınsa, bəhanələrin də
canı qurtarır.
Onları da boş-boşuna
narahat etmirsən.
Hər şey üstünə gəlir,
amma sən heç yerə getmirsən.

Səbəbsiz bəhanələrin
nəticəsini alqışlamaqdan başqa
seçimin qalmır.
Yox, əgər hələ bəhanələr qalıbsa,
onda bu, ayrılıq olmur.

ÇOBANALDADAN

Çobanaldadan yağış,
Qoy qoyunlar otlasın.
Bir az özünə yığış,
Mən piyada, atlı sən.

Çobanaldadan yağış,
Oynama hisslərimlə.
Allah xətrinə, barış
Taledən küslərimlə.

Çobanaldadan yağış,
Nə yağansan, nə kəsən.
Gözümdən yol salınca
Gözlərimi tökəsən...

AYRILIQ BORCU

Nə yaman uzanır ayrılıq dəmi,
Ayrılıq necə də uzunömürlü!
Ayrılaq, ayrılıq ağ günə çıxsın,
Bizim yanımızda üzü kömürlü.



Xəyal var, qurular qovuşmaq üçün,
Xəyal var- ayrılıq xəyalı qurar.
Son görüş deyilən adından bəlli,
O, görüş olsa da, ürəkdən vurar.

Sən elə bilmə ki, Çin səddi çəkdin,
Tək bircə hücumluq bürcün qalıbdı.
Bir daha ömrümə gəlməmək üçün
Mənə bir ayrılıq borcun qalıbdı.

SƏNSİZLİK

Sənsizliyin gözəlliyi
Sənsizlikdə imiş elə.
Həsrətimdən duyuq düşən
Hicranı demirəm hələ.

Sənsizliyin gözəlliyi
Sənsiz olanda bilinir.
Sənsizliyin özəlliyi
Mənsiz qalanda bilinir.

Sənlə hər şey gözəldi
Sənsizlik də ona bənzər.
Bu hər şeyin başlanğıcı
İlk baxışdan sona bənzər.

ÜRƏYİMƏ DÜŞDÜN

Elə düşdün ürəyimə,
Söz yerinə düşən kimi.
Ürəyim od tutub yandı,
Köz yerinə düşən kimi.

İndi ki məni duyursan,
Qəlbimə təşrif buyursan.
Niyə yerində sayırsan
Öz yerinə düşən kimi.

Yerin ürəyimin içi,
Ömür yolum ordan keçir.
Nə əkirsə, onu biçir,
Yoz, yerinə düşən kimi.

Məti Osmanoğlu
təqdim edir:

Resertiv Nəzəriyyə



Müasir türk dilində "alımlama" kimi işlədilən bu termin latınca qəbul etmək, almaq mənası daşıyan "receptio" sözündən gəlir. Keçən əsrdə feminologiya çərçivəsində formalaşmış estetik-nəzəri cərəyandır. Bu nəzəriyyə bədii əsərə verilən məna ilə bağlı sualı belə qoyur: əsərə mənanı yazıçı verir, əsərdəki sözlər, yoxsa oxucu? Cavab isə budur ki, bədii əsər müəlliflə oxucu arasında münasibətə əsaslanır və əsərin mənasını bu münasibət yaradır. Mətnlə oxucunun (resipientin - mətni qəbul edənin) görüşü qavrama məkanı kimi təqdim olunur: bunların qarşılıqlı fəaliyyəti sayəsində canlı əsər gerçəkləşir. Reseptiv estetikanın araşdırma predmeti resepsiyadır, yəni ədəbi-bədii nümunələrin oxucu, yaxud dinləyici tərəfindən qavranılmasıdır" (Qorxmaz Quliyev).

Bir qədər sadələşdirib desək, ədəbiyyat sahəsində reseptiv nəzəriyyə yazıçının mətndə buraxdığı boşluqları oxucunun mətnin təsiri ilə öz həyat təcrübəsi əsasında doldurması kimi başa düşülür. Oxucu mətndəki boşluqları öz yozumları və mühakimələri, duyğuları ilə tamamlayır. Beləliklə, reseptiv nəzəriyyə sənətin məna problemini araşdırır: sənət əsərinə məna verən yazıçıdır, sözlərdir, yoxsa oxucu?

Almaniyada formalaşmış bu cərəyanın əsas nümayəndələri Almaniyada Hans Robert Yauss və Volfqanq İzer, Amerikada isə Stenli Fişdir.

Reseptiv nəzəriyyə Hans Robert Yaussun (1921-1997) 1967-ci ildə yazdığı "Ədəbiyyat tarixi təxribat kimi" adlı əsərində gündəliyə gətirilmişdir. Yauss bununla strukturalizmin üfüqlərini və miqyaslarını genişləndirmişdir. Yaussun qarşı çıxdığı nəzəriyyələr marksist təhlil və formalist məktəbin yanaşmaları idi. Onun mövqeyinə görə, hər iki nəzəriyyə reseptiv amili - qəbul edən tərəfi nəzərə almamışdır. "Həm marksist, həm də formal ədəbiyyat nəzəriyyəsinin bitərəfliliyi ziddiyyətə gətirib çıxarmışdır, bu ziddiyyətin aradan qaldırılması yalnız tarixi və estetik təhlilə yeni münasibət gətirməklə mümkün ola bilər".

Yauss qeyd edirdi ki, həmin ədəbi nəzəriyyələrdə oxucu, dinləyici, tamaşaçı, bir sözlə, publika faktoru son dərəcə məhdud rol oynayır: "Mənim ədəbiyyat ilə tarix, tarixilik ilə estetiklik arasında uçurumu aradan qaldırmaq cəhdim hər iki məktəbin durduğu yerdən başlayır".

Yaussa görə, yazının ünvanı oxucudur. Buna görə də yazıçı-əsər-oxucu üçbucağında oxucu daha böyük təsir gücünə malikdir. "Yazıçı, əsər və oxucu üçbucağında oxucu sadəcə passiv bir hissə, saf reaksiyalar zənciri deyil, əksinə, yenidən bir tarix yaradan enerjidir. Ədəbi əsərin tarixi həyatı oxucunun fəal iştirakı olmadan təsəvvür oluna bilməz". Yauss daha çox yazılı mətni oxucunun yenidən yaratması qənaətini ortaya qoymuşdu. Onun fikrincə, əsər oxucu ilə qurduğu münasibətdən asılı olaraq müxtəlif formalarda gerçəkləşir.

Bu nəzəriyyənin başqa bir nümayəndəsi Volfqanq İzerə görə, sənət əsərinin mənası mətnin içində hazır şəkildə olmur, oxucu tərəfindən oxu prosesində yaradılır. Məna mətndə potensial

şəkildə mövcud olur: yazıçının yaratdığı mətn sənət qütbünü, oxucunun qavradığı mətn isə estetik qütbü təşkil edir. Bu iki qütb əmələ gəlmədən əsər yaranmaz, çünki oxucunun rolu yazıçının boş buraxdığı qeyri-müəyyənlikləri aradan qaldırmaqdır. Oxucu mənanı özü kəşf edir, hər şeyin hazır verildiyi mətn oxucu üçün maraqsızdır. Buna görə də əsəri qəbul edən də onun müəllifi qədər həmin əsərin yaranmasında əhəmiyyət kəsb edir. Stenli Fiş isə mətnin potensial mənası anlayışını qəbul etmir. Onun qənaəti belədir ki, oxucunun əvvəllər oxuduqları, hissi-emosional vəziyyəti, duyumlarının yaratdığı bir şüur ilə subyektiv qavrama əmələ gəlir və nəticədə oxucuda bir gözlənti yaranır. S.Fiş belə hesab edirdi ki, oxucu əsərə tamamilə öz yaşantılarına görə məna verir.

Reseptiv estetika sahəsində daha bir nüfuzlu ad da Umberto Ekodur. O, "nümunəvi oxucu" və "nümunəvi yazıçı" anlayışlarını irəli sürmüşdür. Nümunəvi oxucu odur ki, hər şeydən öncə, mətnə yaradıcı yanaşır, nümunəvi yazıçı isə romanında oxucunun hansı duyğuları hiss etməsinin gərəkli olduğunu bilir və mətnə oxucuların duyğularına təsir göstərə biləcək yön yerir.

Hans Robert Yaussun sizə bir hissəsini təqdim etdiyimiz "Ədəbiyyat təxribat kimi" məqaləsi reseptiv nəzəriyyənin manifesti sayılır.



Hans ROBERT YAUSS

ƏDƏBİYYAT TARİXİ TƏXRİBAT KİMİ

Bu gün ədəbiyyat tarixi pis ad daşıyır, özü də tam yerində. Bu sanballı fənnin son yüz əlli illik tarixi davamlı bir pozulmanın şahididir. Onun bütün yüksəlişləri və çatdığı zirvələr XIX əsrə aiddir. Hervinisun, Şe-rerin, De Sanktisin və Lansonun zəmanəsində milli ədəbiyyat tarixi yazmaq filoloq üçün həyatın əbədiləşdirilməsi demək idi. Bu fənnin patriarxları öz ali məqsədlərini ədəbi əsərlərin tarixini milli fərdilik ideyasının dərk olunmasına yol kimi təqdim etməkdə görürdülər. Bu gün həmin zirvələr uzaq xatirələrə çevrilib. Ənənəvi ədəbiyyat tarixinin bizim çağımızın mənəvi həyatındakı vəziyyəti heç də ürəkaçan deyil. Ədəbiyyat tarixi mahiyyətcə köhnəlmiş buraxılış imtahanlarında saxlanılsa da, gimnaziya təhsilinin icbari proqramında faktiki olaraq yoxdur. Adətən, ədəbiyyat tarixinə dair kitabları savadlı vətəndaşların kitabxanalarından əldə eləmək mümkündür, onların əlinin altında ədəbiyyatla bağlı daha uyğun sorğu kitabı olmadığına görə ədəbiyyat tarixi kitablarını, əsasən, ədəbiyyata dair krossvordları həll etmək naminə açırlar.

Ədəbiyyat tarixi bir fənn olaraq universitetlərin mühazirə kurslarından göz görə-görə yoxa çıxarılır. Artıq heç kəsə sirr deyil ki, mənim nəslimə mənsub filoloqlar milli ədəbiyyatın dövrlərə bölünmüş ənənəvi ümumi təqdimatını problemli və ya sistematik xarakterli mühazirələrlə əvəz etməyi öz xidmətləri kimi qarşıya qoyurlar. Elmi məhsula münasibət də belədir: ayrı-ayrı əsərlərin interpretasiyasına həsr olunmuş sorğu kitabları və ensiklopediyalar kimi bu yaxınlarda silsilə şəklində buraxılmış kollektiv işlər ədəbiyyat tarixinə dair şişirdilmiş və ya qeyri-ciddi şöhrətə minmiş kitabları sıxışdırır. Səciyyəvidir ki, bu cür yalançı tarixi əsərlər nadir hallarda alimlərin təşəbbüsü ilə ortaya gətirilir, bu daha çox zirək naşirlərin ideyası ilə baş verir. Əksinə, ciddi tədqiqat işləri xüsusi monoqrafiyalarda, peşəkar jurnallarda nəşr olunur və üslubiyyat, ritorika, mətnşünaslıq, semantika, poetika, morfologiya, sözlərin, motivlərin və janrların tarixi sahəsində elmi işlərin daha ciddi metodik meyarlarına cavab verir. Əlbəttə, bu gün də ixtisaslaşmış filoloji

jurnalların böyük hissəsi məsələnin ədəbi-tarixi qoyuluşuna həsr olunmuş məqalələrlə doldurulur. Lakin onların müəllifləri ikiqat tənqid olunurlar. Bu məqalələrdə irəli sürülən problematika aşkar və ya qeyri-aşkar şəkildə bir-birinə yaxın fənlərdə əslsiz kimi təsnif edilir, alınan nəticələr ümidsiz şəkildə köhnəlmiş bilik kimi kənara qoyulur. Ədəbiyyat nəzəriyyəçiləri tərəfindən yaradılan tənqid də bundan geri qalmır. Klassik ədəbiyyat tarixi, əslində, tarixi problematikanın hüdudlarından kənarda olsa da, burada tarixşünaslığın xüsusi bir forması kimi əsaslandırılmamış iddialarda ittiham olunur. Digər tərəfdən də ədəbiyyat tarixində predmetin özü - incəsənətin bir növü olan ədəbiyyat üçün mütləq olan estetik mühakimənin əsaslandırılması yoxdur.

Bu tənqid aydınlaşdırma tələb eləyir. Ədəbiyyat tarixi (daha geniş yayılmış formada) bir qayda olaraq faktların sadə xronoloji sadalanmasından iki üsulla yaxasını yana çəkə bilir. Bir halda öz materialını ümumi təmayüllər, janrlar və "sair" ilə nizamlayır, sonra isə əsərlərin xronologiyasına həmin rubrikalara uyğun olaraq baxır. Müəlliflərin tərcümeyi-halı (və ya əsərlərinin təhlili) isə burada təsadüfən, ekskurs şəklində, "bəzən ağ fil də gəlib keçir" prinsipi üzrə göstərilir. Digər halda ədəbi-tarixi material böyük yazıçıların dünyaya gəlişinin xronologiyasına uyğun olaraq sıralama üzrə düzülür, təhlil isə "həyat və yaradıcılığı" sxemi əsasında verilir. "Kiçik" yazıçılar burada lazım olmur (onları "aralarda" yerləşdirirlər), bu zaman janrların inkişafı prosesinin özü labüd şəkildə xırdalanır.

Ədəbiyyat tarixinin ikinci forması daha çox kanonik müəlliflər korpusu ilə birlikdə klassik qədimliyə uyğun gəlir; birinci isə daha çox müəllif və əsərlərin zorla gözə dəydiyi sırada materialın sərbəst seçiminin çətin olduğu zəmanəmizə yaxınlaşma ilə mübarizə aparmağa məcbur olan ən yeni ədəbiyyat tarixlərinə tətbiq olunur. Bununla belə, əvvəldən mövcud olan kanonların hökmünə tabe olan "ədəbiyyatın təsviri" yalnız yazıçıların "həyat və yaradıcılığının" ardıcıllığını sıralayır ki, bu da bir vaxtlar Hekvinusun qeyd etdiyi kimi, "tarix deyil, heç tarixin karkası da deyil". Lap elə bunun kimi əsərdən-əsərə dəyişiklik qeydə alınarkən və lirikanın, dramın və ya romanın janrdaxili təkamülü izlənilərkən heç bir tarixçi janrlar üzrə tarixi təsvirin adını çəkmir. Bununla da ədəbi hadisələrin sıralanması aydınlaşdırılmamış qalır, siyasi təmayüllər və ya əsasən, elm tarixindən götürülmüş "zamanın ruhu" ilə çərçivələnir. Digər tərəfdən tarixçinin keçmiş dövrlərə aid əsərləri qiymətləndirdiyi təsadüflər az olmaqla bərabər, həm də qınaq doğurur. O daha çox vəzifəsi "hər şeyi necə var elə" təsvir etmək olan tarixşünaslıqdakı obyektivlik idealına riayət edəcək. Onun estetik mühakimələrdən imtina etməsinin səbəbləri kifayət qədərdir. Çünki bədii əsərin keyfiyyəti və dərəcəsi onun yaranmasının bioqrafik və ya tarixi şərtləri, janrların inkişaf ardıcıllığı ilə deyil, bədii təsirin dilə gətirilməsi çətin olan meyarları, iqtibaslar, eləcə də yazıçının və əsərin sonrakı şöhrəti ilə müəyyənləşir. Ədəbiyyat tarixçisi obyektivlik idealını izləyərkən hansısa qapalı bir keçmişin təqdimatı ilə məhdudlaşır, öz dövrü, başa çatmamış dövrünün tənqidi barədə mühakimələr yürüdür, özü isə bu zaman məğlubiyyət gətirməyən "şedevrlər" kanonlarına əsaslanır, çünki o özü ilə tarix arasındakı məsafədə labüd şəkildə ədəbiyyatın ən yeni inkişafından bir-iki nəsil dala qalır. Müasir ədəbi hadisələr barədə polemikada o, ən yaxşı halda passiv oxucu kimi iştirak edir, beləliklə də özünün gizlində və ya aşkarda "qeyri-elmi" hesab elədiyi həmin tənqidin dili ilə qidalanır.

Beləliklə, ədəbiyyat tarixinin yaradılması üçün - tarixə marağın klassik Şiller tərifini inkişaf etdirməli olsaq - ədəbiyyat hələ "düşünən müşahidəçiyə" nəsə xəyal edəcəyi bir şey, "işgüzar dünya adamına" arxasınca getmək üçün hansısa nümunə, "filosofa" mühüm kəşflər, oxucuya isə "möhtəşəm həzz mənbəyi" təqdim etmək gücündə deyil?

II

Sitatlar, adətən, elmi refleksiyanın növbəti addımının atılmağını gerçəkləşdirmiş avtoritetə ünvanlanır. Lakin sitatlar da məsələnin köhnə qoyuluşunu xatırlada bilər, göstərə bilər ki, artıq klassikə çevrilmiş cavab bəs eləmir, onun özü də tarixə çevrilib və bizdən sualın yenilənməsini, ona yeni həll tapılmasını tələb edir. Şillerin 1789-cu il mayın 26-da vəzifəyə başlamasına həsr etdiyi nitqində qaldırdığı "Ümumi tarix nədir və

onu nə məqsədlə öyrənirlər?" sualına verdiyi cavab yalnız alman idealizm tarixinin traktovkası üçün əhəmiyyət daşımır. Bu cavab bizim sahəmizin tarixinə tənqidi baxmağı asanlaşdırır. Gözləntilərə aydınlıq gətirir. O gözləntilərə ki, XIX əsr ədəbiyyat tarixi ümumi tarix yaradıcılığı ilə rəqabət apararaq tarixin idealist fəlsəfəsinin vəsiyyətini yerinə yetirməyə can atırdı. Bununla o, "tarixi məktəb"in öyrədici idealının nəyə görə öz arxasınca böhran gətirdiyini və ədəbiyyat tarixinin tənəzzülə uğradığını başa düşməyə imkan yaratmış olurdu.

Bizim üçün əsas şahid Hervinus ola bilər. O "Almanların milli poetik ədəbiyyatı tarixi"nin (1855-1862) ilk elmi yaradıcısı olmaqla bərabər, həm də tarixi təlimin müəllifi olan ilk və yeganə filoloq idi. Onun "Tarixin əsasları"nda Vilhelm fon Humboltun "Tarixinin vəzifəsinə dair" (1821) əsərinin başlıca ideyası nəzəriyyəyə çevrilir. Bunun köməyi ilə Hervinus (başqa bir əsərində) bədii ədəbiyyat tarixinin ali məqsədini əsaslandırdı. Ədəbiyyat tarixçisi yalnız o vaxt tarixçiyə çevrilir ki, predmeti öyrənərkən öz materialında "bir əsas ideya tapır, həmin ideya hadisələrin düzümünə baxmaq üçün məhz onun özü tərəfindən götürülmüş dünya hadisələrini bir ipə düzür, qeyd edir və əlaqələndirir". Bu aparıcı ideya (Şillerə görə, bəşəriyyətin dünya tarixi üzrə inkişafını başa düşməyə şərait yaradan ümumi teleoloji prinsip) artıq Humboltun "Milli fərdilik ideyası"nın ayrı-ayrı deyimlərində özünü göstərirdi. Lakin Hervinus tarixin bu "ideal izah üsulunu" mənimsəyərək nəzərə çarpmadan Humboltun "tarixi ideya"sını milli ideologiyanın maraqlarına tabe edir: alman ədəbiyyatının milli tarixi nümayiş etdirməlidir ki, "yunanların bəşəriyyətə oriyentir kimi təklif etdikləri və məhz almanların öz təbiətlərinə görə əzəl başdan meyilli olduqları ağıllı ideallar yenidən onlar tərəfindən şüurlu olaraq və sərbəst şəkildə seçilmişdir". Maarifçilik tarixi fəlsəfəsinin universal ideyası milli fərdiyyət tarixlərinin çoxluğuna parçalandı və son nəticədə almanlar haqqında yunanların əsl varisləri olduğu barədə belə bir mif yarandı... "bu ideyaların bütün təmizliyi ilə həyata keçirilməsi ixtiyarı yalnız onlara verilib".

Hervinusun timsalında təsvir olunmuş fikirlərin hərəkəti yalnız XIX əsr mənəvi tarixi üçün səciyyəvi hadisə deyil. Tarixi məktəbin idealist fəlsəfəyə xas olan tarixin teleoloji modelindən biryolluq əl çəkdiyi bir məqamda bu həm ədəbiyyat tarixi üçün, həm də ümumilikdə tarix elmi üçün aydın metodoloji mühakimələri ehtiva edir. Əgər tarixin fəlsəfəsinin irəli sürdüyü çözüm hadisənin gedişi dünya tarixinin inkişafının "ideal ali məqam məqsədləri" nöqteyi-nəzərindən başa düşülərkən öz qeyri-tarixiliyinə görə geri oturdulursa, onda heç vaxt bütöv verilməmiş tarixin bütövlüyü başa düşülə və təqdim oluna bilməz. Bununla da ümumi tarix idealı (H.Q.Qadamerin göstərdiyi kimi) tarixçi üçün uyğunsuz olacaq. Hervinus yazırdı: "Tarixçi hadisələrin düyümünün açılışını bilmədiyindən, keçmiş haqqında mühakimə yürütmək gücündə olmadığı üçün yalnız başa çatmış sıralanmaları təsvir etməyə çalışa bilər". Milli tarixlər yalnız o vaxt başa çatmış hesab oluna bilər ki, hadisələrin düzümü siyasətdə milli birlik və ya ədəbiyyatda milli klassikanın yaranması ilə nəticələnsin. Lakin "hadisələrin düyümünün açılışı"ndan sonra tarixin gedişi labüd olaraq əvvəlki dilemmaya qayıtdı. Bu vəziyyətdə Hervinus son nəticədə öz təlaşını üzə vurmamağa məcbur oldu. Hegelin "incəsənətin sonu" qənaəti ilə tam razılaşaraq klassik dövrədən sonrakı ədəbiyyatı təmiz cırlaşma kimi qələmə verdi, "məqsədi olmayan istedadlara" isə məsləhət gördü ki, real dünya və dövlət işləri ilə məşğul olsunlar.

Beləliklə, tarixi məktəbin nümayəndəsi tarixin "əvvəli və sonu" dilemmasını aradan qaldıraraq "epoxa" anlayışını özü üçün tam aydınlaşdırıb "hadisələrin düyümünün açılışı na qədəri tam təsvir eləyə bilmədiyi halda, sonra gələn epoxaya əhəmiyyət vermədən "epoxalar" kateqoriyaları ilə işləməyə qayıtdı. Epoxaların təsviri kimi başa düşülən tarix - tarixi məktəbin metodik idealının daha tam gerçəkləşdirilməsini vəd edirdi. Ədəbiyyat tarixi ədəbiyyatda milli fərdiliyin açılması ilə məhdudlaşa bilmədiyi zaman isə tarixi bir-birini əvəzləyən epoxaların sırası kimi düzməyə üstünlük verdi. Bu tarixi metodun əsas qanunu - tarixçinin öz predmetindən aralı məsafədə dayanması və onu məhz müstəqil, fərdi düşüncə bütövlüyü kimi "epoxaya" tətbiq edilə bilən tam obyektivliklə təqdim etməsidir. Əgər "tam obyektivlik" tarixçidən, özünün müasirliyi nöqteyi-nəzərindən əl çəkməyi tələb eləyirsə, onda keçmiş epoxaların dəyəri və əhəmiyyəti tarixin sonrakı gedişindən asılı olmayaraq dərk edilməlidir.

Rankenin 1854-cü ildəki məşhur çıxışı bu postulatı teleoloji baxımdan əsaslandırır: "Mən təsdiq edirəm ki, hər bir epoxa, özlüyündə birbaşa Allaha üz tutur və dəyəri ondan sonra gələn epoxada deyil, elə onun özündə, onun mövcudluğunda, onun özlüyündədir".

Tarixin "tərəqqisi" barədə suala bu yeni cavab tarixçiyə yeni teodesiyanın qurulmasının yolunu göstərir: epoxaya hansısa mühüm bir şey kimi baxaraq və onu bu cür təqdim edərək Allaha epoxaları sadəcə növbəti nəsillərin mərhələsi kimi qiymətləndirən və bununla da daha sonrakı və "ilahi ədalətsizlik" arasında seçim etməyi təklif eləyən tarixi tərəqqi fəlsəfəsi qarşısında bəraət qazandırır.

Bununla belə, tarixin fəlsəfəsinin qaldırdığı problemi tarixin keçmişi ilə indisi arasındakı - "özlüyündə necə olmuş" epoxa ilə "ondan nə çıxdı" arasındakı əlaqəni pozmaq bahasına həll edir. Tarixin maarifçilik fəlsəfəsindən aralanaraq hadisələrə tarixi ardıcıllıqla yanaşma həm ümumi tarixin teleoloji konstruksiyasından, həm də, Şillerə görə, ilk növbədə tarixçini və tarixçinin fəaliyyət üsulunu səciyyələndirən metodik prinsipindən: keçmişi indi ilə bağlamaq zərurətindən imtina elədi. Yalnız anlaşılmazlığa görə bu mühüm kəşf ehtikar mühakimə hesab edilə bilər. Bu prinsipdən imtina etmək tarixi məktəb üçün "cəzasız" ötüşə bilməzdi. XIX əsr ədəbiyyat tarixi öz uğuruna görə tamamilə onun hər bir faktında milli fərdilik ideyasının "gözə görünmədən mövcud olması" qənaətinə borcludur.

Bu cür ideya ədəbi əsərlərin ardıcıllığında tarixin formasını müəyyən etməyə imkan verir. Bu qənaətin yox olması ilə hadisələri birləşdirən bağ da qırıldı. Nəticədə, keçmiş və müasir ədəbiyyat müzakirələrin ayrı-ayrı sahələrinə parçalandı, ədəbi faktların seçimi, qanunauyğunluğa əsasən təsnifatı və qiymətləndirilməsi problemə çevrildi. Elə bu böhran da pozivitivizmə dönüş üçün şərait yaratdı. Pozivitist məktəbin qənaətinə görə, onlar ehtiyacın öhdəsindən təbiət elmlərinin dəqiq metodlarını qəbul etməklə gələ bilərlər. Nəticə hamıya bəllidir: təmiz səbəbiyyət izahı prinsipindən istifadə ədəbi prosesə münasibətdə yalnız xarici şərtləri müəyyənləşdirdi, hədsiz böyük miqyasda mənbələrin araşdırılmasına səbəb oldu və bədii əsərin səciyyəvi özünəməxsusluğunu müxtəlif "təsirlər"in saysız-hesabsız kələfinə dolaşdırdı.

Etiraz kifayət qədər tez gəldi. Ədəbiyyata "ruh haqqında elmlər" yiyələndi, bu elmlər tarixin səbəbiyyətə əsaslanan izahını yaradıcılığın irrasional estetikasına qarşı qoyur, poeziyada əbədi ideyalara və motivlərə qayıdış axtarırdı. Almaniyada "ruh haqqında elm" məktəbindən təməlqoyucu millisosial ədəbiyyatşünaslığın hazırlanmasında və əsaslandırılmasında istifadə olundu. Müharibədən sonra onu yeni metodlar sıxışdırdı, həmin metodlar sayəsində ədəbiyyatşünaslığın ideologiyasızlaşdırılması başa çatdırıldı, lakin ədəbiyyat tarixinin klassik məsələlərinin həlli öz inkişafını tapa bilmədi. Ədəbiyyat öz tarixində (ümumi tarixə münasibətdə) "ideya və anlayışlar tarixi" və ya Abi Varburqun məktəbinin təsiri ilə çiçəklənən ənənələrin araşdırılması kimi yeni istiqamətlərin maraqları xaricində qaldı. Onlardan birincisi gizli şəkildə fəlsəfə tarixini "ədəbiyyatın güzgüsü"ndə yeniləməyə can atır, ikincisi isə tarixdə həyat təcrübəsinin əhəmiyyətini neytrallaşdırmağa. Onların başlıca öyrədici marağı ədəbi hadisələrin qaynaqlarına yönəlib və ya ədəbi hadisənin müasirliyinə və bənzərsizliyinə deyil, ənənənin zamanın fövqündə olan arasıkəsilməzliyinə istiqamətlənib.

Daimi dəyişkənlikdə əbədiliyin dərk olunması tarixi anlayış üzərində zəhmət çəkmək borcunu aradan qaldırır. Antik irsin ali prinsip həddinə qaldırılmış arasıkəsilməz ideyası Ernst Robert Kurtiusun monumental əsərində verilmişdir (sonradan bu əsərdən epiqonçu araşdırıcıların tam bir legionu qidalandı). Həmin ideya yaradıcılıq ilə təqlid arasında, yüksək poeziya ilə elə belə ədəbiyyat arasındakı gərginliyi, tarixən birbaşa ədəbi ənənənin canında olan gərginliyi göz önünə gətirdi. Şedevrlərin zaman fövqündəki klassikliyi özündən sonra tarixi "teqra incognita" kimi buraxaraq "dolayılıq ənənəsinin möhkəm zənciri"ndən yüksəyə qalxır.

Ədəbiyyata tarixi və estetik baxış arasındakı uçurum kimi baxmaq burada da qeyri-müəyyən qalır, ədəbiyyatı poeziyaya və qeyri-poeziyaya ayıran xanım Benedetto Korçenin "ad absurdum" nəzəriyyəsi kimi. Təmiz poeziya ilə aktual ədəbiyyat arasındakı antaqonizm yalnız o vaxt ortadan götürülə bilər ki, onun əsasında duran estetika öz əhəmiyyətliliyini itirsin, başqa sözlə, aydın olsun ki, "yaradıcılıq"la "təqlid" qarşıdurması humanizm dövrünün sənəti üçün səciyyəvidir və

modernist və ya əksinə, orta əsrlər ədəbiyyatının xüsusiyyətlərini başa düşməyə imkan vermir. Pozitivist və idealist məktəblərdən ədəbiyyatın sosiologiyası və əsərin immanent təhlili metodu ayrıldı ki, bunlar da poeziya ilə tarix arasındakı uçurumu daha da dərinləşdirdi. Bunların hamısından da sərt olanı marksist ədəbiyyat nəzəriyyəsi ilə formalist metod arasındakı qarşıdurmadır. Müasir ədəbiyyatşünaslıq tarixindən əvvəlki tənqidi yanaşmanın mərkəzində məhz bunlar var.

VI

Ədəbiyyat tarixinin yenilənməsi tarixi obyektivizm xurafatı zehniyyətinin dağıdılmasını, qavrama və təsir estetikası prinsipləri ilə ənənəvi səmərəli-təsviri estetikanın əsaslandırılmasını tələb edir. Ədəbiyyatın tarixiliyi müəyyən edilmiş post festumda "ədəbi faktların" qarşılıqlı əlaqəsində deyil, ədəbi əsərin oxucu tərəfindən indiyəqədərki dərkindədir. Ədəbiyyat tarixi də bu dialoji münasibətdən çıxış etməlidir. Ədəbiyyat tarixçisi ədəbiyyatı başa düşməkdən və qiymətləndirməkdən öncə öz mövqeyinin oxucuların tarixi sıralanmasında müasir olduğunu dərk etməlidir.

R.Q.Kollinqvud "tarix - keçmiş məfkurənin tarixçi idrakında ifadə olunmasından başqa bir şey deyildir" postulatını tarixşünaslıqda hökmranlıq edən obyektivlik ideologiyasını tənqid edərək irəli sürmüşdü. Bu ideologiya hələ də ədəbiyyat tarixinə geniş miqyasda tətbiq edilir.

Tarixin pozitivist (keçmişdəki hadisələrin ardıcıllıqla "obyektiv" təsvir olunması) dərki bədii xarakter kimi əlçatmaz olduğu qədər ədəbiyyatın səciyyəvi tarixiliyi kimi də əlçatmazdır. Ədəbi əsər tam yetərli deyil, o hər bir müşahidəçiyə bütün zamanlarda eyni obrazı təqdim etmir. Bu, öz əbədi varlığını monoloji şəkildə ortaya qoyan heykəl deyil. Ədəbi əsər, hər şeydən öncə, mətni söz materiyasından azad edən, ona aktual varlıq verən yeni oxucu rezonansı üçün zəruri olan oxu partiturasını xatırladır. "Sözü onun ifadə etdiyi ilə eyni zamanda onu başa düşməyə qadir olan adresat yaradır". Əsərin bu dialoji xarakteri filoloji biliyin nə üçün yalnız mətnlə arasıkəsilməz qarşıdurmada olduğuna və filoloji biliyin nə üçün faktlar barədə biliyə çevrilməli olmadığına da aydınlıq gətirir. Filoloji bilik daim interpretasiya ilə bağlıdır, interpretasiyanın məqsədi isə yeni qavrama anı kimi öz predmetinin qavranılması aktlarının dərk olunması və təsvir edilməsi olmalıdır.

Ədəbiyyat tarixi - ədəbiyyatın estetik resepsiyası (iqtibası) və istehsalı prosesidir, qavrayan oxucunun, tənqidçiyə və yaradıcıya, başqa sözlə, ədəbi prosesdə daim iştirak edən yazıçıya reaksiya verən oxucunun səyləri ilə bədii mətnlərin gerçəkləşdirilməsində həyata keçirilir. "Ədəbi faktlar"ın əndazəsiz, daim böyüyən məcmusu, ənənəvi ədəbiyyat tarixlərində olduğu kimi, üst-üstə yığılmış və çeşidlənmiş keçmişin "qalığı"ndan və ya izindən başqa bir şey deyil, elə buna görə də tarix deyil, yalançı tarixdir. Ədəbi faktların bu cür düzümünə ədəbiyyat tarixinin tərkib hissəsi kimi baxan tədqiqatçı sənət əsərinin hadisəlilik xarakteri ilə tarixi həqiqəti dəyişik salır. Kretyen de Truanın "Perseval" əsərinin "tarixiliyi" ədəbi hadisə kimi "tarixilik"lə, məsələn, onunla eyni vaxta düşən üçüncü səlib yürüşü ilə eyniyyət təşkil etmir. Bu, ilkin situativ şərtlərlə və münasibətlərlə, yaxud məqsədlərin, tarixin hərəkətinin, tarixin zəruri və ya təsadüfi nəticələrinin motivlərinin rekonstruksiyası vasitəsilə səbəbiyyətə görə izah oluna biləcək "fakt" deyil. Əsərin arayaərsəyə gəldiyi tarixi kontekst üçün müşahidəçidən asılı olmayaraq mövcud olan faktiki hadisələrin cəmi tam yetərli deyil. "Perseval" Kretyenin yalnız o oxucusu üçün ədəbi hadisə ola bilər ki, onun əvvəlki əsərlərini xatırlayaraq son əsərini oxuyur, başqa sözlə, "Perseval"ı yazıçının bu və ya digər tanış əsərləri ilə müqayisə edərək oxuyur. Bununla da o, gələcək əsərləri müqayisə edə bilmək üçün yeni miqyas qazanır. Siyasi hadisədən fərqli olaraq ədəbi hadisə yeni nəsilləri özünə cəlb edə biləcək kifayət qədər zəruri nəticələrə malik olmur. Ədəbi hadisə yalnız yeni nəsillərə, o cümlədən keçmişdə yaranmış əsərləri yeni mövqedən başa düşməyə çalışan oxuculara, həmin əsəri təqlid etmək, ondan yaxşısını yazmaq və ya onu inkar etmək istəyən müəlliflərə yenidən təsir göstərməkdə və onlar tərəfindən qavranılmaqda davam edir. Müasir və gələcək oxucuların, tənqidçilərin, müəlliflərin ədəbi təcrübəsini təşkil edən gözləntilərin üfüqü əvvəlcə ədəbiyyatın hadisəlilik əlaqəsini strukturlaşdırır. Sonra isə gözləntilərin bu üfüqünün gerçəyə çevrilmə imkanı ədəbiyyat tarixini və onun ədəbiyyat tarixinə xas tarixilik üzrə düzülüşünü başa düşmək potensialını müəyyənləşdirir.

Anar GÜLÜMSOY

ÇÖRƏK QIRIĞI

gör nə boyda günahkaram,
üstündən keçmişəm, koram.
diz çökürəm, yalvarıram:
-bağışla, çörək qırığı!

yerdən yığıl, gözümə dol,
ömrüm boyu gözümdə ol,
qayıtmışam gözüm dolu;
bağışla, çörək qırığı!

tez ol, dur çıx ürəyimə,
vermə acıq ürəyimə,
məni qırıq ürəyimə
bağışla, çörək qırığı!

BİGANƏ

kədərə, qüssəyə doğulmadım, yox!
bu dərdi kəsməyin, doğramağın yox,
mənim bu şəhərdə doğmalarım yox,
sən varsan, sən də ki ehh...

hanı bu hicranın əvvəli, axrı,
kim qazıb aradan su keçən arxı?
bax gör ürəyimdə kim var, kim axı?!
sən varsan, sən də ki ehh...

güvənmə bu günə, güvənmə çox da ,
dönüb xatirəyə qalar uzaqda.
gözüm aynasında qalan otaqda
sən varsan, sən də ki ehh...

QAR

bircə kərə ol duyğulu,
baxma mənə gözüyuxulu.
yaxşı bilir soyuqluğu
qara düşən.

əlimdəki qarı görüb
gülmə mənə,
bir fikirləş.
əriyirəm qar kimi mən,
sən, ey günəş,
qara düşmən.

sənə olan gileyimi
büküb payız yarpağına
gətirmişəm,
mən bu qarı
heç bilirsən
ürəyindən götürmüşəm?
eh... sənin nə vecinə.
təkcə mənəm qara düşən,
qar düşünən.

HA-HA-HA...

mən bu şəhərə ögey,
bu şəhər mənə doğma.
ay şəhər qızı, eheey...
mənə qəribtək baxma,
yad deyiləm!

nə etsən də, səngimir
qəlbimin “sən, sən...” səsi
çalışma söndürməyə
ha-ha-ha... mən sönəsi
od deyiləm

ehh, önümdə qış durub,
bu ömrümə yaz haram.
dəli kimi qışqırıb,
dərdimi ya yazaram,
ya deyərəm...

Qara bəxtin dağınıq cümləsi...

(Roma Xosrovun şeirləri haqqında)

Harada "laçın" sözü varsa, orda bir ayrılıq var. O da olmuş Laçın rayonu erməni işğalında ola, o da olmuş "laçın" sözü gözəl bir gənc şairin həm ilham mənbəyi, həm də həsrəti ola.

Roma Xosrov Laçın rayonunun Alxaslı kəndindəndir. İlk dəfə "Pərvanə" ədəbi məclisində gördüm, qürurlu, cəld, çevik, həm də səliqə ilə geyinmiş bu cavan oğlan. Şeirlərini oxudu, diqqətimi çəkdi və sonra "yoxa çıxdı". "Pərvanə"yə gəlmədi. O vaxtdan mətbuat səhifələrində, internet saytlarında ara-sıra imzasını gördüm. Uğurlu misralarına sevindim.

Mən "Azərbaycan" jurnalında işlədiyimdən, demək olar ki, şeirin içində itib-batıram. İş otağıma gəlsəniz, şeir qovluqlarının arxasında az qala görünmürəm. Yaxşı bir şeir axtarmaqdayam. Təəssüflər olsun ki, o yaxşı şeirlər də qarşıma az-az çıxır. Boz bir şeir yığını məni ayağının altına almaqdadır.

Yaxşı ki, Romanın şeirlərini oxudum. Nəfəsim bir az genişləndi, gözlərim işıqlandı. Təəssüflər olsun ki, bu utancaq cavan oğlan başqalarından fərqli olaraq redaksiyaların qapısını heç vaxt döyməyib.

İstedadsızlar redaksiyaların qapısını cəftəsindən çıxarır, istedadlı adam döyəndə qapının cəftəsi yerinə düşür. Bu mənada Roma laxlayan qapını şeirləri ilə bir az yerinə oturtdu.

Gənc şairin fərqli düşüncəsi, hadisələrə yeni münasibəti məni sevindirir. Baxanda şeirlərinin əksəriyyəti heca vəznindədir, amma bu fərqli heca intonasiyasıdır.

Ənənəvi heca şeirlərindən, deyək ki, ritmi və səsi ilə fərqlənir. Mənə elə gəlir ki, hər bir şeirin səsi var və bu şeirlər də öz səsi ilə mövcuddur.

"Pərvanə"yə gələn Roma ilə indiki Romanın arasında yer-göy qədər fərq var. O vaxt şairin şeirlərinin istiqaməti xoşuma gəlmişdi, məncə, bu, poeziyada əsas şərtdir. Elə şairlər var ki, onun şeirlərinin mənzili gedib şeir tullantılarına çıxır. Amma Romanın şeirlərinin yolu çiçəkli bir dağa və ya insan təfəkkürünün ən dərin qatlarına gedir. Şeirləri müxtəlif mövzulardadır. Ölüm, sevgi, vətən və qadın. Başlıca üslub səmimiyyətdir, fikirlərini misralarda dəqiq ifadə etməkdir.

Heyif ki, qapını döyə bilmirəm,
Sənin ürəyinə qıfıl asılıb.
Axı küçənizdə nə itim azıb,
Daha qucağına körpə qısılıb.

Burda aşiqin yolunu kəsən əxlaqdır. Hər körpə hər gəlinin qucağında qırmızı yol işarəsidir. Məhz bu körpənin xatirinə "sizin qapınızda nə itim azıb? - deyilir. İstedadsız şair belə deyərdi: "Sizin qapınızda nə işim var?" İt burda fikrin güclənməsində mühüm rol oynayır. "Körpənin qadının sinəsinə qısılması" da həmin insana və bütövlükdə insanlığa qayğı və hörmət hissini özündə ehtiva edir.

Və yaxud:

Ölüm xəbərsiz gəlirmiş,
Kim deyir, deyib aparır.
O dünyaya hər bir kəsi
Bu dünya əyib aparır.

İlk anda diqqəti bu bənddə qafiyə çəkə bilər. Amma fikirləşəndə görürsən ki, bu dünyada ölənlərin hamısını əyib aparırlar. Birinci fiziki məna budur ki, dünya qapısından çıxanda başını aşağı əyməlisən ki, yuxarı dəyməsin. Yəni dünya evinin qapısı alçaqdır. İkinci və əsas məna budur ki, insanları əyib, sındırıb aparırlar.

Saniyələr elə bil
Ömür yox, küçə keçir.
Boylanırsan "divara",
Baxırsan, gecə keçir.

Zaman dəyişir yaşı,
Vaxta baxmamaq olmur.
Saatın ölür daşı,
Vaxtı saxlamaq olmur.

Ürək saata oxşar,
Hər ikisi tələsir.
Saat ürəyi qovur,
Ürək nəfəsi kəsir.

Niyə bu şeiri bütöv yazdım? Romanın elə şeirləri var ki, yalnız onu bütöv yazanda fikir tam aydınlaşır. O təkcə misra şairi deyil. Bu şeirə fikir verin. Yaşadığımız və baş açmadığımız bu həyat və ömür saatın obrazında göstərilib. Saniyələrin işinə bax ki, elə bil ömrü deyil, küçəni keçir. Yəni dünya onun vecinə deyil. Saat mexanizmində göstərilən ömür çox maraqlı göründü mənə.

Romanın şeirlərinin yaşı qədimdir, təkcə mövzu etibarı ilə deyil, həm də deyiliş, intonasiya baxımından qədimdir.

Məsələn:
Qızılgülə baxdım, bir də şəklinə,
Yazığı kolundan dərib utandım.

Bu intonasiya təzəliyi göstərir ki, Roma bu şeirə gəlib çıxmaq üçün nə qədər şeirlər yazıb və bu şeirlər müəyyən təcrübənin məhsuludur. Yenə həmin şeirdən:

Yüz kərə yolunda qızardı üzüm,
Dolaşıb dilimdə qaldı çox sözüm.
Bir anda küçədə sataşdı gözüm,
Əlini yad əldə görüb utandım.

Nə qədər gözəl! Adamın üzü yarla üz-üzə dayananda qızarar, yəni aşiq utanar, üz də qızarar. Amma burda aşiqin üzü məşuqənin yolunda qızarır. Çünki onun əməllərindən, vəfasızlığından , əğyarla əlbir və dilbir olmasından qızarır. Romanın şeirləri yetkin şeirlərdir:

Nə qış bilsin, sazaq bilsin,
Özün qəmdən uzaq bilsin,
Qollarımı dayaq bilsin,
Sarılıb belin aldadım.

Bəlkə də, ədəbiyyatın bir adı da aldanmaqdır və ya aldatmaqdır. Amma gərək gözəl aldada biləsən. Elə bizim dünyaya gəlişimiz aldanmaqdır. Amma gözəl aldanmaq! Bir qadının belini qollarla aldatmağın özü də bir həyatdır. Əslində "belin" sözü ismin təsirlik halındadır. Burada "i" səsi düşüb. Yaxşı ki, düşüb. Qayda pozulub, yaxşı ki, pozulub. Bu, xalqdan gəlmədir. Xalq isə heç vaxt səhv eləmir.

Səni qara bəxtimin
Dağınıq cümləsində
Sonuncu nida bilib,
Ruhuma qida bilib
Gəzdim ehtiyac kimi.

"Qara bəxtin dağınıq cümləsi" elə həyatın özüdür. Əgər bu cümlə dağınıq yox, səliqəli olsaydı, həyat və sevgi şirin olmazdı. Əsl şairlik də elə bu dağınıq cümlələrdədir.

Qəşəm NƏCƏFZADƏ

Şəfa VƏLİ

***

Başımdan sevda havası
Duman-duman çəkilir ey...
Kədərlə sevinc davası
Baxış-baxış sökülür ey...

Ey... bəxti olmayan sevdam,
Xoşuna gələn bəddimi?
Ey... yoxluğuyla ovudan
Hisslərimin sərhədini...

Yox-dediyin əbədi Var!
Var-dediyin könlü yıxar.
Adında eşq məbədi var,
Əlim günbəzinə qalxar...

***

Qapı açıq, taybatay,
Getmək ürək istəyir.
Bax bu il... elə bu ay
Ölmək ürək istəyir.

Ölməyə söz vermirəm,
Gedirəm... bax, gedirəm.
Sənə vida etmirəm,
Dərdə qonaq gedirəm.

Gedişlər möhtəşəmdi,
Yola salan sağ olsun.
Dilimdə pörşələndi,
Burax, sözüm dağ olsun.

Könlünə xoş gəlmədim,
Yolum uzağa düşdü.
Mən səni tərk etmədim,
Səndən qabağa düşdüm.

"AĞARMIŞ GÜN"

Səndən ayrılmaq
səninlə yaşamaqdı, əslində,
sonsuz kədərləri.
Səni unutmaq
əbədilik qazandırmaqdı, əslində,
yaddaşımdakı xatirələrə.
Səni sevmək
Dünyadan bac almaqdı, əslində,
açılmayacaq sabahlara.
Sənsiz ölmək
ağarmış günlərə bürünməkdi, əslində,
kəfən əvəzinə.
Bağışla.
Sözündən çıxdım yenə də.
Ağartmadım günlərimi,
İstərsən,
Bağışlama.
Və bir daha heç kimi
Yollarına baxmaqdan qarasını itirən
göz kimi
ağarmış günə yollama.

***

Əntiqə Səməndərə

Dostum, küsə bilərsən,
Yenə ikinci oldun.
Getdi bütün sevgilər,
Mənsə seyrçi oldum.

Sənə "bağışla" demək
Günahım sayılacaq.
Dodağım büküləcək,
Gözlərim qıyılacaq.

Bu qız sənə tanışdı,
Darıxar özü üçün.
Gəl, bir şeir danışım,
Elə belə, söz üçün.

Küssək də hər axşamdan,
Bu günlə barışmışıq.
Bir də, soruşmasan da,
"O"nunla ayrılmışıq.

***

Yaxşı ki, soruşmadın
Bu il də əhvalımı.
Gözümdən oğurladın
Köhnə, nimdaş halımı.

Sən soruşmadın deyə
Mən də "sənsiz" olmadım.
"Darıxmaqdan ölməyə"
Bir il cığır salmadım.

Amma... birdən inciyər
O kiçik söz: - necəsən?
Gərək elə mən deyəm?!
Özün söylə! Necəsən?

***

Üşüdünmü bu axşam?
Keçdimmi ürəyindən?
Mən elə darıxmışam.
Sən bildinmi, bilmirəm...

Ütüləyib yığdığım
Xatirələri açdım.
Bir vaxtlar utandığım
Şəkillərinə baxdım.

Adın çəkdim... bəzəndi
Dünyam nişanlı qıztək.
Günlər ürək üzəndi,
Gəl, ömrün ipini çək.

Gəl, götür əllərimdən
Əlinin yaddaşını...
Pozmağa da cəhd elə
"Dəli"nin yaddaşını.

Üz bütün ümidləri,
De ki, heç olmamışam.
Yandırdım şəkilləri,
Üşüdünmü bu axşam?

Bir dəlinin manifesti

Tural SAHAB

Onun adı ilə.....

Necə kədərli bir gündü - şeir kimi, söz kimi, payızın sonlarında ağacların oxuduğu bahar nəğməsi kimi. O günü unutmaq istəmirəm mən, çünki unutmaq ölmək, yox olmaqdı. Unutmaq ruhumun intiharıdı. Mən nə üçün yaşayıram? Nə üçün? Bu sualı hər dəfə özümə verəndə duyğulanır, insanların olmadığı bir yerə çəkilib göy üzünə doğru yönəldib baxışlarımı, gözlərimə təslim oluram - ağlayıram doyunca. Yox, yox, əslində, buna ağlamaq demək olmaz. Bu sadəcə kirlənən arzularımın, ümidlərimin təmizlənməsidir. Axı həkimlər də demirmi, göz yaşının tərkibində elə şeylər var ki, insanın gözlərini, yanaqlarını, hətta barmaqlarını təmizləyir. Bəli, mən göz yaşlarımla təmizləyirəm hər dəfə sənsizliyi. Nə isə... mövzudan çox uzaqlaşmayaq. Nə üçün yaşayıram sualına cavab verim. Mən səni unutmamaq üçün yaşayıram. Ən qorxduğum şey səni unutmaqdı... axı bilirəm, səni unutmaq mənim ölümüm olacaq, mən səni unutduğum gün öləcəm. Onun üçün unutmaq istəmirəm. Səhv anlama məni. Birdən düşünərsən ki, ölümdən qorxuram. Yox, yox, əsla qorxmuram. Səni unutmaq ölümüm olacaq, ancaq bu ölüm başqa ölümlərə bənzəməyəcək. Ayaq üstə olacam bir müddət, bəlkə - yeriyəcəm, danışacam, güləcəm. Ancaq nə fayda, ölmüş olacam. Mənim ən gözəl anlarım səni düşünərək keçdi, keçir... mənim sevincim sənin üçün acı çəkməkdi. Ürəyimdə bir rəsmin var. Saf, təmiz bir üzünlə gəlirsən yuxularıma. Sonuncu dəfə səni, deyəsən, oxuduğumuz ali məktəbin pilləkənlərində gördüm. Mən aşağı düşərkən sən ərinlə yuxarıya doğru addımlayırdın. Səni başqasının yanında görmək öldürmədi məni. Axı sən mənim ürəyimdə, ruhumda idin. Ürəyimdə kim toxuna bilərdi sənə, kim sənlə yanaşı addımlamağa cəsarət edə bilərdi. Bax, onun üçün sakitcə keçdim yanından. Bir daha görmədim səni. Bağışla, səni bu qədər düşünməklə, bəlkə də, narahat edirəm, səni bu qədər sevməklə incidirəm, bəlkə də... ancaq nə edə bilərəm. Sən ürəyimə hopan bir şeirsən, damarlarımda dolaşan...

O gündən danışırdım. Nə olmuşdu o gün... mənə yaxınlaşdın. Yəqin ki, bu qədər acı çəkməyimə dözmədi ürəyin. Təsəlli vermək istədin mənə. Unut dedin, unut məni. Başqa qadınları sevəcəksən, xoşbəxt olacaqsan, ancaq məni unut. O an gözlərimdən axan yaşı görə bildinmi, görəsən? Bəlkə də, gördün, ancaq göz yaşlarımla qovuşacaq qədər cəsarətli olmadı barmaqların. Bilirsənmi, dediyin kimi etdim - başqa qadınları da sevdim. Ancaq xoşbəxt ola bilmədim. Tanış olduğum qızlara səndən danışırdım, onlara gələcəklə bağlı romantik xəyallar lazımdı. Mən isə səndən danışırdım, səni axtarırdım sevdiyim bütün qızların gözlərində.

Indi aradan illər keçib. Ürəyimdə nə qədər böyümüsən, bir xəbərin olsa... görsən ürəyimdəki səni. Səndən sonra normal insanların yanında yaşaya, işləyə bilməzdim, bilmədim də. Onun üçün də bir xəstəxanada - ağlını itirmiş insanların olduğu bir xəstəxanada işə başladım. Burada çox şey gördüm, çox şey eşitdim, ancaq mən burada rahatam. Bu insanlar mənə acı çəkdirmir. Hər birinin hekayəsi var. O hekayələri duymaq üçünsə onların gözlərindən ruhlarına baxmaq lazımdı. Inan ki, mən onların gözlərində özümü, həyatı gördüm. Mən yaşamağı o insanların arasında öyrəndim. İtirdikləri ilə itirdiklərimi xatırladım. Ancaq onlar məndən daha cəsur insanlardı. Bu həyatda heç bir işə yaramayan ağıldan çoxdan imtina etmişlər, ancaq mən hələ də ağlımın ucbatından əzab çəkirəm. Bəlkə də, qorxuram ağlımla birlikdə səni də itirəcəyimdən... Onun üçün də nə qədər əzabverici olsa da tərk edə bilmirəm ağlı. Elə çox istərdim ki, sənin üçün dəli olmağı, elə çox, sevgilim...

Xəstəxanada işə başlayanda, deyəsən, payızın ilk ayları idi. Bəli, bəli, oktyabr ayı - yağışlı bir gün. Səhər tezdən yuxudan oyandım, hazırlaşıb işə gəldim. Yağış, külək və sənsizlikdən titrəyən ayaqlarım həyatın romantik faciəsi idi sanki o gün. Yavaş-yavaş addımlayırdım, axı qorxurdum gedəcəyim yerdən. Orada nə ilə qarşılaşacağımı bilmirdim. Ancaq ürəyimin gizli bir yerində sevinirdim, çünki ağıllı insanların dünyasından xilas olacaqdım. Daha mənə gic-gic suallar verməyəcəkdi insanlar. Küləyin, yağışın yaraladığı yarpaqları havada oynatdığı kimi fırlatmışdı həyat məni. Nəhayət, gəlib çatdım. Üç mərtəbəli bu binanı sarı rəngli boya ilə rəngləmişdilər. Binanın ətrafında uca hasarlar çəkilmiş, hasarın üzərində də tikanli məftillər vardı. Darvazanın yanında isə ucaboylu, enlikürək insanabənzər iki nəfər dayanmışdı. Bəli, insan deyil insanabənzər. Bu insanların üzünə baxanda adam istər - istəməz cəhənnəmi düşünürdü. Bir an onların qəlb daşıdığını düşündüm də, ilahi, o incə ürək, bu kobud bədənlərdə necə döyünə bilirdi, necə üsyan edirdi yaşatmağa, o qıllı sinələrini parçalayıb çölə çıxmırdı. Görəsən, bu insanların bir qadını varmı, və ya bir qadını sevmişdilərmi?! Bu düşüncələrlə pilləkənlərdən yuxarı çıxdım. Müdirin otağı ikinci mərtəbədə, koridorun sonunda, sağ tərəfdə idi. Qapını döyüb içəri keçdim. Müdir əlli yaşlarında mehriban bir insana oxşayırdı. Nə isə bəzi xırda işləri həll etdikdən sonra işə başladım. Müdir uzun-uzadı mənə xəstələr haqqında məlumat verdi. Burada müalicə alan hər bir xəstənin dosyasını diqqətlə oxumağımı tapşırdı. Onlardan bəziləri çox təhlükəli insanlardı. Neçə-neçə qatil də vardı burada. Onun üçün kiçik bir diqqətsizlik həyatımı itirməmə səbəb olardı. Mənim işim onlara psixoloji yardım etmək olacaqdı guya. İxtisasım bu olsa da, psixoloji dəstəyə ən çox özümün ehtiyacım vardı. Bunları ağlımdan keçirərkən bir an özümü saxlaya bilməyib güldüm. Mənimlə yanaşı addımlayan müdir gülərək zarafat elədi mənə:

- Yoldaş Məmmədov, unutmayın siz buraya xəstə yox, həkim kimi gəlmisiz.

Onun bu sözü məni daha möhkəm güldürdü. Ikimiz də gülə-gülə koridorun sonuna doğru addımladıq. Məni xəstəxana işçiləri ilə tanış elədi tək-tək. Buradakı insanların üzündəki soyuqluq məni vahimələndirirdi. Illərcə burada qalmaq-işləmək, yəqin ki, insana təsirsiz ötüşmür. Bu insanların gözlərində həyata dair heç nə görə bilmirdim. Kaş mən də belə ola biləydim. Tanış olmaq növbəsi xəstələrə çatmışdı. Onlarla ümumi bir tanışlıq oldu və mənim ilk iş günüm beləcə başladı. Məni üzən ilk şey binanın içində siqaret çəkmək üçün yerin olmaması oldu. Hər dəfə siqaret çəkmək üçün gərək həyətə düşəydim. Bu zaman da istər- istəməz qapıda dayanan ucubələrlə danışmalı olurdum. Hardan ağlıma gələrdi ki, aylar sonra bu iki insanla çox gözəl münasibətim olacaq. Onların sərt görünən bədənlərinin içində döyünən körpə uşaq qəlbini görüb, ilk günkü düşüncələrimdən utanacam. Burada öyrəndiyim ən önəmli şeylərdən biri insanları xarici görkəmlərinə görə dəyərləndirməmək oldu.

O qədər soyuqdu ki, burada otaqlar, insanın ruhu üşüyürdü. Çölü sarı rənglə boyansa da, binanın içində sadəcə bir rəng hakimdi - ağ rəng. Ağ rəngin insanın əsəblərini sakitləşdirdiyini deyirlər, ancaq mən bu fikirlə qətiyyən razı deyiləm. Dəli də olsa, insana ümid lazımdı. Ümidin rəngi isə heç vaxt tək rəng ola bilməz, bu rəng ağ belə olsa. Xəstələrimə başqa rənglərin də olduğunu xatırladacaqdım. Ümidi onların ruhlarına pıçıldayacaqdım. Ən ağır xəstəm isə öz

qəlbim, öz ruhumdu... Kim kimə daha çox şey öyrədəcəkdi, bunu zaman göstərəcəkdi, zaman.

Burada yatan hər xəstənin bir hekayəsi vardı. Günlər keçdikcə onları daha yaxından tanıyır, hekayələrini öyrənirdim. Onlarla aramızda qəribə bir bağ yaranırdı getdikcə. Hətta elə gecələr olurdu ki, evimə getməkdən imtina edib, gecəni burada keçirirdim. Həm də növbətçi olmadığım zamanlarda... Digər iş yoldaşlarımın burada qalmağa məcbur olduqları gecələrdə üzlərində elə bir kədər yaranırdı ki, sözlərlə anlatmaq olmaz. Mən isə bu işi sevə-sevə edirdim. Bu binanın çölündə olan həyat məni çox incitmişdi. Nəyim varsa da almışdı əlimdən. Bəlkə də, o səbəbdən burada bu qədər sakit ola bilirdim. Adətən burası mənim qaçıb gizləndiyim bir kilsə olmuşdu.

İndi qış gəlib, deyəsən, bizim diyarlara. Qışın gəldiyini xəstələrimin üzündən anladım. Indi onlara pəncərədən göstərəcəyim rənglər də yox idi... Bu binanın içi də, çölü də tək bir rəngə - ağ rəngə qərq olmuşdu. Qarın ağırlığından əyilən ağaclar kimi boynumuzu büküb pəncərədən çölə baxırdıq Səmədlə. Yalnız ikimiz gecənin bu saatında oyaq qalmışdıq. Digər xəstələr də, xəstə baxıcıları da çoxdan yatmışdılar. Içində olduğumuz binanın işıqları sönsə də (yalnız koridorlarda işıqlar həz zaman yanırdı), ətraf binaların işıqları çölü aydınladırdı. Burada olduğum bu aylar ərzində Səmədlə bir söz də danışmamışdıq, ancaq, deyəsən, çox möhkəm bağlanmışdı mənə. Burada olduğum zamanlar yanımdan əl çəkmir, kölgəm kimi məni izləyirdi. Ilk vaxtlar bundan narahat olurdum. Bu narahatlığa səbəb isə Səmədin dosyasından oxuduqlarım idi. Orada yazdıqlarına görə, qatildi mənim dostum, həm də bir neçə adamın qatili. Di gəl ki, zaman keçdikcə mənim bütün narahatlığım keçib getdi. Səmədin gözlərindən oxuyurdum sanki onun həyatını. Mən o baxışlara inanırdım, kimin yazdığı bəlli olmayan kağız parçasına deyil. Indi buradan birlikdə çölə - yağan qara baxırıq. Bir an ağlımdan keçir və Səmədə baxıb gülümsəyirəm. Deyirəm:

- Ay Səməd indi sən burada məni öldürsən, heç kimin ruhu da duymaz. Bir də sabah ayılıb görərlər ki, həkim Məmmədovun bədəni də ruhunun yanına gedib.

Bu sözləri dedikdən sonra daha bərk gülürəm. Səmədi danışdırmağa, heç olmasa ağzından bir söz belə olsa almağa çalışıram, ancaq alınmır. Səmədin soyuq baxışları çox uzaqlara yönəlib - elə uzaqlara ki, ora yalnız getmək olur... uzun boylu, yaraşıqlı bir gəncin axı burada nə işi var. Indi onun həyatla savaşan vaxtlarıdı. Mən Səmədə, Səməd uzaqlara baxır. Mən onun haqqında düşünürəm, ancaq bilmirəm, o, nə haqda düşünür... ya da düşünürmü?! Qar isə elə hey yağır. Deyəsən, bu gecə heç birimizin yuxusu gəlmir. Bu gecə qaydaları kobud şəkildə pozduğumu xatırlayıram. Axı indi Səməd yuxuda olmalı idi. Onun oyaq olmasının günahkarı mənəm. Gec də olsa səhvimi düzəltmək onun qolundan tutub yatdığı otağa aparmaq istəyirəm.

- Gedək, Səməd, gedək, - deyirəm, - indi yuxu saatıdı.

Elə bu zaman qəribə bir şey baş verir. Səmədin dodaqları yavaşca aralanır, nəsə demək istəyir, ancaq boğulur. Uzun zamandı danışmayan bir insanın sözləri, danışmağı unudacağını desələr, inanmazdım. Bəli, Səmədin dodaqları indi sözdən qorxacaq qədər gücdən düşmüşdü. Bir neçə cəhddən sonra yavaş səslə "bu gecə mənə toxunma, həkim" sözləri çıxır dodaqlarından. Geri qalanlarını gözlərindən oxuyuram. "Nə olar, bu gecə mənə toxunma, həkim. İzn ver, doyunca seyr edim göy üzünü, qarın yağmasını. İzn ver, bir gecə insan olduğumu xatırlayım". Əllərim yanıma düşür onun göz yaşlarına qoşulub. Bir neçə damcı gözlərindən yanaqlarına doğru süzülür, sadəcə bir neçə damcı. Sonra yenə baxışları boşluqda yoxa çıxır. Qaydaları özüm üçün də pozum, nə olar ki, bu gecəni də bir dəli ilə göy üzünə - özü də gecənin qaranlığında baxmaqla keçirim. Hər halda bir dəfə pozulduğu üçün qaydalar bizdən inciməz. Beləliklə, ikimiz də pəncərədən çölə doğru baxırıq. Bir müddət sonra düşüncələrim yavaşca silinir beynimdən. Bu qaranlıq gecə kimi bir alatoran çökür ruhuma. Uzun müddətdən sonra sən də silinirsən yaddaşımdan, sən də, sevgilim... bunun üçün məni bağışla. Yaddaşımda nə varsa silinir - uşaqlığımdan, bayaq Səmədlə olan söhbətə qədər. Baxışlarımın əlindən tutub aparır boşluqlara doğru Səməd...

Sabah Günəş oyandığı zaman geri döndü baxışlarımız. Çox uzaqlardan gəldiyi üçün yorğun görsənirdi hər ikimizin gözləri. Səməd başqaları oyanmamış sakitcə çıxıb otağına getdi. Onun bu

hərəkəti mənim qəlbimə ilk şübhə toxumlarını əkdi. Bu bir dəlinin davranışı ola bilməzdi. Nə isə çox yorğun olduğum üçün bu düşüncələri başımdan atmağa çalışdım. Bir-iki saat qalırdı növbəmin bitməsinə. Əl-üzümü yuyub bir az özümə gəldim. Sevdiyim romanı neçə gündü yarımçıq qoymuşdum. Bu bir-iki saatda türkiyəli xanım yazar Elif Şafakın "AŞK" romanını oxumaq istədim. Uzun illər bu əsər haqqında eşitsəm də, oxumaq imkanım olmamışdı. Indi Şəmsin fahişə Çöl gülü ilə dialoqlarının olduğu yeri oxuyarkən, bir an Şəmslə öz aramdakı yaxınlığı gördüm. O, yarım qalmış insanların əhatəsində idi, onlara nəsə anlatmağa çalışırdı. Mən də ki burada belə... Çöl gülünün hekayəsini oxuduqca Səmədi düşünürdüm. Görəsən, bu sağlam, yaraşıqlı bədənə sahib olan gəncin hekayəsi necəydi. Bir danışa bilsə, bəlkə də, hər şeyi deyərdi mənə, ancaq danışa bilsə... bu zaman Şəmsin böyüklüyünü bir daha anladım. O, istər Çöl gülünü, istərsə də digər sərxoş, xəstə insanların ruhunu xilas edə bilmişdi, ancaq mən zəif biriyəm, öz ruhumu belə xilas edə bilmirəm. Sonra öz- özümə təsəlli verirəm, "axı Şəmsin Rumisi vardı, onun üçün, bəlkə də, başarılı olurdu..." Ancaq tez də bu fikirimdən daşınıram. Axı Allah mənim də ürəyimə böyük bir sevgi vermişdi. İstəsəm, mən də o sevginin işığı ilə həm öz ruhumu, həm də buradakı insanların ruhlarını aydınlada bilərəm. Yenə sən... sən gəlirsən düşüncələrimə... Xoş gəldin deyib, gülümsəyirəm... daha vaxt bitdi, indi qalxıb evə gedə bilərəm. Oxuduqlarım mənə çox təsir etdiyindən kitabı da çantama qoyub evimə aparıram. Eşqin bütün qaydalarını öyrənmək istəyirdim, çünki yalnız eşqlə qalib gəlmək olardı qaranlıqlara....

Evə gedərkən yolumu uzadıram. Ayaqlarımın ixtiyarına buraxıram özümü. Bir xeyli getdikdən sonra tanış yerlərə doğru getdiyini görüb gülümsəyirəm. Parkın içindən keçib sahilə doğru yaxınlaşdım - dənizin sahilinə. Burada səhərin bu vaxtında, hələ- hələ belə soyuqda, demək olar ki, heç kim yoxdu. Belə havada addımlamaq, dalğaların özünü dənizə vurmasını izləmək başqa aləmdi. Soyuqdan az qala dəniz də donsun, ancaq sahildəki qayalarla olan savaşı onu donmağa qoymur. Yəqin ki, insanlar da belədir, həyatda başımıza gələnlər bizi ölməyə qoymur. Bütün problemlər bitsə donarıq, yaşamağımızın mənası qalmaz. Görəsən, qağayılar hansı qayanın arxasında gizlənib. Halbuki, ayrı vaxtı dənizin qulağına sevgi nəğmələri söyləyirdilər. Bu düşüncələrlə evə gedib yatıram...

Yenə işdəyəm. Xəstələrimlə danışmağa çalışır, dərdlərinin nə olduğunu öyrənirəm. Bir yaşlı xanım var - Gülnar xala bütün günü corab toxuyur. Günlərcə min bir əziyyətlə toxuduğu corabları mənə uzadıb" bunları oğluma göndər. O, indi soyuq dağ başında vətəni qoruyur" deyir. Burada olduğum aylar ərzində onun dilindən bu sözlərdən savayı söz duymadım. Əvvəllər mənə qəribə gəlirdi bu hal. Ancaq həqiqəti biləndən sonra Gülnar xalanı görəndə gözlərimə əngəl ola bilmirdim. O, həftədə mənə iki- üç cüt corab uzadıb, eyni sözləri deyir, mən isə onun əllərindən öpüb "baş üstə, başım, gözüm üstünə Gülnar xala" deyirdim. Həqiqət nəydi bəs? - illər öncə Gülnar xalanın cavan bir oğlu şəhid olmuşdu. Qar uçqunu altında qalan cavan oğlu günlər sonra tapa bilirlər. Tapdıqları zaman hələ sağ imiş, ancaq ayaqları donduğunda kəsilir. Ana öz övladını nəfəsi üstündə olanda görə bilir. Di gəl ki, ayaqları kəsilmiş halda. Ayaqları olmasa da, Gülnar xala razıydı, təki oğlu yaşayaydı. Ancaq olmur, bir neçə gündən sonra oğlu dünyadan köçür. Dəfn mərasimində ana müsiqiçilərin də gəlməsini istəyir. Gənc ölümlərdə belə hallar normal sayıldığından dəfn günü "qara zurna" da ağlayır şəhidi. Ancaq ana gözlənilmədən "bu gün mənim oğlumun toyudu" deyərək oynamağa başlayır... və o gündən bəri burada imiş Gülnar xala. İlk əvvəllər onun toxuduğu corablar burada - kiməsə ehtiyac sahiblərinə verilirmiş, ancaq onun bu halı ürək ağrıtdığından belə qərara gəliblər ki, onun toxuduğu corabları sərhəd bölgəsində- soyuq yerlərdə hərbi xidmətdə olan əsgərlərə göndərsinlər.

Ya da başqa bir xəstəm - Aygül. Gənc və gözəl bir qızın nə işi var görəsən - deyə düşünməyin. Indi deyəcəm biləcəksiz, ancaq xahiş edirəm kövrəlməyin, sadəcə ətrafınızda Aygül kimi qızları görsəniz yardım edin. Mənasız insanlara qoşulub onun həyatını cəhənnəmə çevirməyin. Aygül zəngin bir ailənin tək qızı olduğundan onunla evlənmək istəyənlərin də, ona paxıllıq edib, ziyan vurmaq istəyənlərin də həddi-hesabı yoxmuş. Bir gün insan oğruları asan yerdən pul qazanmaq

arzusuna düşürlər. Günlərcə izlədikdən, plan qurduqdan sonra Aygül qaçırılır və ailəsindən külli miqdarda pul tələb olunur. Çarəsiz qalan ata onların istədiyi pulu ödəyir. Insafən onlar da Aygülü ailsəinə geri verirlər, ancaq orada qaldığı müddət ərzində dəfələrlə təcavüz olunan gənc qız aylarca xəstə yatır. Onun başına gələnlər qısa zamanda hər kəsin dilinə düşür. Qız ayağa qalxıb yaşamaq istədikcə hər addımbaşı bir nəfər ya baxışları ilə, ya da atmacalı sözləri ilə başına gələnləri ona xatırladır. Sevdiyi oğlanın elədikləri isə onun həyatını məhv edir. Oğlan qarşısına çıxıb, sanki qızın bir günahı varmış kimi onu təhqir edib, üzünə tüpürür. Bax o gün, bü gündür Aygül burada müalicə olunur. Bir insan - kişi görən kimi çığırır, üst- başını parçalayır. Onun üçün çox vaxt təkadamlıq otaqda bağlı qapılar arxasında olur. İçəridə tək olduğu zamanlarda heç səsi-sorağı gəlmir, sakitcə dümağ divarlara baxır. Aygülün güvənini qazanmaq üçün mənə düz üç ay lazım oldu. Yavaş-yavaş ona zərər verməyəcəyimi anladı. Əslində, tək Aygülün yox, öz ürəyimin də güvənini qazanmışdım o gün...

Bircə Səmədin ürəyinə yol tapa bilmirdim. Əslində, onun ürəyini elə ilk gün qazanmışdım, ancaq nəsə vardı ki, ona izn vermirdi mənimlə danışmağa. İlk dəfə onunla qarşılaşmamız da çox maraqlı olmuşdu. Deməli xəstəxanaya bir pişik girmişdi. Xeyli qovaladıqdan sonra onu tutub, çölə atması üçün yaşlı xadiməyə vermişdilər. Qadın da pişiyin belindən yapışıb, onu bağırda-bağırda çölə atırdı. Pişiyin səsinə xəstələr də səs verib qışqırmağa başlayanda, tez qaçıb pişiyi qadının əlindən alıb buraxdım. Yazıq pişik necə qorxmuşdusa, özünü çölə atdı. Ancaq bu zaman mənə sevgi ilə baxan bir cüt göz gördüm. Bax o gündən bəri Səməd məni izləyir, mehribanca baxır, ancaq danışmırdı. Burada olan hər kəsin hekayəsini az- çox bilirdim. Səməd isə bir sirr olaraq qalırdı. Ancaq içimdən bir səs onun çox maraqlı hekayəsinin olduğunu söyləyirdi. Bu hekayəni öyrənəcəyim günün arzusu ilə yaşayırdım...

Ancaq yenə mən, o həmənki dəliyəm. Gecələr yatağıma uzandığım zaman səndən başqa bir şey qalmır düşüncələrimdə. Bilgisayarımdan səni xatırladan mahnılardan birini açır, siqaret dumanı ilə göz yaşlarımı qarışdırıb yuxuya gedirdim. Dediyim kimi, səni unutmaq olmayacaq, unutmayacam. Ölüm gəlsin, ölüm əzabı ruhumu bədənimdən söksün, bax o zaman unudacam səni... bax o zaman, sevgilim...

Gecələrin birində inanılmaz bir hadisa baş verdi. Yenə xəstəxanada gecələyirdim, ancaq növbətçi deyildim. Otağımda kitab oxuyurdum. Oxuduğum kitab Cek Londonun " Martin İden" əsəriydi. Hər şeyi unutmuş, Martinlə birgə " Dəniz nəğmələrini" yazırdım. Hər sözü yazarkən Rufu düşünməmək əlimizdə deyildi, ancaq Ruf... bu düşüncələrin içində boğularkən birdən qapı döyüldü. Gələn Səməd idi. Onun gözlərində nəsə qəribə bir hal vardı. Öz-özümə "yəqin, məni öldürmək üçün gəlib" deyə gülümsədim. Gülsəm də, ətrafda özümü müdafiə edəcəyim nəsə olub-olmadığını gözdən keçirirdim. Masanın üzərində boş su qabından başqa bir şey yox idi. O da bəs edərdi işimi görməyə. Səməddən cəld davrana bilsəm, su qabını onun başına vura bilərdim. Ancaq bir az sonra bu düşüncələrimdən utandım. Səməd su qabına baxdığımı görüb... "deyəsən, su istəyirsiniz, həkim, indi sizin üçün gətirərəm" dedi və su qabı ilə birlikdə otaqdan çıxdı. Bir az sonra həqiqətən də əlində dolu su qabı ilə geri döndü və ağlı başında olan insanlar kimi içində çay qalan fincanı su ilə təmizləyib mənə su süzdü və - için, həkim, için, bu gecə çox uzun keçəcək...

Onun bu hərəkətləri məni şoka salmışdı. Bu necə hərəkətdi, necə davranışdı - deyə düşünərkən Səməd yenidən dilləndi.

- Həkim qorxmayın hər şey qaydasındadı, sadəcə uzun illərdən sonra ilk dəfə güvənə biləcəyim birini görüb çox sevinirəm. Nə zamandı sizi izləyir, sınayırdım. Çünki deyəcəyim sirləri başqa birinə açsanız mənim həyatım bitər...

- Səməd, narahat olma, ürəyindəkiləri mənə aça bilərsən. Onsuz mən də sənin danışacağın günü gözləyirdim. Mən sənin gözlərində səni görə bilmişəm. Heç bir kağız parçasına da inanmıram. Danış görək nələr gəlib başına, ancaq istərsən öncə mən yaşadıqlarımdan bir az sənə danışım.

- Danışın, həkim, danışın. Mən də sizin gözlərinizdən oxuya bilirəm, ancaq yenə də danış... o çox sevdiyin qızdan...

Səmədin bu qədər ağıllı, düşüncəli olması, əslində, mənə qəribə gəlmədi. Onun üçün də başıma gələnlərdən, sevdiyimdən - onun

gedişindən danışdım. Mən danışdıqca o sərt, bulanıq gözlərdən yaşların axdığını görürdüm. Birdən Səməd "siqaretin varmı" deyə soruşdu məndən.

- Bilirsənmi, cənab Məmmədov, neçə ildi siqaret dəymir dodaqlarıma. Sonuncu dəfə "A" rayonunda şərəfsizin birini öldürdükdən sonra elə onun cəsədinin yanında çəkmişdim siqaret. Həkim, təsəvvür edin, onu balaca bir şüşə ilə doğradım və əllərim qanlı-qanlı son siqaretimi yandırdım. Mənə siqaret verin həkim, siqaret istəyirəm.

Heç nə demədən siqaret paketini masanın üzərinə qoydum və pəncərəni açmaq üçün ayağa qalxdım. Mən pəncərəni açıb gələnə qədər, o, siqareti yandırmışdı. Ilk tüstünü içinə çəkərək uzun müddət ciyərlərində saxladı.

- Bəs onu nə üçün öldürmüşdün? Niyə həbsxanada deyil buradasan?

- İndi hamsını danışaram, həkim, ancaq izn verin qoy bu siqareti sona çatdırım. Bu əziz dostum üçün çox darıxmışam. Bilirsizmi, həkim, belə qarlı, şaxtalı havalarda o qədər səngərdə olmuşam ki, sayını yadımdan çıxarmışam. Səngərdə olanda siqaret çəkə bilmirdik, çünki düşmən siqaretin işığından bizi vura bilərdi. Səbirsizliklə gözləyir, növbəni başqasına verən kimi siqaretimizi yandırırdıq.

- Deməli, sən əsgər olmusan, eləmi?

- Bəli, həkim bir zamanlar əsgərdim. Hərbi xidməti başa vurduqdan sonra da bir müddət hərbiçi ömrü yaşadım. Vətənin ən ucqar yerlərində səngərlərdə yaşadım.

- Bəs daha sonra nələr etdin, indi niyə buradasan?- Mənə bunlardan danış.

- Danışacam, həkim, tələsmə, danışacam....

Və başlayır hekayəsini anlatmağa:

Hərbi xidmətdə uğur qazandığım üçün mənə polis olmağı təklif etdilər. Bundan sonra vətənim üçün səngərlərdə yox şəhərlərdə, kəndlərdə xidmət edəcək, ən ağır cinayətkarlarla mücadilə edəcəkdim. Və beləliklə xüsusi təyinatli polis birliyində işə başladım. Bu illər həyatımın ən gözəl və ən çətin illəri oldu. Səngərlərdə çətinliklərə alışmışdım, bilirdim ki, qarşıdakı düşməndi - məni hər an öldürməyə hazır olan düşmən. Onun üçün də daima hazır olurdum, onlar bir güllə atanda əsgərlərimə on güllə atmasını əmr edirdim. Mənim əsgərlərimdən birini şəhid etsələr, ən azı beş düşmən məhv edilməliydi. Bir zaman sonra düşmən bunu anladı və atəşkəsi daha az pozurdu. İndi isə düşmən yoxdu, cinayətkarlar vardı qarşımızda. Bu insanlar ən ağır suçları işlətsələr də ölkəmin insanları idi. Onun üçün mənə çox çətindi eyni dildə danışıb, eyni hava ilə nəfəs aldığım insanlarla mübarizə aparmaq. Bəzən elə cinayətlərin şahidi olurdum ki, inanın həkim, həyata, yaşamağa nifrət edirdim. Təsəvvür edin, bir gün ucqar kəndlərdən birində qoca qarını öldürmüşdülər. Elə bir qadın ki, heç kimi yoxdu bu həyatda. Dövlətin ayırdığı təqaüdlə birtəhər yaşamağa çalışır - yaşayır demirəm ha, yaşamağa çalışır. Nəisə qarını gecə ilə öldürüb, evini də yandırıblar. Ev kənddən bir az aralı olduğundan cinayətkarı tapmaq çox çətin oldu. Təkbaşına məni görəvləndirdilər bu iş üçün. Yaxşı yadıma gəlir, yaz ayları idi. Polis paltarını çıxarıb adi bir kəndçi paltarında kəndə daxil oldum. İş axtarırdım - odun kəsir, heyvanların yerini təmizləyirdim. Demək olar ki, kənddə qaldığım bu on gün ərzində görmədiyim iş qalmadı. Nəhayət onuncu gün məsələnin necə olduğunu anladım. Deməli, kənddə olan fermerlərdən birinin sürüsünü otarmaq üçün başqa rayonlardan gələn iki çoban törətmişdi bu cinayətdi. Kəndin dükanlarına borcları var imiş, dükan sahibi də bunları polislə qorxudur. Nəisə bu qadının təqaüd aldığını öyrənib, cinayəti törədirlər. Təsəvvür edirsinizmi, həkim, 150 manat üçün bir qoca qarını düşünmədən öldürüblər. Əllərini bağlayıb, rayon mərkəzindəki polis idarəsinə kimi qabağıma qatıb gətirdim. Yolda daha onlara demədiyim söz, etmədiyim küfr qalmadı. İmkanım olsaydı ikisini də elə o dərələrin birindəcə öldürüb yandırardım - qarıya elədikləri kimi. Bunun kimi o qədər hadisə danışa bilərəm ki, həkim sizə. İnanın ki, bəzən insan olduğuma görə utanırdım. Bir təsəvvür edin həkim, bacısına təcavüz edən qardaşlar, qızını satan atalar gördüm. Həqiqətən də ağlımı itirmək üzrə olurdum bəzən...

Səməd danışdıqca indi onu daha yaxşı anlayırdım. Mənə çox oxşayırdı, ancaq məndən dəfələrcə güclü biri idi. Başa düşürdüm ki, ikimizin də burada olmasının səbəbi eynidi. İkimiz də insanlardan qaçıb burada gizlənmişdik. Tək fərq vardı arada - mən həkim, o, isə xəstə

kimi sığınmışdı buraya. Bir siqaret daha yandırdı. Pəncərənin önünə gəlib, əvvəllər etdiyi kimi baxışlarını göy üzünə dikdi. Ciyərlərindən çıxan siqaret tüstüsü və isti hava pəncərədən özünü göylərə atırdı. Deyəsən, Səmədin hekayəsi hələ bitməmişdi, sadəcə yorulmuşdu bu gecəlik. Necə də yorulmasın o, yaşadıqlarını danışırdı. Onun üçün də daha ona sual vermədim, sadəcə susdum. Siqaretini bitirdikdən sonra heç nə demədən otaqdan çıxıb getdi. Bəli, o dəli deyildi, ancaq bu gecə anladım ki, o, daha ağıllı da deyil. Yaşadıqları bitirmişdi onu....

O, otaqdan çıxandan sonra kitabımı açıb oxumağa başladım. Bu Maksim Qorkinin "Ana" əsəriydi. Fədakar bir anadan - qadından danışırdı. Əsəri oxuduqca istər - istəməz o fikirlə razılaşırdım ki, rus xalqı öz böyüklüyünü yazarlarının yaratdığı qadın obrazlarına borcludur.

Sabah axşam yenə eyni vaxtda Səməd otağın qapısını döyüb içəri girdi. Masanın üzərində duran siqaret qutusuna yaxınlaşdı heç bir söz demədən. Mən də danışmır, onun sözə başlamasını gözləyirdim. Bir siqaret yandırdı və pəncərəyə yaxınlaşdı. Necə ehtirasla ciyərlərinə çəkirdi siqaretin tüstüsünü.... "hə, həkim harda qalmışdıq" deyə sözə başladı. Mən, sənin istədiyin yerdə, Səməd- dedim. Sonra o yenidən danışmağa başladı:

Uzun zamandı ki, bütün polis təşkilatı pul qarşılığında sifarişlə insan öldürən bir dəstəni axtarırdı. Onların cinayətləri günü-gündən çoxalır, böyük şəhərlərdən soraqları gəlirdi. Di gəl ki, çox peşəkarcasına hərəkət etdikləri üçün geridə heç bir iz qoymurdular. Dağ-daş demədən onları axtarırdıq. Bir müddət belə uğursuz axtarışlardan sonra rəisimizin ağlına belə bir fikir gəldi. Içimizdən biri öz həyatından keçməliydi öncə. Rəis bu iş üçün kiminsə könüllü olub - olmadığını soruşdu. Planı yalnız həmin adama deyəcəkdi. Insafən deyim ki, orada olan hər kəs əlini qaldırmışdı, lakin qalxan əllərin içində titrəməyən bircə mənim əlimdi. Beləliklə, bu gizli görəv üçün mən seçildim. Plan sadə, bir o qədər də təhlükəli idi. Rəis daha öncədən tapdığı insanlarla o qatillərdən biri ilə əlaqə quracaqdı və mənim ölüm sifarişimi verəcəkdi. Mən də o qatilləri ya öldürəcək, ya da qanuna təslim edəcəkdim... bu zaman ağlıma, təbii ki, bəzi düşüncələr gəlirdi. Məgər rəis bu adamlarla bu qədər asan əlaqə qura bilir, bəs nə üçün onları bu üsulla tutmuruq?! Yenə də bütün düşüncələri başımdan atıb, rəisin təklifi ilə razılaşdım. Beləliklə, ağır bir işin içinə girmişdim. Nə ilə, kimlərlə qarşılaşacağımı bilmirdim. "Bismillah" deyib başladım. Öncə şəhərin mərkəzində gəzdim, kafelərin birində çay içdim ki, məni görsünlər və izləsinlər. Ancaq hər zaman əlim belimdə - silahımda idi. Bu it sürüsünü mütləq yox edəcəkdim, Allahın izni ilə. Istəyirdim ki, təslim olmasınlar, hər birini öldürüm. Gecələri ən qaranlıq küçələrdə gəzir, ən tənha yerlərdə gözləyirdim ki, bəlkə bir gələn ola, ancaq hələlik heç kim gözə dəymirdi... təxminən bir həftədən sonra yenə gecə küçə ilə gedəndə iki nəfərin məni izlədiyini gördüm. Qəsdən onları küçənin ən keçilməz yerinə apardım və döngələrin birində qəfildən geri dönüb birini vurdum. Silah da susdurucu olduğundan səs-küy olmadı. Digər qatil nə olduğunu anlayana kimi onun başına dirədim silahımı. Baxın həkim bütün olanlar əsl bundan sonra baş verdi. Qatili bir qədər əzişdirdikdən sonra öyrəndiklərim məni dəhşətə saldi. Çünki bu cinayətkar dəstənin başında bizim rəis dayanırmış. Öncə bu alçağın dediklərinə inanmadım, ancaq məni ofis kimi istifadə elədikləri yerə gətirdi. Rəis iki nəfər başqa cinayətkarla əyləşmişdi. Yəqin ki, mənim ölüm xəbərimi gözləyirdi. Elə qapının ağzındaca əlimdə olan qatilin başına bir güllə sıxıb içəri daxil oldum. Məni qarşısında görəndə nədənsə təəccüblənmədi, sadəcə gülümsədi. Bu təbəssüm onun etdiyi sonuncu hərəkət idi. O və yanındakı iki nəfər də daha yaşamırdı. Bax, həkim, orada yandırmışdım siqaretimi... o siqaretdən sonra heç nə xatırlamıram. Gözlərimi açanda burada idim. Sən bura gələnə qədər də yadıma heç nə düşmürdü. Sən mənim keçmişimlə birlikdə gəldin bura. Indi məni bağışla, həkim, bu gecə buradan çıxmalıyam. Nələrin olduğunu bilmirəm. Həqiqəti öyrənməli, keçmişimi, gələcəyimi xilas etməliyəm...

Ona getmə deyə bilmədim, bilməzdim də... sakitcə ayağa qalxıb əlini sıxdım. Bundan sonra bir daha Səmədi görmədim, görə bilmədim, ancaq əminəm ki, o, öz gələcəyini xilas etdi və indi yenə haradasa bir alçağın axtarışındadı. Əslində, onu görəcəyimə dair bir ümidim var. Məsələn, gecə-

lərin birində mən sakit küçələrdən biri ilə gedəcəm. Bu zaman iki quldur mənə yaxınlaşıb, soymaq istəyəcək. Bu zaman onlardan birinin yerə yıxıldığını görəcəm. Səməd onu vurmuş olacaq... bəlkə də, bütün bunlar olmayacaq...

Sabahı Səmədin qaçdığı xəbəri bütün şəhərdə yayıldı. Ancaq nə qədər axtarsalar da, heç bir iz tapa bilmədilər. Ən qəribə olan isə qapıda dayanan güvənliyin onu görməməsi idi. Nə isə, bir neçə aydan sonra Səməd unuduldu. Daha heç kim ondan danışmırdı...

Yavaş-yavaş bu bina məni sıxmağa başlamış, daha burada dayana bilmir, boğulurdum. Onun üçün Səməd qaçan gecədən dörd ay sonra mən də işdən çıxdım. Daha ağıllı insanların dünyası məni qorxutmurdu. Ancaq edəcəyim son bir iş qalmışdı - səni sonuncu dəfə görmək. Son günlərdə ağlımdan qəribə-qəribə fikirlər keçirdi. Məsələn, sənin ərini öldürmək istəyirdim, özü də işgəncə verə-verə... ancaq bu olmadı. Şairin də dediyi kimi, həyat biz plan qurarkən başımıza gələnlərdi. Səni görmək arzusu məni günü-gündən daha çox ələ keçirirdi. Beləliklə, qısa bir araşdırmadan sonra tələbə yoldaşlarımızdan birindən yaşadığın yeri öyrənə bilmişdim. Evin yerini dəqiq bilməsəm də, hansı ərazidə yaşadığını bilirdim. Günlərcə, həftələrcə gəzdim ki, bəlkə, səninlə rastlaşım. Böyük bir park vardı burada. Yəqin ki, sən də haçansa bura gələcəkdin və biz rastlaşacaqdıq. Və beləliklə günlərin birində qəribə bir hal baş verdi. Yenə parkda gəzərkən kitab oxuyan bir qız diqqətimi çəkdi. Bu balaca, arıq bir qızdı. Onu görərkən sanki ürəyimdə nəsə həyata, yaşamağa maraq oyandı. Inan ki, sevgilim səni yenə sevirəm, ancaq onun gözlərində mən həyatı görmüşdüm. Yəqin ki, sənin istədiyin də bu olardı. Qızın uzun qara saçları, qara gözləri vardı, bir də dodaqları - xususi ilə alt dodağı çox gözəldi. İstər-istəməz ona yaxınlaşanda dayandım. Daha balaca bir oğlan kimi qorxub, həyəcanlanacaq deyildim. Onun oturduğu skamyada əyləşdim. Qız heç nə olmamış kimi kitabı oxumağa davam edirdi. O, kitab oxuyur, mən isə onu izləyirdim. Birdən oxuduğu kitabı görüb gülümsədim. Bu mənim xəstəxanada olanda oxuduğum "Martin İden" əsəriydi. Kim bilir, bu balaca qız əsəri hansı arzularla oxuyur, oxuyarkən hansı hissləri keçirirdi. Yenə keçmişə döndüm bir anlıq. Ürəyimə yenə soyuq payız küləklərinin qovduğu yağmurlar dəydi. Bir siqaret yandırdım. Tüstü ciyərlərimə toxunduğu zaman, deyəsən, bir az özümə gəldim. Mənə baxıb gülümsəyirdi.... ilahi, deyəsən, bir az həyəcanlandım, özümü itirdim. Bir an ürəyimə uyub ona "Ruf" deyə səsləndim. Ruf oxuduğu romandakı qızın adı idi.

- Deyəsən, siz də oxumusuz, bu əsəri. Ancaq mən Ruf kimi olmaq istəməzdim. Ruf qorxaqdı, Martini anlamır.

- Haqlısan, gözəl qız, heç mən də Martin kimi olmaq istəmirəm, istəməzdim....

- Martinə nə olur əsərin sonunda?..

Onun mənə baxan sevgi, həyat dolu gözlərindən sonra "Martin ölür" deyə bilməzdim. Sadəcə "oxuma bundan sonrasını" deyib, sol əlimi ona uzadıb kitab istədim. Gözlərimdən keçəni anlayırmış kimi kitabı mənə verdi. Ayağa qalxıb kitabı skamyanın üzərinə qoydum və əlimi onun əlinə tərəf apardım.

- Gedək, gözəl qız, gedək öz romanımızı yazaq. Bu kitab daha bizə lazım deyil...

- Gedək...

Biz ayağa qalxarkən yağış yağırdı və bu yağış Maksim Qorkinin dediyi kimi, könülsüz-könülsüz deyil, eşqlə dəyirdi baxışlarımıza... sən, səni isə unutmaq ölməkdi, yenə deyirəm...



Allahşükür AĞA

HƏYAT…

Baharın ətrindən
sərxoş olmaq üçün
içimdən asılmış
buzları əridirəm...
Ürəyimi boşaltmaq üçün
duyğularımı
ağ vərəqlərə səpirəm...
Özümə yaxınlaşmaq üçün
bəzən özümdən
uzaqlaşıram.
Təzə yuxularımı yozmaq üçün
ölmüş yuxularıma
qəbir qazıram.
Yüksək zirvələrə qalxmaq üçün
xırda təpələrə salam
verirəm..
Yüz saat sevinc görmək üçün
bir dəqiqəyə yalvarıram....

ƏGƏR...

Pulları çiçəklərə çevirə
bilsəydik,
deyərdim, xanım qız,
mənə 10 dəstə çiçəyə
bir qadın paltosu verin.
Bu qış mənim sevgi fəslimdir.
O vaxt deyərdilər ki,
müəllimlərin maaşı yüz dəstə çiçəkdir.
Çörək bir çiçək,
işıq pulu bir ləçək.
Pulları çiçəklərə çevirə bilsəydik,
sevgi azalmazdı əsla.

TOP-XATİRƏ

Uşaqlıq illərində
ev dərdi,
maşın dərdi,
çörək dərdi
bilməzdim.
Bütün qayğılardan da uzağıydım
atalı,
analı uşaqlar kimi.
Öz dünyama qapılardım.
Dan yerinin sökülməsini
həsrətlə gözləyərdim.
Qızarmış üfüq günəşi top kimi atardı
göy üzünə.
Günəş uçardı rəqib qapısına -
günbatana..

DÜŞÜR...

Xəyal aləminin tənhalıq quşu
Gah göyə dirənir, gah yerə düşür.
Qəribə qurulub dünya nizamı,
Bir sirdən çıxmamış min sirrə düşür.

Yarpağın üstündə yazıya bax sən,
Dünyanın sirrinə yazı yaz, bax sən,
Üzümüzə gələn bu yaza bax sən,
Bir fikrə düşməmiş min fikrə düşür...

İstədiyim şeir dilimə gəlmir,
Sözlə tor atıram, felimə gəlmir,
Gəzib axtardığım əlimə gəlmir,
Xəyalım sətirdən-sətirə düşür...

OYNAYIR...

Hərənin içində hava,
Hərə bir sözə oynayır..
Yoxuşlar üzü dağlara,
Enişlər düzə oynayır..

Misralardan evcik qurub,
Gah yorulub, gah oturub,
Yuxudan təzəcə durub,
Bu adam təzə oynayır...

Şükür olsun bu xoş günə,
Vaqif ol dünya felinə,
Var-dövlət verir əlinə,
Qarşında gürzə oynayır...

Elnur UĞUR

CAN VERİM

Al ruhumu, oxşa incə, sev incə,
Şirin-şirin istə məndən can, verim.
Ömür gülər can cananı sevincə,
Sev bu canı, istə, deyim, "can!", verim.

Eşq ürəkdə, ya qəmginəm, ya şadam,
Qəmgin, ya şad, ötüb keçər yaş, adam.
Mən gəlmişəm, canda bir can yaşadam,
Can bəsləyib canda eşqə can verim.

Eşq qapısın sözsüz açar gül, lələ.
Yoxsa eşqi, Elnur, ruha gül, lələ.
Al silahı, eşqlə məni güllələ,
Qoy son anda sevə-sevə can verim.

VƏTƏN

İşıqlı dünyaya qovulduğum yurd
Sevgimə söykəndi, Vətən deyildi.
Gözümü açanda doğulduğum yurd
Onda torpaq idi, Vətən deyildi.

Anladım mənanı, duydum hikməti,
Böyüyə-böyüyə kiçiləndə mən.
O mənə babamın son əmanəti,
Mənə yaşamağa zəmanət Vətən.

Bildim, hər yaranış Vətənə kölə,
Yuvasız quşlar da qəriblik yaşar.
Çətin ki, qəlbində arzular ölə,
Kimin ki qəlbində Vətən eşqi var.

Həyat öz dərsini belə keçirir,
Yaşaya-yaşaya yaş oyanlara.
Şirin şərbət deyib zəhər içirir
Vətəndə Vətənsiz yaşayanlara.

YAZA YAZ DÜŞƏ

Bu şaxta nəfəsin əridə hava,
Minə köhləninə yaz, ayaz düşə.
Quşların səsiylə dola hər yuva,
Üşüyən qəlblərə yaz a, yaz düşə.

Gözəl bir Gün doğa qış havasına,
Buz-buz çiliklənə, yaş hava sına.
Çəmən də oynaya xoş havasına,
Gül-bülbül eşqindən yaza yaz düşə.

Çəmən-çəmən lalə,nərgiz boy ata,
Ünüm də yetməyə bax bu boya ta.
Elnur qoymaz qala arzu boyata,
Püşk atıb baharı yaza, yaz düşə.

BAĞIŞLA

Bağışla, adına məni, İlahi,
Söz dedim sözünün üstünə bir də.
Əmrindən çıxmağa söylə, kiməm ki?
Fələklər oynayar sən deyən yerdə.

Bağışla, əfvinin boyu böyükdür,
Özüm boyda əfvə sığışım, gəlim.
Gözüm göz-göz məni məndən köçürdür,
Yığım göz-göz köçü, yığışım, gəlim.

Mən yer axtarıram bu yer üzündə,
Yerdə yer də yoxdur, çək göyə, gəlim.
Ruhum da kiçilib düşür gözümdən,
Çağır, "Sənə pənah!", "Sən!" deyə gəlim!

Natiq RƏSULZADƏ

Bartolomeo

Adı belə idi. Keçmişdə uzun illər Böyük Vətən müharibəsi adlandırılmış (hazırda Vətən özü də qonşusu ilə müharibə vəziyyətində olan kiçik respublikanın hüdudlarına qədər kiçildiyi, başı dərdinə-sərinə qarışmış insanların yaddaşında arxa plana sürüşdüyü üçün bu müharibəyə indi almanlarla, faşistlərlə Böyük müharibə deyirlər) böyük müharibədə iştirak etmiş baba faşist həbs düşərgəsindən qaçıb, İtaliyanın müqavimət hərəkatına qoşulmuşdu. Sadə milli adı olan baba kiçik oğlunun oğluna həlak olmuş italyan dostunun adını qoymuşdu. Uşağın atası isə öz atasının şərəfinə oğlunun adını Cavid qoymaq istəyirdi. Atasını nə qədər dilə tutmağa çalışsa da, kişi qərarından dönmədi.

- Gəlinlərimin sayəsində bir yox, bir neçə Cavidimiz var, - dedi oğluna. - Bu uşağa müharibədə həlak olan dostumun adını verəcəyəm... "Uzaq sahillərdə" filmi yadına düşür? - Bu dəfə artıq onu fikrindən daşındırmaq üçün toplanmış ailə şurasına üz tutdu. - Düzdür, mən əfsanəvi Mixaylo deyiləm, amma faşist Almaniyası üzərində qələbədə dostum Bartolomeo ilə bizim kiçik də olsa xidmətimiz var. O həlak oldu. Doğrudur, bu vaxt mən onun yanında olmamışam, məni tapşırıqla başqa yerə göndərmişdilər, amma biz onunla dost idik, eyni partizan dəstəsində vuruşmuşduq və qələbə üçün əlimizdən gələni etmişdik.

Kişinin natiqliyinin uzun sürəcəyindən və uzaqlara aparacağından qorxan doğmalar başlarını yelləyib yavaş-yavaş dağılışdılar. Eşidəcəklərini dəfələrlə eşitmişdilər və bu nitq üç mərhələnin üçünü də - heyrətləndirmək, adiləşmək, bezdirmək mərhələsini çoxdan keçmişdi. Baba adına yenicə layiq görülmüş (artıq neçənci dəfə) kişi - bu dəfə layiq görülməmiş demək doğru olardı - çünki uşaq xəstə doğulmuşdu, amma hələ ki çox hiss olunmurdu - bir müddət pəncərəyə, şkafa, asılqana, stula, özünə uzaq müharibənin ən parlaq epizodlarını danışmağa davam etdi. Danışdıqca beynəlmiləlçilik hissi canını sarır, o qədər coşurdu ki, özünü italyan zənn edirdi. O vaxtlar dili pis bilmirdi, məişət, hərbi-məişət səviyyəsində danışırdı.

- Niyə məhz mənim oğlum? - Cavidin kiçik oğlu etirazını bildirməyə çalışırdı. - İndiyə qədər neçə nəvən olub, qoyaydın da...

- O vaxt olmazdı, - Cavid elə ciddiyyətlə özünü təmizə çıxarmağa çalışırdı ki, sanki qanmaz oğluna o dövrün siyasi vəziyyətini başa salmaq istəyirdi. - Yanlış anlaşılardı... Nə də olsa, sovet dövrü idi, hər şeyə cürbəcür qadağalar qoyulmuşdu. Bir sözlə - senzura... İndi, Allaha şükr, müstəqil ölkədə yaşayırıq, söz azadlığımız var, din azadlığımız var, adlara qadağa yoxdur, belə-belə işlər...

Uzun sözün qısası - ad qoyuldu. Bütün uşaqlar necə, bu da elə, amma o böyüdükcə doğmaların artan narahatlığı boşuna deyilmiş: uşaq Daun xəstəsiydi. Hamı məyus oldu. Daun. Kənd yerində eşidilməmiş ad. Ölkənin paytaxtından uzaq, böyük, abad kənddə doğulub böyümüşdü, lakin son illər istənilən informasiya buraya da gəlib çatır, kənd camaatını şəhərlilərdən geri qalmamağa məcbur edirdi. Televiziya kanallarını zəbt

etmiş Amerika filmləri, respublikadakı və cəbhə zonasındakı vəziyyət barədə ağır xəbərlər, dünyadakı durum, gərgin və qaynar ocaqlar barədə məlumatlar - bütün bunlar həyatı hərəkətləndirirdi. Yaşlı kəndlilər geri qalmamağa çalışırdılar, gənclər isə həyatın nəbzini tutmaq üçün kəndlə vidalaşıb şəhərə axışırdılar. Qulaqlarına qulaqcıq taxıb, gözlərini mobil telefona zilləyib ilk vaxtlar Paris, Nyu-york, London zənn etdikləri böyük şəhərin küçələrində təhlükə yaradırdılar. Bu şəhəri onlar indiyədək yalnız filmlərdə görmüşdülər.

Bartolomeo böyüyürdü, on beş yaşına qədər hər şey az-çox yaxşı gedirdi, əgər xəstə uşaq üçün bunu demək doğrusa... Valideynləri onun görkəminə, lala-piti nitqinə, mərhəmət yağan gülümsər gözlərinə, daim suyu axan ağzına, yetim kimi çiyninə əyilmiş başına, xətrinə dəyəndə qəfildən qəzəblənməsinə, gücü çatan hər şeyi hara gəldi tullamasına alışmışdılar. Kənd yerində qohumla evlənmək təzə xəbər deyildi, yaxın qohuma ərə gedən, qohumdan qız alan çox idi, nəticədə dünyaya şikəst uşaqlar gəlirdi. Kənd camaatı üçün bu adi hal idi, sonradan peşman olsalar da, bu adi haldan çəkinənlər çox az idi və beləcə davam edirdi. Bartolomeo kimiləri yenə vardı, düzdür bundan onun doğmalarının, ata-anasının, xüsusən planetimizdə faşizmin məhv edilməsi yolunda canından keçmiş dostunun adını daşıyan nəvəsini ağıllı, yaraşıqlı, savadlı görmək istəyən babanın dərdi yüngülləşmirdi, amma... Olan olmuşdu, bunun çarəsi yox idi. "Əmiqızı ilə evlənmək lazım deyildi", - oğlunun qarasına deyinirdi, amma dərdini heç kimə aça bilmirdi, çünki özü də qohumu ilə evlənmişdi. Bəxtəvər beş il əvvəl ölmüş, ərini sonrakı peşmançılıqları ilə təkbətək qoyub getmişdi. Kişinin bir təsəllisi vardı ki, onların səkkiz oğlu və iki qızı sappasağlam doğulmuşdu. Allahın yazığı gəlmişdi, uşaqlar həm də bacarıqlı, işgüzar, çevikdilər, demək olar ki, zəmanə uşaqlarıydılar. Qəribədir ki, onlardan heç biri həyatını daha yaxşı qurmaq üçün həmkəndlilərindən fərqli olaraq, böyük şəhərə can atmırdı. Özlərini burada, daha doğrusu, getdikcə şəhərə çevrilən rayon mərkəzində yetərincə gərəkli hiss edirdilər, çox fəaldılar: mağazalar, apteklər açır, bazarda alver edir, kənddən şəhərə yük maşınları ilə meyvə-tərəvəz aparır, sərfəli qiymətə topdansatanlara satırdılar. Xülasə, alır, satır, varlanırdılar. Getdikcə daşınan və daşınmayan əmlakları da artır, nəslin fəxrinə çevrilirdilər. Axırda əməlli-başlı yerlənib-yataqlandılar. Cavidin qızları da yaxşı yerə düşmüşdülər, dolanışıqları yaxşı idi, amma ərləri onları getdikcə meqapolisə çevrilən böyük şəhərə aparmışdılar. Bu böyük şəhərdə açılan imkanlardan (başqa siyasi formasiyaya keçidlə və zəhlətökən, iylənmiş, çürümüş, ömrünü başa vurmuş, daim izi-tozu görünməyən kommunizmə can atan sosializmin süqutu ilə əlaqədar) yararlanaraq arvadlarının şəhəri kənd təsərrüfatı məhsulları ilə təmin edən qardaşları - qayınları ilə əməkdaşlıq edirdilər. Bir sözlə, hər şey öz yolundaydı, alver yağ kimi gedirdi. Nəzərə alsaq ki, bu ölkənin əsas kütləsi uşaqlıqdan alver işində pərgardı və Cavidin oğlanları da məhz bu kütləyə aid idi (yoxsa bit basmış ziyalılar kimi), indi uşaqlıq təcrübələri öz bəhrəsini verirdi, nəsildə hər barədə artım gedir, nəslin ağsaqqalı da yerə-göyə sığmırdı. Ölkənin 90-100 yaşlı uzunömürlü sakinlərilə məşhur olan dağ kəndlərindən fərqli olaraq, Cavidin aran kəndi bu şöhrətdən məhrum idi və səksəni adlayan Cavid baba yaşına görə əməlli-başlı ağsaqqal sayılırdı. Bəzən bu kənddə də yüzü haqlayanlar olurdu. Qohumla evlənmək məsələsinə gəldikdə isə o qocalar da kənd əhlinin bu adətlərini əlləşdirirdilər.

- Biz tənbəl camaatıq, - çayxanada oturub ucuz siqaretlərini tüstülədərək, çaylarının soyumasını gözləyən qocalar deyinirdilər, - astagəlik, uzağa getməyi xoşlamırıq, əlimizin altında olana cumuruq: əmioğlularla savaşıb, əmiqızıyla evlənirik.

Kənd camaatı üçün bu adi bir şeydi. Kənd işğalçı qonşu respublikanın sərhədlərindən uzaqda yerləşirdi, lakin gərgin hərbi vəziyyət, daha doğrusu, ölkənin daxilindəki qarşıdurma burada da hiss olunurdu, həm də əməlli-başlı. Kənddən əsgərliyə gedən, cəbhə xəttində xidmət edən gənclərdən düşmən snayperinin gülləsinə tuş gələnlər də olurdu. Onlardan ikisi həlak olmuşdu. Müharibə elə müharibədir, müharibədən kim xeyir tapıb ki... O ancaq dərd-bəla gətirir və bu yeni müharibə Cavidin çox əziyyət çəkdiyi, faşistlərin hərb düşərgələrindən qaçdığı, italyanların müqavimət hərəkatına qoşulduğu, dost tapdığı,

onunla çiyin-çiyinə faşistlərə qarşı igidliklə öz torpağı, öz azadlığı uğrunda döyüşürmüş kimi savaşdığı o böyük müharibəni uzaq keçmişə sürüşdürürdü. Müharibədən sonra Cavid əsir düşdüyü üçün dezirtir kimi həbs edilmiş, düşərgədə cəza çəkmişdi. Lakin tezliklə vəziyyət dəyişmiş, bəraət almış, azadlığa buraxılmışdı. Başa düşmürəm, danışmaq istədiyim bu əhvalatın içinə bu publisistik ahəng haradan gəlib düşdü... Eybi yox... Hə, harada qalmışdıq?

Cavid babanın tək dərdi sevimli nəvəsi Bartolomeo idi. Səxavətli gəlinlərin bol-bol dünyaya gətirdikləri digər nəvələrin hələ ki, təəssüf hissi doğuracaq bir durumu yox idi, təəssüf ki, onlar, ümumiyyətlə, heç bir hiss doğurmurdular, bəlkə də, buna səbəb gəlinlərin məhsuldarlığı idi. Əslində nəvələrinin hamısını öz-özlüyündə sevirdi, lakin böyüdükcə çarəsiz, dəhşətli xəstəliyinin bütün simptomları, fəsadları daha da üzə çıxan sevimli nəvəsi Bartolomeonu dərin məhəbbətlə sevirdi və getdikcə uşağa daha çox bağlanırdı. Onun dilini açmağa çalışır, az-maz yazmaq öyrədirdi. Hələ tamamilə unutmadığı italyan dilini öyrətməyə çalışırdı (özü də fikirləşirdi ki, musiqililiyilə ana dilinə yaxın olan bu dil nəvəsinin nəyinə lazımdır), halbuki uşaq güc-bəla danışırdı. Bəlkə də, istər ana dili olsun, istər italyan, sözlərin mənasız olduğunu dərk edən uşaq ağıllı, xırda gözlərilə yaşına uymayan hövsələsizliklə onu suallara tutan dərdli babasına baxıb, daha çox susmağa çalışırdı. Suallara cavab tələb olunmurdu, anlayışlı, qəmgin baxışlar elə cavab idi. Uşağa hər şeyi öyrətmək istəyirdi, əlindən tutub yüngülcə itələyir, yeritməyə çalışırdı. Uşaq toppuş ayaqlarını götürüb-qoyur, mübtəla olduğu dərddən xəbərsiz ürəkdən gülürdü . Daha sonra Bartolomeo rəsm çəkməyi xoşladı, iyli rəngarəng yağlı boyaları sevirdi, boyaları iyləməyi, qalın kağızları, rəngbərəng flomasterləri sevirdi. Ona rayon mərkəzindən, şəhərdən ən yaxşı, ən bahalı flomasterlər alırdılar.

- Köpək oğlu, sən gec evlənməsəydin, belə olmayacaqdı, - deyə nəvəsinə olan sevgidən və dərddən çatlayan Cavid kiçik oğlu Seymurun üstünə düşürdü, əslində, bilirdi ki, ittihamı əsassızdır. - Sənin yaşında mən beş uşaq atasıydım, - bir anlıq keçmişə baş vurub, yenidən mətləb üstünə gəlir, səhvini düzəldirdi. - Yox, mən nə danışıram, iki uşaq... o birilər sonra olublar. Yaşım qırxı keçmişdi, rəhmətlik də doğmaqdan yorulmuşdu, mexanizmi xarab olmuşdu, hey şikayətlənirdi...

-Yaxşı, ata, - Seymur onun sözünü kəsirdi. - Bəsdir. Bu nə danışıqdı?

- Ver "Cip"in açarlarını, köpək oğlu, Boya maşın sürməyi öyrədəcəyəm.

- Bo kimdi? – Oğlu çaşıb qalırdı.

- Əgər sən əclaf...

- Bəsdi, yetər. Mən sənin üçün nəyəm?

- Əgər sən əclaf, - Cavid bu dəfə bir az sakit təkrar edirdi, - mənə diqqətlə qulaq assaydın, bilərdin ki, Bo mənim nəvəm, sənin oğlundur. Dostum Bartolomeo, mənim əsl dostum onu qısaca belə çağırmağı xahiş etmişdi... İkimiz də çox gənc idik, amma ömür boyu mən belə bir dosta rast gəlmədim. O mənim həyatımı xilas etmişdi, bir dəfə də mən onun həyatını qurtarmışdım. Biz qanla bağlıyıq. Sonra elə bir adam olmayıb ki, belə möhkəm, əsl kişi dostluğumuz olsun. İndi kişi var? Hamı bir-birini aldadır, bir-birinə badalaq gəlir, bir-birinə atır, aradan çıxır... Tfu!

Seymur dəfələrlə eşitdiyi sözlərdən bezib çıxıb gedirdi, qoca isə hələ də deyinir, pəncərəyə, stula, qapısı açıq şkafa, şkafdakı paltoya nəyisə sübut etməyə çalışırdı.

Bonun beş yaşı tamam olanda qoca onu böyüyüb, abadlaşmış, şəhərə çevrilmiş rayon mərkəzinə, mədəniyyət evi və ya klubda fəaliyyət göstərən rəssamlıq dərnəyinə apardı. Dərnəyə hansısa səbəbə görə diplom aldığı böyük şəhərdən buraya gəlib düşmüş peşəkar rəssam rəhbərlik edirdi. Bu dərnək Bo üçün həm məktəb, həm dərs, həm yaşıdları ilə ünsiyyət imkanı, onun yaşıdlarını hələ bir il sonra gözləyən bütün digər sevinclər idi. Onu isə heç nə gözləmirdi. Rəsm dərnəyinə gələn uşaqlar əvvəlcə ondan kənar gəzirdilər. Getdikcə də ünsiyyət yarada bilmədilər, çünki indi də Bo onlardan qaçırdı. İlk ən yaddaqalan məşğələlərdə uşaqlar ehtiyatla ona baxır, onun akvarel və yağlı boya ilə anlaşılmaz, qəribə işlərinə baxıb rişxəndlə qımışır, arada söz də atırdılar. Bonun kövrək qəlbinə xal düşürdü.

Cavidin təsviri sənətdən başı çıxmırdı, bununla belə hiss edirdi ki, nəvəsi rənglərlə öz iç dünyasını ifadə etməyə çalışır və onun iç dünyası

heç kiminkinə bənzəmir, bənzəyə də bilməz, onun bu dünyasını nəinki kəmsavad Cavid, hətta məşhur rəssamlar və sənətkarlar, həmçinin psixiatorlar da açа, izah edə bilməzlər. Qoca əvvəllər psixiatorların yanında olmuşdu. Tək gedib nəvəsinin hərəkətlərindən danışmışdı, ümid edirdi ki, onun danışdıqlarından nəticə çıxarıb, bu nəticələrin normal uşaqlarınkından çox fərqli olmadığını deyəcək, onu sevindirəcəklər. Amma yox. Nə nəticə, nə də ümidverici proqnozlar vardı. Əksinə, hər dəfə xatırladırdılar ki, xəstə uşağı gətirmək lazımdır. "Xəstə uşaq" ifadəsi Cavidi qıcıqlandırırdı, lakin Bonu psixiator yanına aparmağı heç ağlından da keçirmirdi. Bu ziyarətdən sonra o, nəvəsinin sual dolu gözlərinə necə baxardı, nə deyərdi?

Hərdən babasının sürdüyü maşında məktəbin yanından keçərkən bikef-bikef məktəbdən çıxan, küçədə oynayan, gülən, qapışan, qışqıra-qışqıra mübahisə edən, nəyisə ayırd etməyə çalışan uşaqlara baxırdı. Cavid gözünü nəvəsindən çəkə bilmirdi, eyni zamanda yola da baxmağa çalışırdı, amma gözləri bulanır, yolu aydın seçə bilmirdi. Bu da təhlükəliydi, çünki hər yanda məktəbdən çıxan uşaqlar dolaşırdı, maşının sürətini azaldırdı. Bu işgəncə idi, işgəncə, İlahi, çünki Bo gözlərini özünə bənzəməyən uşaqlardan çəkmirdi... Bo kənddə yeganə Daun xəstəsi deyildi. Uşağın tərbiyəsini öz öhdəsinə götürmüş Cavidin ağlına gəlmirdi ki, nəvəsini onun kimi uşaqların yanına aparsın. Yox, yox, onun nəvəsi onlar kimi deyil, o mütləq qurtulacaq, o, başqaları kimi olacaq, normal uşaqların çoxundan o daha yaxşı, daha istedadlı, daha ağıllı olacaq, olacaq... Qoca hönkürməkdən özünü zorla saxlayırdı, sinəsinə, boğazına yığılmış hıçqırıq bu beş ildə ilk dəfə onu çaşdırıb bayıra çıxmaq istəyirdi, amma olmaz. Bo, demək olar ki, həmişə yanında idi, o qorxa bilərdi, çünki babasını möhkəm, qorxmaz, hamını sakitləşdirməyi bacaran, lakin özünün kimsənin canfəşanlığına ehtiyacı olmayan insan kimi görməyə adət etmişdi. Baba həmişə təmkinliydi və Boya baxanda gözləri parlayırdı.

Bo akvarel və yağlı boya ilə çəkdiyi rəsmlər kimi rəngarəng əlvan yuxular görürdü, yuxular rəsmlər qədər cazibədar və anlaşılmaz idi və gözlər dolur, ürək alışır, döş qəfəsinə sığmırdı. Yuxusunda təsadüfən kətana dağılmış damlaya bənzəyən al-qırmızı ləkə görürdü, ləkə yayılmağa başlayır, iki qısa cizgi ona doğru uzanırdı, bu onun anası idi. anasının ona çox ürəyi yanırdı və işi-gücü onu yedirməkdi. Bo kökəlib əndazədən çıxmışdı, balacaboy olsa da, beş yaşa görə çəkisi çox idi, gödək, gombul ayaqları vardı, barmaqları da topal kimiydi və bu barmaqlar tez-tez anasının ətəyini dartırdı. Anası nə istədiyini öyrənmək üçün ona tərəf çevriləndə bic-bic gözlərini qıyıb gülürdü, yəni ki, zarafat etdim. Yuxuda budaqları yellənən, amma gövdəsi möhkəm dayanan ağaca bənzər yaşıl ləkə görürdü. Bu Cavid baba idi. Bo əvvəllər düzgün tələffüz edə bilməsə də, "baba" kəlməsini öyrənmişdi, halbuki Cavid bu sözü ona heç vaxt öyrətməmişdi.Yəqin ki, valideynlərindən tez-tez eşitdiyi üçün bu sözün öhdəsindən gəlmişdi. Ağ ləkə görürdü yuxusunda, bu ləkə baş alıb uzaqlara gedirdi. Məktəbli uşaqları, yan-yörəsində nə varsa, hamısını ötüb keçirdi. Bu atasının maşını idi. Maşını yaşıl baba sürürdü. Yuxuda gördüyü alabəzək məktəbli kütləsi-əslində alabəzək deyil, tünd rəngdəydi, kənd camaatı uşaqlarına, adətən, çirkətab rəngli geyim geyindirərdi - hələlik palitranı əvəz edən kartonun üstünə dağılmış günəşin rəngarəng şəfəqlərinə bənzəyirdi. Alabəzək kütlə üçün o rəngsizdi, bu kütlə qızışır, Bonu dəstəsinə buraxmırdı. Bo isə onları çox sevirdi, bu səsli-küylü alabəzəkləri, bu cingiltili, çox səsli əlvanlığı sevirdi. Anası ona kitab oxuyur, nağıl danışırdı, Cavid məşhur rəssamların illüstrasiyaları olan bahalı albomlar alırdı, onu çox dindirməyə çalışırdı, nəhayət, beş yaşı haqlayanda Bo həvəssiz də olsa, az-az danışmağa başladı. Şüuraltı olaraq sözlərə bir inamsızlıq hiss edirdi, kəlmə kəsməyi sevmirdi, rənglər başqa məsələ, onlar dürüstdür, onlar yalana yatmaz. Cavid rəsm müəllimindən Bonu plastilinlə işləməyə həvəsləndirməsini xahiş etdi, nəyə görəsə bu uşaqda kəskin ikrah doğurdu, müəllim ona plastilin verib, necə kündələndiyini gösrtərəndə Bo qorxub iyrənc bir şey kimi tez kütləni tulladı. Plastilin haqq-hesabına bir daha qayıtmadılar, çünki uşaq bu əzilib-büzülən kütləni görər-görməz əsəbiləşir, özünü ələ ala bilmirdi. Cavid əl çəkmək istəmirdi, nəvəsinə başa salmağa çalışırdı ki, fiqur düzəltməklə şəkil çəkmək təxminən eyni şeydir, demək olar ki, eyni sənətdir. Amma bir şey alınmadı və plastilinə qadağa

qoyuldu. On yaşa keçəndə Bo artıq özünün kodlaşdırılmış rəngkarlığına qapılmışdı. Bir gün Cavid zarafatla nəvəsindən soruşdu ki, o, babasının portretini çəkə bilər? Bo xısın-xısın güldü, məmnunluqdan ağzının suyu axdı, tez fırçanı götürüb, işgüzarcasına kətanın üzərində gəzdirməyə başladı (Cavid peşəkar rəssama lazım olan hər cür ləvazimat almışdı, Bonun istedadına şəkk-şübhəsi yoxdu, o, nəvəsinin rəsmlərindəki bu rənglərin, kölgələrin gur qarışığının dərin anlamı olduğuna inanırdı, sadəcə, nə qoca özü, nə rəsmləri görənlərin bu dərin mənanı anlamaq iqtidarında olmadıqlarını düşünürdü və s.), bir neçə dəqiqə sonra portreti babasına təqdim etdi. Bu palıdın və ya hər hansı bir çox möhkəm, dözümlü, etibarlı ağacın çətirinə bənzəyən yayılmış yaşıl ləkə idi. Cavid rəssam nəvəsi üçün çəkdiyi zəhmətin boşuna getmədiyinə inanırdı, ona görə də portretin bir anlam daşıdığını əsaslandırmağa çalışırdı. Gəlinini çağırdı, Bodan anasının rəsmini çəkməyi xahiş etdi, nəvəsi həvəslə razılaşdı. Portret iki dəqiqəyə hazır oldu, bu tayı-bərabəri olmayan qırmızı gül idi.

- Ananı nə yaman çox sevirsən, - gözlərini al-qırmızı güldən çəkməyən Cavid fikirli-fikirli dilləndi. Deyəsən, o, nəvəsinin rəssamlığından bir şey anlamağa başlamışdı.

- Səni də sevirəm, - Bo kəkələyərək etiraf etdi. Hisslər ona güc gəldiyi üçün ağzının suyu axırdı. Bic-bic qımışıb başını aşağı saldı.

- Elədir, - dedi Cavid, - görürəm.

Bir neçə gündən sonra Cavid yaxınlığında olan nəvə-nəticəsinin hamısını yığıb, Bodan hamısının birlikdə rəsmini çəkməyi xahiş etdi. Qabaqcadan iri kətan hazırlamışdı, klubda nəvəsilə məşğul olan rəssam kətanı çərçivəyə almışdı. Hər kəs rəsm çəkdirmək üçün fərəqət dayanmışdı.

- Çox çəkməyəcək, - Cavid nəslin davamçılarını sakitləşdirməyə çalışırdı, - əldən itidir, görəcəksiniz.

- Saray rəssamı Qoyya kral ailəsinin rəsmini çəkir, - oğlanlardan biri dilini saxlamadı.

- Nə, nə? - Başqa bir oğlan soruşdu, - o kimdir elə?

- Qoyya haqqında filmə baxmışam, - deyə söz atan oğlan cavab verdi, - musiqisini də bizim bəstəkarımız Qara Qarayev yazıb.

- Yaxşı da, - böyük oğlu danışanlara çımxırdı. - Yaradıcılıq prosesinə mane olmayın.

- Siz harada belə ağıl dəryası olmusunuz? Biri filmə baxıb, biri prosesdən danışır, - bir başqa oğul söhbətə qarışdı. - Bir işin ucundan yapışsaydınız, yaxşı olardı... İki gündür üç maşın boş dayanıb, şəhərdə müştəri gözləyir...

- Narahat olma, düzələcək, - Qoyyadan danışan oğul cavab verdi. - Döyüləndə ağlayarlar, qabaqcadan yox... Hər şey yoluna düşəcək.

- Düz deyirsən, əllərinizi cibinizdə, oturun gözləyin, haçan düzələcək...

- Kim əli cibində oturub ki?! - Səslər bir-birinə qarışdı. - Biz hər şeyi etmişdik, kim haradan bilirdi ki...

Oğlanların söz-söhbəti xoşagəlməz yön alırdı, bu vaxt ata ortaya girdi.

Susun, - Cavid astadan əmr etdi, - sonra dartışarsınız.

Ümumi tabloya on dəqiqə vaxt getdi, lakin Cavidin işgüzar oğullarına bu on dəqiqə əbədiyyət qədər uzun göründü. Şəkil hazır idi. Naturaçılar indi tamaşaçı qismində idilər, səssizcə dayanıb bir xeyli əlvan kətana baxdılar, tablonun çəkilməsinə daha az vaxt getmişdi.

- Bu mənəm, - Bonun anası - Nigar açıq-boz rəngə sıxılmış qırmızı ləkəni göstərib həyəcanla astadan dilləndi. - Bu isə Bodur. Düz tapmışam, Bo?

Artıq hər kəs alabəzək kətanda özünü tapır, həyəcanla, əl-qol ataraq, sinəsinə döyərək, nəyisə sübut etməyə çalışırdı.

- Gör ha!

- Əladır!

- Kimin ağlına gələrdi?

- Bo, sən əsl rəssamsan! Vallah Qoyyadan geri qalmırsan!

- Bir baxın, xarakterləri necə düzgün ifadə edib: dolaşıq, əsəbi.

- Rəngi də dəqiq seçib - həmişə firuzəyi rəngi sevmişəm, baxın, bu mənəm...

Nəyə görəsə hamı Cavidə baxırdı, birdən o nə isə vacib bir şey xatırlayıbmış kimi üzünü uşaqlardan çevirib tələsik addımlarla otaqdan çıxdı, gedə-gedə həyəcanla cibindəki dəsmalı dartışdırırdı.

Bartolomeo on beş yaşında çox boy atmamışdı, amma bədəni yeniyetmələrin yığma

komandasının güləşçiləriylə müqayisə oluna bilərdi. Artıq beş ildi ki, babası onu bağ belləməyə, dırmıqla işləməyə alışdırmışdı, nəticədə gödək qolları və ayaqlarının əzələləri əməlli-başlı inkişaf etmişdi. Key-key gülümsəyəndə küt sifəti büzüşürdü. Qan sızmış gözlərindən şəfqət yağırdı, peşəkar güləşçinin qırılmış qulaqları kimi qulaqları vardı. Suyu axan ağzı tez-tez açılır, ağ, düz dişləri bayırda qalırdı. Boyunsuz başı birbaşa çiyinlərinə pərçimlənmişdi. Gerçək yaşını təyin etmək çətindi: on yaş da vermək olardı, iyirmi yaş da. Özünün çəkdiyi boz-gümüşü portretə bənzəyirdi.

Pəncərə qabağında oturub küçəyə baxaraq düşüncələrə dalmağı, daha çox da babasının maşınında oturub ötüb keçən mənzərəni seyr etməyi sevirdi. Nə düşündüyünü demək çətindir, fikirləri barədə, insanlara, doğmalara, tanıdıqlarına, tanımadıqlarına bəslədiyi duyğu barədə özünə hesabat verə bilmirdi, lakin başlıcası, anlayırdı ki, bütün insanlar sevgiyə layiqdirlər, dünyada sevilməyəcək insan yoxdur. O bunu bütün canıyla, qanıyla, sözün haqlaya bilmədiyi qaçaraq fikirləriylə hiss edirdi. Onun halını, onun daimi sevgisini ifadə edə biləcək o qədər az söz var ki?! Bu sözləri dilə gətirmirdi, hətta düzgün tələffüz etdiyi sözləri də söyləmirdi, buna ehtiyacı yox idi. Sözlər başqalarına lazımdı, nəyisə başqalarına təlqin etmək, sübut etmək, anlatmaq üçün. Onun hiss etdiklərinin izaha ehtiyacı yox idi, o, təpədən-dırnağa sevgidən ibarət idi, onun tortası yoxdu. Həndəvərindəki özünəbənzərlər kimi onun başqa hiss və niyyəti yox idi. Şöhrətpərəst deyildi, özündənrazılıq ona yaddı, həsədin, mənfəətin nə olduğunu bilmirdi, doğma insanların arasında çiçəklənmiş sevgisidən başqa heç nəyi yoxdu. O hamını sevirdi, əvvəldən tanıdıqlarını da, heç tanımadıqlarını da və Bo elə bilirdi ki, bu hiss qarşılıqlı olmalıdı, o hər kəsi sevdiyi kimi, onu da sevməlidilər.

Bir gün on beş yaşlı Bo aşiq oldu. Bu qaçılmazdı, onun indiyə qədərki qısa həyatı boyu buna hazırlıq gedirdi və bu baş verdi.

İsti, küləkli bir bahar günündə Bo onu gördü. Onu artıq çoxdan küçəyə tək buraxmırdılar, arxasınca gəzmirdilər, hiss edirdilər ki, bu onu qıcıqlandırır, əsəbiləşdirir. Əsəbiləşəndə əsməyə başlayır, yaralı heyvan kimi böyürürdü, görənlər qorxurdular, bu halda o hər şey edə bilərdi, başını asfalta vurub özünü şikəst edə bilərdi, belə dəlilikləri olmuşdu. Buna görə də istəklərinə qarşı çıxmırdılar. Əslində, yazıq çox şey də istəmirdi, sadəcə bəzən tək qalmaq, küçədə dolaşmaq, gəlib-keçən yad adamlara baxmaq istəyirdi. Qarşısına çıxan hər kəsə gülümsəyirdi, ağzında köpüklənən tüpürcək çoxlarını iyrəndirir və onlar ikrahla üzlərini çevirirdilər.

Dəfələrlə beləcə tək küçəyə çıxmışdı, başına bir iş gəlməmişdi və beləliklə, onu rahat buraxmışdılar, amma tapşırmışdılar ki, evdən çox uzağa getməsin, azar.

Yaxındakı küçələrdə dolaşıb ağacdan kasad bir bağa gəlib çıxdı, oturacaqda bir qız əyləşmişdi. Təxminən onunla yaşıd, ya da bir yaş böyük olardı. Qız bir baş ondan hündür idi, hörüklərinə rəngli lent bağlamışdı, indicə yuyulmuş kimi təmiz, düzgün biçimli üzü, incə dodaqları vardı, bir gözü digərindən bir az böyük görünürdü, babasının göstərdiyi hansısa rəssamın illüstrasiyalar albomundakı şəklə bənzəyirdi.

Bonun qısa kəkili meymun alnı kimi ensiz alnına səpələnmişdi. Saçları tikan kimi oduğundan bir tükü də tərpənmirdi. Ağzının suyu axırdı, xoşu gələn bir şey görəndə gözləri gülür, qıyılıb koppuş sifətində batırdı. Bo ağzı qulaqlarında qıza yaxınlaşdı. Bilmirdi əllərini haraya gizlətsin. Qız hirslə ona baxdı. Oturaq halda oğlanla eyni boyda idi. Qız onu bir az süzüb birdən sakitcə gülməyə başladı. Bo da güldü, sevincək agzını marçıldatdı. Bu vaxt bir oğlan onlara yaxınlaşdı, yaşca qızdan xeyli böyükdü, qız qalxıb oğlana tərəf getdi, Bo da onun yanınca addımladı, çünki qız ona gülümsəyirdi, gülürdü. Qız Bonun gəldiyini görüb üzünü turşutdu, ikrahla ondan uzaqlaşdı. Oğlan Bonun başına bir qapaz ilişdirdi ki, onlardan aralansın. Bo elə bildi ki, onunla zarafat edirlər, qızla yanaşı gedir, astadan gülürdü. Oğlan dayanıb Bonun yolunu kəsdi, üzünü əks istiqamətə çevirib arxasına bir təpik vurdu. Bo bir az əvvəl qızın əyləşdiyi oturacaqdan da o yana uçub yerə sərildi. Yaxınlıqdan keçən iki yaşlı qadın yerdə uzanan və qalxmağa tələsməyən Bonu görüb oyun sandı, təbəssümlə başlarını buladı, nəsə dedi, Bo anlamadı.

- Mən bunu tanıyıram, - qadınlardan biri dedi. - Cavidin nəvəsidi, necə uzanıb yerə, donuz balası.

- Beləsini evdən tək buraxmaq olar? - O biri qadın da məlum deyildi kimin qarasınca deyinir.

- Bunu kim vurdu, sən gördün?

- Sonaxanımın nəvələri, bacı-qardaş şəhərdən qonaq gəliblər.

- Bu şəhərlilərin də əlləri dinc dayanmır.

Qadınlar yollarına davam etdilər.

Bo evə gəldi, yaddaşında necə qalmışdısa, qızın qızılı-sarı rənglərlə şəklini çəkdi, portret günəbaxana bənzəyirdi.

Bo ilk dəfə gördüyü qıza aşiq olmuşdu, o, şəhərli qıza aşiq olmuşdu, necə deyərlər, ilk baxışdan vurulmuşdu.

Cavid üst-başı toz-torpağa batmış nəvəsini pəncərədən görüb qabağına qaçdı.

- Nə olub sənə? - Oğlanın üzündə cırmaq izləri görüb qoca narahatlıqla soruşdu. - Yıxılmısan? Sürüşüb düşmüsən? Elə dayandığın yerdə yıxıldın? Bo, de görüm nə olub?

Oğlan həmişəki kimi lal-dinməz baxırdı, suallar yağdıqca qəribə tərzdə gülümsəyirdi. O, qızı düşünürdü, indi onu düşündürəcək biri vardı, qız gerçək idi, bu qız mövcud idi. Bo artıq qızı sevirdi. Bu, bütün insanlığı, sevgiyə layiq hər kəsi əhatə edən qarmaqarışıq sevgi deyildi, o, məlum birini sevirdi, onun sevgisi bir insana, bir qıza yönəlmişdi, ona görə də bu sevgi çox-çox güclüydü, bu, düz hədəfə-ürəyə dəymiş sərrast atəşə bənzəyirdi, bu sevgidən ürəyi, başı ağrıyırdı, hey gözləri yaşarır, xırda, eybəcər qulaqlarına qədər gülümsəyirdi, ağzının suyu aşdım-dasdım idi.

Qız gecə Bonun yuxusuna girdi, o, həyatdakı kimi deyildi, Bonun bağda gördüyü kimi deyildi, oğlan onu dənizin firuzəyi, narahat dalğalarında günəşi əks edən qızılı ziya, parıltı kimi görürdü, lakin bilirdi ki, bu, dəlicəsinə sevdiyi qızdır və durduğu yerdə ağlamaq, gülmək istəyirdi. Yuxuda Bo yenə onun portretini çəkirdi və bu portret gerçəkdə çəkdiyindən daha gözəldi, ətrafındakı qırmızı və ağ ləkələr isə qıvrılıb-açılır, rəqs edir, hərəkətlərilə heyranlıqlarını bildirmək istəyirdi.

Səhər Bo yenə bağa yollandı, dünən qızın əyləşdiyi oturacaqda oturub onu gözləməyə başladı. Cavid dünəndən nəvəsi üçün nigarandı, ona görə də gözə dəymədən səssizcə onun izinə düşdü.

Bu böyük kənddə gəzmək, oturub dincəlmək üçün yer çox deyildi, yeni salınmış bu körpə ağaclı bağ da o azsaylı yerlərdən idi.

Bo oturacaqda əyləşib düşüncələrinə gülümsəyirdi, dünənki füsunkar qızın yerində oturduğu üçün xoşbəxtdi. Nə üçünsə inanırdı ki, qız gələcək, çox inanırdı. Elə bil qız onun ürəyini oxumuşdu, elə bil yalvarışlarını duymuşdu və qız gəldi. Cavid evin tinində dayanıb nəvəsinə baxırdı. Bo qızı görüb ayağa qalxdı, qıza tərəf getdi. Əlindəki kağızı qıza uzatdı. Qız Bonu görüb diksindi, amma sonra kağızı aldı, baxıb oğlana qaytardı. Oğlan anlatdı ki, portret çəkilmiş kağızı ona bağışlayır. Qız qımışdı, kağızı nə edəcəyini bilməyib yellədi. Bo ağzının suyunu axıda-axıda baxırdı, qız tez-tələsik nəsə deyib getdi. Bo hələ də gülümsəyərək, uzaqlaşan qızın incə əndamından, kürəyindən, yuxarıda topladığı saçlarından, boynunun ardından gözlərini çəkmirdi. O təpədən-dırnağa qıza aşiq olmuşdu. Onun boynunun ardına, kağızı tutan əllərinə, bir az tozlu ayaqqabılarına, bir-birindən az fərqli gözlərinə, xüsusilə dabanlarına məftun olmuşdu, o incə dabanlara diqqətlə baxır, ağzının suyunu yığışdıra bilmirdi. Dumanlı da olsa fikirləşirdi ki, belə incə dabanlar insana deyil, mələklərə xas ola bilər, belə incə dabanlar yerə basmaq üçün deyil, bu dabanların sahibi yalnız uça bilər.

Yeddi-səkkiz yaşlı iki oğlan velosipeddə bağın yanından keçirdi. Oğlanlardan biri sürənin qarşısında oturmuşdu və pedalı işlətməyə mane olurdu. Velosipedi sürən oğlan uşaqlara yaraşmayan tərzdə söyüş söydü. Bo qulağına yad sözlərdən diksindi, anladı ki, yaxşı sözlər deyil. Bununla belə, tərbiyəsiz velosipedçiləri də sevgi dolu baxışlarla yola saldı. O xoşbəxt idi, gözləri dumanlanırdı, ağzının suyu dayanmaq bilmirdi, qulaqları incə-incə cingildəyirdi. Oturacağın təpəsinə ağacdan bir qarğa enib oturdu və tərs-tərs ona baxdı. Bo gülüb qarğanı tutmaq istədi, qarğa uçub getdi. Sonra haradansa pisikmiş pişik peyda oldu, oğrun-oğrun yan-yörəsinə baxaraq bağa girdi. Bo sevincdən buzov kimi böyürə-böyürə pişiyin arxasınca qaçdı. Pişik canını qurtarmaq üçün götürüldü.

O sanki sarımtıl-qızılı günəşin insan temperaturu qədər isitdiyi bu bahar havasında əriyə bilərdi. Qız da qızılıya çalırdı, o, adını bilmədiyi qızı hədsiz-hududsuz sevirdi, bu sevgidən dönüş yoxdu. Bu qeyri-adi sevgiydi, heç kimi belə sevməmişdi, qızı düşünəndə özünün baş-

qalarından fərqli olduğunu anlamırdı, bu başqaları da bədbəxtlikdən sığortalanmayıblar, amma səbəb başqalarına bənzəməmələri deyildi, ağır, çarəsiz xəstəlikləri də deyildi, bu başqaları özlərinəbənzərlərin arasında bədbəxtlik üçün çox problem tapırdılar, lakin xoşbəxt olmaq üçün də səbəblər vardı. O indi nə qədər fərqli olduğunu anlamırdı, çünki o aşiq olmuşdu, çünki sevirdi, bu hiss ona görkəmini, ağır xəstəliyini unutdururdu. Bu, özünü normal, hər gün gördüyü insanlar kimi hiss etməyə məcbur edirdi. Çünki o, şüuraltı olaraq anlayırdı - taleyin insanlara hədiyyə etdiyi ən gözəl, ən başlıca məsələdə insanlarla həmtay idi.

Cavid gizlincə nəvəsini seyr edirdi, baş verən dəyişikliklər gözündən qaçmırdı, qocaya elə gəldi ki, son iki gündə nəvəsi elə bil yaraşığa minib, baxışlarından keylik çəkilib, ağzı daha az açıq qalır, tüpürcəyi də azalıb, siçovul kimi yumru yanaqları da bir az yığışıb, əvvəlki kimi arxadan baxanda pırtdamırdı.

Qoca bilirdi ki, bu məsələ xeyirlə bitməyəcək, nəvəsi peşman olacaq, sarsılacaq və çox peşman olacaq. Bununla belə, ona dəstək olmağa qərar verdi. Hər dəfə ruh düşkünlüyü olmaz ki... Bir halda ki, yaxşı bir məsələ var, istifadə etmək lazımdır. Bonu tanış dərzinin yanına apardı, o da rekord sayılacaq bir müddətdə, bir gecədə oğlana kostyum tikdi. Kostyum onu əməlli-başlı dəyişdi. Cavid nəvəsinə onun rəsmlərindəki kimi əlvan rəngli qalstuk bağışladı. Ertəsi gün Bo bağa təzə bəy kimi getdi. Oturacaqda əyləşib elə həyəcanla gözləməyə başladı ki, elə bil əvvəlcədən görüş vədələşmişdilər. Dəqiqələr keçirdi, qız isə görünmürdü. Bo bilmirdi ki, insanlar görüşü əvvəlcədən təyin edirlər, o elə bilirdi ki, qız mütləq gələcək, bu təbiət hadisəsidir, necə ki səhər açılır, yağış yağır, bu da elə olmalıdır, çünki qızı səhər kimi, yağış kimi sevir. Cavid onun pərt olmasını, peşman olmasını istəmirdi. Oğlan görüşə çağıra bilməzdi axı, qız gələrdimi heç? Nə olacaqsa, qoy olsun.

Bo düşüncələrindən məmnun-məmnun gülümsəyir, tez-tez bağın bitdiyi yerə baxırdı, kürən saçlı qız mələklərə xas incə dabanları üstündə süzərək o tərəfdən gəlmişdi bir dəfə, vaxt keçdikçə oğlanın üzündən təbəssüm yavaş-yavaş çəkilməyə başlayırdı, gözlərinə kədər çökürdü, elə istəyirdi ki, qız onu qəşəng kostyumda, əlvan qalstukda görsün. Günəş peysərini yandırırdı.Bo tərləmişdi, amma pencəyini çıxarmaq istəmirdi, qız gələndə onu yaraşıqlı görməli idi, amma qız görünmürdü. Ertəsi gün də gəlmədi,o biri gün də, tezliklə məlum oldu ki, kənddən gedib. Bo onu bir daha görmədi, lakin qarşılıqsız sevgi qəlbində yaşayırdı, canını yandırırdı. Bu sevgiylə o özünü əsl insan sanırdı,qüsursuz, sağlam, sevən bütün normal insanlar kimi kiçik yumruğu boyda kiçik ürəyi yaralanmışdı, amma sevgi bu ürəkdə yaşayırdı və onu yaşadırdı.

Nəvəsi bağda oturub təsadüfi səadətini gözləyirdi, möcüzə isə bir dəfə baş verir. Bonun gözlərindəki parıltı artıq yoxa çıxmışdı, heç nəyə sevinmirdi, əvvəlki vaxtlarda olduğu kimi, çirkin ağzı nadir hallarda bağlanırdı, ağzından daşan tüpürcək görənləri iyrəndirirdi. Belə bir vaxtda kənardan nəvəsinə göz qoyan Cavid qəfildən yaşlandığını hiss etdi, yaşadığı illər elə bil çiyinlərinə çökdü, bir saatın içində yaşı doxsanı keçmiş, əldən düşmüş qocaya çevrildi, sakitcə mızıldandı:

Yazıq balam, mənim gözəl körpəm...

Bo oturacaqda əyləşib başını aşağı sallamışdı, topal barmaqlarıyla pencəyinin ətəklərindən yapışmışdı, rəsmləri kimi qarmaqarışıq düşüncələrinə acı-acı gülümsəyirdi. O bilirdi ki, qız gələcək, gec, ya tez, amma gələcək, qış da elə gəlir, bahar da, sevgi də...

Çevirəni: Arifə ARİFQIZI

Qədiməli ƏHMƏD

YENƏ XATIRLAYACAĞAM...

Həyat işgəncədi unudulmuşlara.
Çəkirəm bu xoşbəxtliyi
Ayrılığın xarabalıqlarında.

Sənsiz keçirdiyim ömrün
xatirəsi qalacaq
uçuq divarlarda.

Və gecənin qaranlığı
oxuyacaq gözlərimdəki həsrəti.
Duracağam sükutumla üz-üzə,
Tənhalıq çimdikləyər yuxularımı.

Düşünəcəyəm,
bir qadın yoxluğudu
üzümdəki qırışlar,
saçımdakı bulantılar.
Hər payız gələndə
yenə xatırlayacağam səni...

BİR QARANLIQ GECƏDƏ

Bu qaranlıq gecədə
yuxu sərhədi hələ uzaqda...
Gözlərim susur
sükutun
soyuq ovuclarında.
Sıxıram ovuclarımı,
əllərim həsrət qucağı kimi...

Zamanın ağrıları
içimdə çuxur-çuxur.
Addımladıqca
yolum ayrılığa çıxır.

Susa-susa üşüyürəm
gecənin barmaqlığında,
dilim ayrılığa çıxır.

Sənə bir can borcluyam,
yaşayırsan ürəyimdə,
Bundan özgə heç nəyim yox,
çünki ölüm ayrılığa çıxır...

BİLMƏZ GECƏ

Və gecə rəngində
gələcək sükut.
Susaram
içimdəki ahlara,
çölümdəki günahlara...

Sonra yığaram gecəmə
sənlə itkin düşən
arzularımın ağrısını.

Pəncərəmin altında
əriyər qaranlıq.
İçimdəsə bitməz gecə,
uzanar sonsuzluq kimi.
Ayrılığın qara kölgəsi
qalar yaddaşımda
Son gecəmizin xatirəsi kimi.

ÖMRÜMÜZDƏN KEÇƏN YOLLAR

Bütün yollar ayrılır
sevdalı illərdən keçib getsə də.
Əslində, bir-birinə bənzəyir ayrılıqlar
uğursuz addımlardan başlasa da.
Əslində, bir-birindən başlanır hər şey.
Əslində, hər şeyin sonu ayrılıq,
əslində, hər dayanacağın sonu yoldu-
sonsuz, bitməz...
Nədən belə hisslərimə toxunur
sakit gecələrin yorucu anları?
Və yollar keçib gedir
gecələrdən, gündüzlərdən,
ömrümüzdən...
Mən hələ də sadəlövh uşaq kimi
inanıram gələcəyə.
Ömrün payız çağında
bu kirayə dünyada...

ŞƏKİL

Vağzallardı həsrətimi ovudan,
Qatarların ahəstə səsi
layla çalır yuxularıma.

Və susuram
bir yığın söz içində,
deyə bilmədiklərim
böyüyür misra-misra.

Qarşımda
maneken kimi
dayanıb sükut...

Burda üz-üzədi
həyat dilənənlərin məsum baxışlarıyla
özündən razıların saxta üzləri.

Məni dinləyən yox...
Baxıram bu üzlərə...
Görürəm o biri üzünü zamanın,
Bir cəllad əlinin şəkli görünür
zamanın möhüründə...





Filosof

(hekayə)

Qərib MEHDİ

Nədənsə yadıma Nazim Hikmətin "Kor padşah"ı düşdü.

Bir neçə dəqiqədən sonra imtahan başlanacaqdı. O imtahan ki, cəngavər Napoleon da ondan çəkinirdi. Ancaq fəlsəfədən - professor Həmdəm müəllimin tədris etdiyi qəliz fəndən imtahan verəcək tələbələrin sifətində həyəcan əlaməti görünmürdü. Daha bunu bilməyə nə vardı... Hərə öz dayağına söykənmişdi - pula, tanışlığa və dar dalana sıxışdırılmış biliyə.

İmtahana açılan dörd yoldan biri bağlıydı. Zəhmli zəng cürət edib Həmdəm müəllimin qapısından keçə bilməzdi. Çünki zəhmlilər bilirdilər ki, Həmdəm müəllim onlardan da zəhmli olan birisi ilə bağlıdı. O əzəmətli dağın özü bir yana, eləcə kölgəsi cıqqırını çıxardanı əzməyə bəs edərdi. Bir azdan imtahan prosesi start götürəcəkdi. Həmdəm müəllimin səsi Kantın "Şey sənin - Şey mənim" mübahisəsilə otağı başına götürəcəkdi. Tələbələr nəticədə görəcəkdilər ki, Kant havayı yerdən özünü yorurmuş. Sən demə, "Şey"in hamısı Həmdəm müəllimin imiş.

İçəri çalınan zəng kimini dərsə, kimini imtahana çağırdı. Həmdəm müəllimin işarəli sözü eşidildi:

- Fətulla müəllim, hazırsanmı?

- Həmişə olduğu kimi, - deyə assistent dərhal cavab verdi. O, xeyli əvvəldən imtahan biletlərini dəstələyib çantasına qoymuşdu. İndisə ehmalca professorun qoluna girəcək, xırda addımlarla dəhlizi keçib imtahan otağına gedəcəkdilər. Yerlərini rahatladıqdan sonra həmişə olanların təkrarı başlanacaqdı. Yəni fəlsəfə fənnindən dərs deyən filosof-alim Həmdəm müəllim Platonun, Aristotelin, Sokratın, Konfutsinin, Əl-Fərabinin, Hegelin, Feyerbaxın baxışları ilə tələbələrini sınağa çəkəcəkdi. Axırda Kantın "Şey sənin - Şey mənim" fəlsəfi mübahisəsinin üstündə dayanacaqdı. Mübahisə doğurmayan "Şey" isə sinif nümayəndəsinin vasitəçiliyi ilə əmin-arxayın professorun ağzı yumulmayan cibinə girəcəkdi.

Bu "Şey"dən yardımçı Fətulla müəllimə nə çatacaqdı? Daha bu məsələ aparıcı imtahançının daxili işi idi. Ümumi vəziyyətdən görünəcəkdi ki, Həmdəm müəllimin xüsusi yançısı - həm universitetdə, həm də iş yerindən kənarda - Fətulla müəllim rəhbərinin "ədalətli" bölgüsündən çox-çox razıdır.

Həmdəm müəllim nə gözünə qara çeşmək taxır, nə əlinə başıaşağı əyri əsa alırdı. Onlar nəsə deyə bilərdi. Bu "nəsə"nin qarşısını almaq vəzifəsini könüllü olaraq Fətulla müəllim öz üzərinə götürmüşdü. Buna görə də o, cansız əşyaları - qara çeşməyi də, başıaşağı əsanı da layiqincə əvəz edirdi.

Dəhliz boyu asta-asta irəliləyən filosof yançısından soruşdu:

- Hər şey qaydasındadır?

Fətulla müəllim gülümsünərək professorun sorğusuna qafiyəli cavab verdi:

- Həm qaydalıdır, həm faydalıdır!..

- Deyirəm, imtahandan sonra bir xamuşluğa çəkilək, Rüstəm bəy demişkən, bir balaca boğazımızı yaşlayaq.

Fətulla müəllim əsgər itaəti ilə cavab verdi:

- Məsləhət sizindir, professor.

***

Uzun illər - təlimata uyğun olmasa da - Həmdəm müəllim fəlsəfə kafedrasının müdiri işləmişdi. Aradabir dekan da olmuşdu. Dekanlıq səsli-küylü sahə olduğu üçün oradan tez uzaqlaşmışdı. İndi könüllü olaraq vəzifədən kənarda durur. Bir halda ki, rektordan tutmuş sıravi müdirə qədər onun nüfuz qılıncının altından keçir - yükə çevrilmiş vəzifə nəyinə gərəkdir. Yuxarıdakı O Adama bağlılıq, çoxlarının dediyi kimi, "Allahın bacısı oğlu olmaq" hər şeyə bəs edirdi. Belə ki, təqaüd təhlükəsinin ona dəxli yox idi. Belə ki, təltif, fəxri ad, mükafat "ağacları"nın ilk nübarını o dadmalıydı. Belə ki, bəhrəli vəzifələrə namizədlər, qeyri-rəsmi də olsa, ondan razılıq almasaydılar, arzusunda olduqları kresloları görməzdilər. Belə ki, imtahan sessiyası zamanı onun "Neqativ" markalı maşını çox vaxt yaraşıq üçün divarlardan asılan qadağa nişanlarını vecinə almazdı.

Həmdəm müəllim elmi əsərlər müəllifi kimi də tanınırdı. Fəlsəfənin müxtəlif sahələrinə dair çoxsaylı məqalələri, kitabları, dərslikləri nəşr olunub stolların üstünə düzülmüşdü. Oxuyana minnət... O, bəzən mətbuatda qoşa imza ilə də çıxış etməyi özünə sığışdırırdı. Daha doğrusu, qayğı, himayəçilik mənasında başqalarına nümunə göstərirdi. Belə hallarda ikinci imza mütləq yandaşı Fətulla müəllimə məxsus olardı. Həmdəm müəllim valideynlərinin ona hazır şəkildə verdikləri adından çox, özünün əziyyət çəkib qazandığı titullardan xoşlanardı. Xüsusilə "professor", "cənab filosof" müraciətlərindən daha çox həzz alırdı, illah da ki, "filosof" deyiləndə. Bu müraciətdən sonra bir parasının ona verdiyi üçüncü yerlə kifayətlənməz, dartınıb irəli keçər, Aristoteli və Əl-Fərabini özündən sonraya sıxışdırardı. Filosof əlçatmaz uğurlar qazanmasında bağlandığı, bütün mərhələlərdə müdafiə olunduğu o nazirin xidmətini bir an da olsun unutmazdı. Şükranlıq ifadəsi ilə dodaqları daim bir şairin bir misrasının zikrindən qalmazdı: "Sən varsan – mən varam, möhtəşəm dayım!"

Gec də olsa, gəlib çatdıq mətləb üstünə. Neçə vaxt idi ki, Həmdəm müəllim görmürdü. Yəni əməlli-başlı kor idi. Onun kor olduğunu özü də bilirdi, özgələri də. Ancaq nə özü-özünə "kor" deyirdi, nə özgələri bu adı ona deməyə cəsarət edirdi. Allah onu göz işığından məhrum etmişdi. Əlbəttə, dünyanın gözəlliyini görməmək ölümə bərabər bir hal idi. Malın-mülkün olsun - göz işığın olmasın, çəkiləsi dərd deyildi. Bu cəzanın səbəbini hərə ürəyində bir cür yozurdu. Kimisi fikirləşirdi ki, kişini ya incitdiklərinin, ya da yediyi haram tikələrin ahı tutub. Bir başqası düşünürdü ki, belə ədalətli qərarı ancaq Allah verə bilər. Üçüncüsü onlardan fərqli fikir söyləyirdi - əlbəttə, qəlbinin ən dərin guşəsində, eşidilməz yerində. O fikir faş oluna bilməzdi. Əlqərəz, bu haldan dürüst xəbər verən yox idi. Sadəcə, işarələrdən belə anlaşılırdı ki, bu məsələ bəndə işi deyil, Allahın qəzəbi ilə bağlıdır. Bəndəlik olsaydı, həkimlər yuvasını tərk etmiş işığı geri qaytara bilərdilər.

Elm də sirli bir aləmdir. Bunu Həmdəm müəllim öz fəaliyyəti ilə sübuta yetirirdi. Gözləri işıqdan qalsa da, o, ardıcıl yazıb-yaradır, heç olmasa, ayda bir-iki məqalə dərc etdirirdi. Filosof korlar üçün tərtib olunmuş məxsusi əlifbadan da istifadə etmirdi. Əgər etmiş olsaydı, sirr faş olar,

onun kor olduğu təsdiqlənərdi. Ona görə də Həmdəm müəllimin elmi-pedaqoji yaradıcılığı həm şübhə, həm təəccüb, həm də heyranlıq doğururdu. Maraqlılar üçün bu mövzu müzakirə obyektinə çevrilə bilməzdi. Axı onu nəinki uzaqgörən adam kimi, həm də görən adam kimi qəbul etməyə məcbur idilər. Yoxsa yuxarıdakı O Adam adamın atasına od vurardı.

Bu xorda işləri korlayan tələbə Bəhruzun xaric səslənən avazı idi. Deyirəm, hər məğlubedilməzin bir qənimi tapılır də... Yox, bunu mən demirəm. Bunu əksliklərin vəhdəti qanununu ortaya qoyan fəlsəfə elmi deyir.

Küləyə oxşayan dəyişiklik hardasa qanadlarını yığıb yatmışdı. Həyat ağacının yarpaqları tərpənməz dayanmışdı. Hökmə bağlı olan durğunluq qapını inkişafın üzünə bağlamışdı. Həmdəm müəllim qara eynəyini və başıaşağı əsasını əvəz edən Fətulla müəllimlə hər yerdə görünürdü. Filosofla görüşənlər ümumi hal-əhval tutsalar da, xəta mənbəyi olan göz işığından söhbət sala bilməzdilər. Bir də ki, narahatlıq üçün şərait yaranmırdı. Hər şey yüksək dəqiqliklə ölçülüb-biçilmişdi. Həmdəm müəllimin ustalığı heyrət doğururdu. Görən aktyorların səhnədə görməyən adamların obrazlarını yaratdıqlarını görmüşük. Həmdəm müəllimin taleyinə isə həyatda oynamaq düşmüşdü. O, kor ola-ola, kor olmayan adamın rolunu qüsursuz yaradırdı. Görəsən, bu qeyri-adi, qeyri-təbii hal nə qədər davam edəcəkdi? Bir əsimlik küləyə, heç olmasa, bir əsimlik mehə bərk ehtiyac duyulurdu.

Günlərin birində çox etibarlı görünən durğunluq divarı çat verdi. Bu çatdan bir əsimlik meh içəri doldu. O saat ağır hava bir az yüngülləşdi. Bu, dəyişiklik demək idi. Bu mehin adı son kurs tələbəsi Kəllə Bəhruz idi. (Aşırı biliyinə görə yoldaşları ona bu ləqəblə müraciət edirdilər). O, risk edib rektorun qəbuluna düşə bilmişdi. Bəhruz hamının gördüyünü, heç kimin demək istəmədiyini rektorun nəzərinə çatdırmaq niyyətində idi. Çox güman ki, rektor bu əcaib haldan xəbərsizdi. Əgər xəbərsizdirsə, kimsə ümumi işin xeyrinə rəhbəri xəbərdar etməli idi. Elə bu kimsənin də adı universitetin həqiqi əlaçı tələbəsi Kəllə Bəhruz idi.

Rektor onu gülər üzlə qarşıladı, oturmaq üçün yer göstərdi:

- Ayaq üstə durma, otur. Yəqin, bir dərdin var ki, yanıma gəlmisən. De, köməyimi əsirgəməyəcəyəm. Sən bizim ən yaxşı əlaçı-ictimaiyyətçi tələbəmizsən. Səni eşitmək və eşitdiyimi həyata keçirmək mənim üçün xoş olardı.

Bəhruz üzünə açılan qapıdan dərhal keçmədi. Dərindən köksünü ötürüb ağır-ağır dilləndi:

- Bəli, məni bura dərd gətirib. Deməyə bir az çətinlik çəkirəm. Daha doğrusu, ehtiyatlanıram, əks-zərbəsindən ehtiyatlanıram.

Rektoru maraq götürdü. Bayaqkı mülayim sifətinə ciddilik gəldi. Bir anlıq fikrə getdi: "Görəsən, məni hansı sürpriz gözləyir?"

- Çəkinmə, sərbəst surətdə fikrini söylə. Allaha şükür ki, universitetimizdə demokratik abhava hökm sürür. Hər cür fikir söyləməkdə azadsan, - deyə o, Bəhruzu ürəkləndirdi.

Bəhruz, nəticəsindən asılı olmayaraq fikrini rektorla paylaşmağı qət etdi. Ancaq məqsədə bir az gendən yaxınlaşdı:

- Məncə, insan üç halda göz işığından məhrum olur. Birincisi, arzulamadığı, özünün iştirak etmədiyi zərbəyə məruz qalanda. İkincisi, ağır günah altına girəndə. Belə halda haqsızlığa yol verənin gözünə ağ gəlir. Üçüncüsü, ustadına xəyanət edəndə. Ustadın qarğışı ilə nankor yetirməsinin gözünə qan damır. İndi mən bilmirəm, onu hansı qrupa daxil etmək olar?!

Rektorun bədəni üşürgələndi. Rəngi azacıq avazıdı. Tələbəsi dərdinin açımına çox arifcəsinə başlamışdı. O, dərhal hiss etdi ki, söhbət kimdən və nədən gedir. Ona görə də birbaşa "kimi?" sualını verə bilmədi. Bu sualın gözlənilməz cavabından ehtiyatlandı, hətta qorxdu: "Allah eləyəydi, onun adını çəkməyəydi. Belə olsa, məni çətin vəziyyətdə qoyacaq". Rektor qəsdən yayğın bir fikrə əl atdı:

- Səni yaxşı başa düşmədim, açıq danış görək, nə baş verib, – titrək səsi tələbəsini inandırmadı ki, rektor həqiqətən ondan açıq danışmasını istəyir.

Bəhruz fikrini dəqiqləşdirdi:

- Söhbət özünə "filosof" deyən Həmdəm müəllimdən gedir.

Nə pis oldu... Təəssüf ki, tələbə qorunan bostana daş atırdı. İndi bundan sonrası necə olacaqdı? Rəhbər mövzunu davam etdirsinmi? Açıq müzakirə onu uçuruma apara bilərdi. Yoxsa

tələbəsinə ağız-dil qadağası qoysun? Çox yaxşı olardı. Ancaq necə qoysun? Axı indicə universitetdə demokratik mühitin pərvərişindən danışırdı. Ax!.. Ax!.. Bütün bəlaların səbəbkarı başda oturan O Adam idi. Arxasında O Adam durmasaydı, lala lal, kora kor deməyə nə vardı ki...

Rektor qorxudan qaynaqlanan gərginliyi üstələmək üçün daxilini səfərbərliyə aldı:

- Həmdəm müəllim universitetimizin ən aparıcı, ən savadlı, ən hörmətli professorudur. Çoxları onu ideal seçir, ondan nümunə götürür, - rektor bu qədər ağ yalan danışdığı üçün özündən iyrəndi. Neyləsin, yazıq günə qalan bu sözləri deməyə məcburuydu. - De görüm, bizim fəxrimiz olan filosofla nə problemin var?

Rektor öz sualından özü diksindi. Necə oldu ki, bu sual onun ağzından çıxdı? Hamı işığa can atsa da, rektor işıqdan qaçırdı. Çünki işıq gözlə, göz də Həmdəm müəllimlə bağlanırdı. Kaş Bəhruzun fikri işıqdan kənar dolanaydı.

Kəllə Bəhruz:

- Siz bilməmiş deyilsiniz ki, "Şey sənin - şey mənim" deməkdən yorulmayan, axırda hər şeyi öz malı eləyən Həmdəm müəllim görmür.

"Zalım oğlu düz hədəfi vurdu. İndi necə edəsən, tələbənin ortaya qoyduğu bu labirintdən çıxasan?". Rektor tərəfləri narazı salmayacaq yollar barədə düşünməyə başladı. Son qərara hələ çox vardı. Ona görə də kəşfiyyata bağlanan söhbətini davam etdirməli idi, bu barədə ilk dəfə eşidirmiş kimi təəccübləndi:

- Necə yəni, görmür?

Tələbə girişdən sonra mətləbə keçdi:

- Sadəcə, görmür. Ancaq yardımçısı Fətulla müəllimin köməyi ilə özünü görən kimi aparır. Özü də bu rolu uğurla ifa edir.

Rektor mümkün qədər söhbətin "mülayim qurşağı"ndan uzaqlaşmaq istəmirdi:

- Axı onun şəxsi işində sağlamlığı haqqında tibbi arayış var.

Bəhruzun sinirləri yavaş-yavaş gərilirdi:

- Tələbənin müəllimi haqqında qəbahət söz söyləməsi xoşagələn hal deyil. Təəssüf ki, mən qəbahətə yol vermirəm. Nə qədər ağır olsa da, deməliyəm ki, Həmdəm müəllim kordur. Və bu kor da onlarla gənc mütəxəssisin gələcəyini kor edir. Qəribə burasıdır ki, heç kim onun qarşısına çıxıb "Dayan!" - deyə bilmir. Nədən çəkinirlər, nədən qorxurlar? Bax bunu başa düşmürəm.

Rektor məsələnin gündəmə çıxmasından, rəsmi hal almasından çəkinirdi. Bilirdi ki, geniş müzakirə açılsa, Elmi Şura fakt qarşısında qalsa, çomağın yoğun başı ona dəyəcəkdi. Gərək bunu Bəhruz başa düşəydi. Gözlənilən hal baş vermədiyi üçün rektor daxili əsəbi gərginlik keçirirdi: "Ay bala, sən görən çıxıb hər şeyi niyə qurdalayırsan? Həmdəm müəllim görmürsə, onun əvəzinə O Adam görür. Nə fərqi var. Hər deyilənin başına ip salsaq, dünyada ip qıtlığı yaranar. Hamı birtəhər, başağrısız dolanmaq istəyir. Bir tikəyə görə bir yekənin qulluğunda durmalı, sözünü eşitməliyik. Sən bunu niyə başa düşmürsən? Bu gedişlə gələcəyinə, inkişafına da əngəl törədərsən".

- Bəlkə, görür, ancaq seçmir, - deyə rektor Bəhruzu qılıqlamağa davam etdi. - Əsas keyfiyyətli dərs deməkdir, mühazirə oxumaqdır. Əgər o bunun öhdəsindən gəlirsə, xırda şeylərin üstündən keçmək də olar.

Bəhruz rəhbərinin qarşısında özünü ələ ala bilmədi, kinayəli şəkildə güldü:

- O dərs deyir, mühazirə oxuyur. Ancaq tələbəyə yox, daşa-divara!.. Nə vacibdir ki, o, belə halda auditoriyaya girsin. Çıxardın təqaüdə, qoy gedib dincəlsin. Kiminsə xatirinə gəncliyi məhv etmək olmaz axı...

Rektor yollar araya-araya fikirləşirdi: "Bu tərsi avandına çevirmək çətin olacaq. Bəlkə, hücum edib nəfəsini kəsim? Yox, yenə yasalamaq yaxşıdır. Qoy arxayınlaşsın ki, nəsə təsirli bir tədbir görəcəyəm".

- Sən deyəni birtəhər onun nəzərinə çatdırsaq, görmədiyini etiraf edəcəkmi?

Kəllə Bəhruz inamsız halda dilləndi:

- İnanmıram. Nazim Hikmətin Kor padşahı Həmdəm müəllimdən insaflıdır. Heç olmasa, o, görmədiyini, kor olduğunu etiraf edir. Görən ətrafı isə onu zorla inandırmağa çalışır ki, sən kor deyilsən, kor bizik. İnanmıram ki, "humanist" filosof, zalım padşahdan fərqli olaraq korluğunu boynuna alsın.

Rektor özünü tələbəsinə çıxış yolu axtaran rəhbər kimi göstərdi:

- Yaxşı, təklifin nədir?

Kəllə Bəhruz hiss etdi ki, son söz deməyin məqamı indi yetişdi:

- İki-üç nəfərlik komissiyanın şahidliyilə onun korluğunu sübuta yetirmək olar. Əgər həqiqətən istəsək...

Rektor təklif barədə dərhal münasibət bildirmədi. Bir az ləngidi. Deyəsən, O Adamla məsləhətləşirdi. Məsləhətləşmə seansı bitdikdən sonra özünə gəldi, üstəlik xeyli canlandı da:

- Təklifinlə razılaşıram. Elə mən özum də həmin komissiyada təmsil olunaram.

Bununla da söhbət bitdi. Söhbət bitdisə, deməli, işin icrası üçün növbəti mərhələ başladı.

***

Sinif otağının qapısı açıq qalmışdı. Tələbələr onu ehtiyatla örtməyi unutmuşdular. Həmdəm müəllim heç kimin olmadığı boş sinif otağında mühazirə oxuyurdu... Bir az bundan əvvəl Fətulla müəllim onu tribunaya çıxarmış, mühazirə mətnini səliqə ilə qarşısına qoymuş (guya ki, oxuyacaqmış), sonra otağı tərk etmişdi. Sakitliyin qorunması barədə uşaqlara təpinmək lazım gəlmirdi. Tələbələrin özləri bu sakitliyin, daha doğrusu, ölü sükutun təminatçısıydılar. Belə olmasaydı, ehmalca aradan çıxanda fərq bilinərdi.

Komissiya üzvləri (Bəhruzdan başqa) guya ki, mat qalmışdılar. Bu nə mənzərə idi ki, onlar üzləşmişdilər?! Filosof, tələbəsiz - boş otağa bəlağətlə mühazirə oxuyurdu. Komissiya üzvləri (Bəhruzdan başqa) təəccüb içində donub qalmışdılar. Bəlkə, bu üsul tədrisdə onların xəbəri olmayan yeni metodika idi? Hər halda ölü sükutun möcüzəsi onları sehrləmişdi. Bəhruz pıçıltı ilə həmkarlarını heyrət dünyasından ayıqlığa çağırdı:

- Bu, möcüzə deyil, gerçəklikdir. Bu hadisə ilk dəfə baş vermir. Bu halın təkrarlanması möcüzəni adiləşdirib. Çox vaxt uşaqlar sözləşib sinfi bir nəfər kimi tərk edirlər. Bundan xəbəri olmayan kor filosof boş otağa mühazirə oxuyur.

Üzvlərdən biri ehtiyatsızlıq edib Kəllə Bəhruzla həmrəylik etdi:

- Bu biabırçılığı başına buraxmaq olmaz!..

Növbəti addım necə atılmalıydı? Ən yaxşısı saxtakarı iş başında yaxalamaq deyildimi? Yox, komissiyanın sədri rektor kəsə yola üstünlük vermədi. Üzvlərə geri dönmək işarəsi verdi. Onlar səssizcə gəldikləri kimi, səssizcə də geri döndülər.

Rektor Həmdəm müəllimlə təklikdə söhbət etməli idi. Harada? Tərəddüd edirdi: "Kəskin surətdə sağa və ya sola burulmaq xəta törədər. O Adamla bağlı kor filosofu qəbuluma çağırım, yoxsa onun ayağına gedim? "Allahın bacısı uşaqları" ilə zarafat etmək olmaz. Nə sağ, nə sol - orta variant yaxşıdır".

- Həmdəm müəllim buralarda görünəndə deginən, vaxtı olanda zəhmət çəkib bir yanıma buyursun, - deyə rektor köməkçisinə göstəriş verdi.

Həmdəm müəllim rektorla görüşə qara eynəyini, başıaşağı əsasını əvəz edən Fətulla müəllimlə birlikdə gəldi. Rəhbər onun ayağına durub sol tərəfdən qarşısına çıxdı. Hərarətlə əl tutdu, ruhlandırıcı sözlərlə kefini soruşdu. Sonra kresloların içindən ən yumşağını seçib onun altına çəkdi:

- Hərdən bizi niyə narahat etmirsiniz, professor? - deyə rəhbər aşkarcasına işçisinə qılıqlandı. - Sizin kimi filosofu dinləyəndə adam zənginləşir.

Professor rektorun ona qarşı nümayiş etdirdiyi diqqətdən razı qaldı:

- Mənim heç kimə işim düşmür, müraciət edənlərə isə köməyimi əsirgəmirəm.

- Orası elədir, - deyə rektor tələsik cavab verdi. - Elə neçə dəfə mənim qolumdan tutub qaldırıbsınız, yıxılmağa qoymamısınız. Ömrümün axırına qədər itirmərəm.

- Qiymətləndirən adamdan mənim xoşum gəlir, - deyə Həmdəm müəllim rektora razılıq etdi. - Məni axtarmaqda xeyir ola, yoxsa kotanın yenə daşa ilişib?

- Yox, - deyə rektor əli yuxarıda - O Adamın ətəyində olan filosofu arxayın saldı. Sizlə bağlı bir balaca məsələ var. Nəzəri cəhətdən həll eləmişik. Dedik, yəni saymazlıq olmasın, özünüzü də xəbərdar edək.

- Nə məsələ? - deyə professor maraqla dilləndi.

- Təlimata görə, biz vaxtaşırı müəllimlərin dərsini dinləyib Elmi Şurada müzakirə edirik, - deyə rektor izahata keçdi. - Müzakirə iştirakçılarının gəldiyi qənaətə görə tədrisçinin pedaqoji qabiliyyətinə qiymət veririk. Belə qərara gəlmişik ki, Sizin də dərsinizi Elmi Şuranın yığıncağına çıxaraq.

- Nə deyirəm. Haçan dərsimə qulaq asmaq istəyirsiniz?

- Təsəvvür edin ki, Sizin dərsinizə gəlmişik, dinləmişik və xoş təəssüratla da ayrılmışıq. Qalır

onun müzakirəsi. Qalır onun təhlili. Onu da nə vaxtsa sizli-sizsiz müzakirə edəcəyik. Yəqin ki, heç Sizə zəhmət verməyəcəyik. Əsas odur ki, müsbət rəy protokolda əks olunsun. Sizə əziyyət verməkdə məqsədimiz odur ki, vəziyyətdən hali olasınız.

- Mən razı, - deyə Həmdəm müəllim rektorun lütfkarlığına qarşı təşəkkürünü bildirdi. - Ayrı bir ricanız varmı?

Filosof yola salınırdı. Bir qoluna Fətulla müəllim, o biri qoluna rektor girmişdi. Dünya işığından məhrum olmuş adam, dünya işığına qərq olmuş kimi gedirdi. Bir də ki, kimin papağı başına ağırlıq edir ki, bu görüşdə gözdən, işıqdan söhbət salaydı. Qapıdan çıxarkən rektor filosofün qulağına ərkyana bir pıçıltı buraxdı:

- Sizdən ancaq bir ricamız ola bilər. Hərdən hörmətli O Adama bəndəsindən də bir isti salam yetirin.

- Bu lap ağır iş oldu ki, - deyə Həmdəm müəllim zarafatyana şaqqıldadı. - Mənim gözüm üstə!

Aman, Allah! Az qalmışdı ki, qəza baş versin. Yaxşı ötüşdülər. Həmdəm müəllim birdən çaşıb "mənim bu kor gözüm üstə" də deyə bilərdi. Onda işlər necə olardı?!

* * *

Hər şuraqabağı Kəllə Bəhruza deyirdilər ki, filosofun məsələsi gündəliyə salınıb. Tələbə də gözünə yuxu vermədən yığıncaqda necə çıxış edəcəyini, nələri ön plana çəkəcəyini planlaşdırırdı. Ancaq yığıncaq günü məlum olurdu ki, professorla bağlı məsələ Elmi Şuranın gündəliyindən çıxarılıb. Əslində, burada təəccüblü bir şey yox idi. Məsələni gündəliyə salan da, çıxardan da eyni adam - rektor idi. O, idarəçiliyi zamanı illərin təcrübəsini toplamışdı. Hər təklifdən, təşəbbüsdən ötrü bütün təminatlarının qarantı olan vəzifə kreslosunu təhlükə qarşısında qoya bilməzdi. Asta gedən, usta gedən heç vaxt uduzmur.

Buraxılış imtahanlarına az qalmışdı. Rektor təxirəsalma hüququndan yetərincə istifadə edirdi ki, gözlənilən vaxt çatsın. Bəhruz dövlət imtahanlarını versin və diplomunu alıb getsin. Bununla da narahat məsələ rahatca öz həllini tapsın.

Nəzərdə tutulan plan tədricən və dəqiqliklə həyata keçirildi. Vaxt yetişdi, Kəllə Bəhruz sevincli-nisgilli duyğular altında doğma universitetilə vidalaşdı. Rektor başının əsas "ağrı dəsmalları"ndan birini açıb dərindən nəfəs aldı. Necə deyərlər: keçi öldü, qoturu kəsildi.

Bir ildən sonra rektor gözlənilmədən xarici şirkətlərin birində işləyən Kəllə Bəhruzdan həyəcan doğuran məktub aldı. O, əcnəbi ölkədə çalışsa da, Həmdəm müəllimlə bağlı məsələni unutmamışdı. Sən demə, məzun gözlənildiyindən də artıq inadkarıymış. O uzaqlıqda yerdən əlini uzadıb buraları "qarışdırırdı". Məktubun son abzası kədərləndirici reallıqla başlayıb, kinayə ilə bitirdi: "Bizim 25 nəfərlik qrup xarici şirkətin elan etdiyi müsabiqəyə qoşuldu. Təkcə mən qalib gəldim. Bu qələbə mənim üçün ağrıya çevrildi. Halbuki bu ağrını bütün parametrlərinə görə kor filosof çəkməliydi. Ən azı gəncliyi kor qoyduğu üçün. Aldığım məlumata görə, o, bu gün də eyni vəziyyətdə siniflərə girib daşa-divara "şey sənin - şey mənim" barədə mühazirələr oxuyur. Hörmətli rektor, özünüzdə güc-qüvvə tapıb gəncliyin gələcəyini şəxsi mənafelərdən qoruyun. Hər şeydən öndə vətənin taleyi dayanır. Sonda fikrimi yarıciddi-yarıironik tamamlayıram: Həmdəm müəllimə heykəl qoymaq olar, ancaq onu sinfə buraxmaq olmaz...".

* * *

Bayaq təxirəsalma, ləngimə xeyir edirdisə, indi sürətin üzünə gün doğmuşdu. Elmi Şuranın yığıncağı həftədə bir dəfə keçirilirdi. Bu həftənin hadisələri sanki işıq sürətilə cərəyan edirdi. İnadkar Bəhruz uzaqda da fikrindən əl çəkmirdi. Bu işi başına buraxmaq əks-nəticə verə bilərdi. Mütləq onun rəyi nəzərə alınmalıydı. Elə özü də körpü salmışdı. Düzdür, bu körpünü o, başqa məqsədlə salmışdı. Ancaq yuxu yozanındı. Rektor o körpüdən öz yozumu ilə keçəcəkdi. Və yuxarıdakı O Adam da bu qərardan razı qalacaqdı.

Həmin həftə Elmi Şuranın iclası bir dəfə çağırılmalı ikən, iki dəfə keçirildi. Birinci iclasda rektor Bəhruzun məktubu haqqında özü bildiyi kimi məlumat verdi:

- Məzunumuz Bəhruz ağsaqqal professorumuz, universitetin elmi sütunlarından biri, hamımızın hayına-harayına yetən Həmdəm müəllimin haqqında iki təkliflə çıxış edir. Biz hələlik onun birinci təklifini gündəliyə daxil etmişik. Bəhruz təklif edir ki, dəyərli filosofumuzun universitetdə heykəli yapılsın. İlk fikri özüm söyləyirəm. Məncə, elmi-pedaqoji göstəricilərinə, çoxsaylı əsərlərinə, nadir müəllimlik istedadına görə o, buna layiqdir. Görək Şura üzvləri bu barədə nə deyirlər. Əgər yekdillik olsa, elə bu gün məşhur heykəltaraş Qayalı ilə müqavilə bağlaya bilərik.

Rektorun rəyi hamının rəyi deməkdir. Çıxış edənlər yekdilliklə rəhbərin təklifini müdafiə etdilər. Onu da bildirdilər ki, Qayalının maddi umacaqlarını təmin etmək üçün əlimiz əsməməlidir. Müvafiq qərar qəbul olundu. Dərhal heykəltəraş Qayalının axtarışına start verildi.

* * *

Həftənin ikinci yığıncağı başlandı. Bu dəfə növbədənkənar Elmi Şuranın gündəliyində yenə Bəhruzun təkidli tələbi dayanmışdı - bu dəfə ikinci bəndi. O bəndi ki, orada təklif olunurdu: gəncliyimizi kor qoyduğuna görə kor filosofu sinfə buraxmaq olmaz.

O Adamdan yuxarıda duran Adam yaramaz əməllərinə görə O Adamı vəzifəsindən atdı və onun yerinə başqa bir O Adam təyin etdi. Şura üzvləri sürətli dəyişikliyin bir-birinə zidd olan dəyişikliyinə mat qalmışdılar. Dünən heykəlinin qoyulacağına sifariş verilən bir adamı bu gün sinfə buraxmamaq haqqında qərar qəbul etməliydilər. Rektor Şura üzvlərini asanlıqla ram eləmək üçün maraqlı bir haşiyəyə baş vurdu:

- Viktor Hüqonun "93-cü il" romanında ibrətamiz bir səhnə təsvir olunub. Hərb gəmisi fırtınaya məruz qalır. Fırtına gəmini o qədər atıb-tutur ki, nəticədə yerinə bərkidilmiş toplardan birinin zənciri qırılır. Zərblə ora-bura dəyən top gəmidə deşiklər açır. İçəri su dolmağa başlayır. Top tezliklə ram olunmasa, bütün heyət ölümlə üzləşəcək. Cəhdlər olsa da, heç kim təhlükəli topla bacarmır. Əlac yenə toplara nəzarət edənə qalır. Həm də, görünür, o, hardasa ehtiyatsızlığa yol veribmiş. İndi o, həm səhvini düzəltməli, həm də



heyəti ölümdən xilas etməlidir. Topla nəzarətçi arasında ölüm-dirim mübarizəsi başlanır. Nəhayət, nəzarətçi topu ram edib yerinə zəncirləyir. Bununla əlaqədar, gəmi kapitanı mərasim keçirir. Heyəti ölümdən xilas etdiyinə görə kapitan nəzarətçini ordenlə təltif edir və onu təntənəli surətdə nəzarətçinin boynundan asır. Hamı bu qəhrəmanlığı alqışlayır. Sonra kapitan, səhlənkarlığı ilə gəmi heyətini ölüm qarşısında qoyduğuna görə nəzarətçiyə ölüm hökmü oxuyur və hökm icra edilir. Oxşarlıq vaxtaşırı təkrar olunur. Bəhruz da uzaqgörənliklə bunu təklifinin ikinci bəndində göstərmişdir. Biz keçən yığıncağımızda Həmdəm müəllimi təltif etdik. İndisə gəncliyimizi kor qoyan bu kor filosofa auditoriyaya girməyi qadağan etməliyik.

Yenə rektorun mövqeyi yekdilliklə nəzərə alındı. Hər şey bitdi. Yox, yox, hələ bir ilişik qalmışdı. Kimsə zirək tərpənib yada saldı ki, təcili heykəltəraş Qayalı ilə əlaqə yaradılsın. Ona bildirilsin ki, tərəfin biri etiraz etdiyinə görə bağlanmış müqavilə hüquqi qüvvəsini itirmiş hesab olunur.

* * *

O Adam vəzifədən getmişdi. Yerinə başqa bir O Adam gəlmişdi. Həmişə işində ayıq olan rektor, köməkçisini çağırıb gizli tapşırıq verdi:

- Ehtiyatla kəşfiyyat apar, gör yeni O Adamın bizdə yaxını işləyirmi? Mən bunu mütləq bilməliyəm, hətta süpürgəçi olsa belə...

- Baş üstə.

...Hadisələr də, insanlar da gecə ilə gündüz kimi bir-birini əvəz edir.

Yuri ŞERBAKOV

(Həştərxan, Rusiya)

Yuri Nikolayeviç Şerbakov 1956-cı ildə doğulub. Publisistika, nəsr, poeziya, tərcümə sahəsində çalışıb, bir sıra kitabların, topluların müəllifidir. "Dostluq" ordenilə, A.Delviq adına mükafatla təltif edilib.

Uzun illərdir, Rusiya Yazıçılar Birliyinin Həştərxan şöbəsinə rəhbərlik edir.

Türkdilli poeziya örnəklərindən tərcümələr üzrə Beynəlxalq müsabiqələrin laureatıdır. Səməd Vurğunun, digər ustad şairlərimizin əsərlərini rus dilinə çevirib.

***

Yenə də özümlə üz-üzəyəm mən,
Yenə də dörd divar arasındayam.
Özümə hakimlik, vəkillik edən
Narahat könlümün qovğasındayam.

Qəlbimin içini bir qorxu üzür,
Dünyanın hər işi fani görünür.
Hər şey gəldi-gedər, ötəri, fani,
Yəni etibarsız, ani görünür.

Sən də əl üzərsən axır-axırda,
Bir cavab vermədən, söz söyləmədən,
Hardan, görən, qışın oğlan çağında
Əsdi aramızı vuran bu külək...

***

Dəniz üzərində ay çığır salır,
Uzaq sahillərə üz qoyub gedir.
Çexov küçəsində bir qadın qalır,
Unudulmaz eşqimin tərənəsidir.

Qırmızı işartı sahilə gedən
Balıqçı gəmisi nişanəsidir.
Ya da dodaqlarda yanan, közərən,
Qadın siqarının işarəsidir.

***

Çayın qırağında xəzəlləşəndə
Yellər süpürəcək sarı izləri.
"Ayrılıq" və "vüsal"ın arasında
Qəribə təmas var əzəldən bəri.

Nəmişli havada uçan həmayil
Sənin gözlərinə qol-qanad verər...
"Sevgindən ölənlər aşiqlər deyil,
Sevgisiz yaşayan insanlar ölər".

Kimin qismətinə nələr düşəcək?
Payız sualını cavabsız qoyar.
Dan yeri soyuqdan üşüyərək,
Açılan sabahlar bəxtimi sayar.

Çevirəni:
S.MƏMMƏDZADƏ

Ölmüş dünya haqqında nikbin elegiyalar

Gülşən Əliyeva-KƏNGƏRLİ
filologiya üzrə elmlər doktoru, professor

Ədəbiyyatın bədii-fəlsəfi gücü onun "balacaboy" janrında – lirik poeziyadadır. Təsadüfi deyil ki, min ildən artıq möhtəşəm bir dövrdə Azərbaycan ədəbiyyatı həm Şərq, həm də dünya ədəbi-tarixi prosesində əsasən şeirlə təmsil olunub. Yazılı klassik ədəbiyyatımızda qəzəl, qəsidə, rübai, şifahi poeziyamızda, o cümlədən zəngin aşıq şeirimizdə bayatı, gəraylı, təcnis... məşhur olub. Demək istəyirəm ki, poeziya, xüsusən də lirik şeir min illərdir ki, ruhumuzun tərcümanı, qəlbimizin söz aynası olaraq yazılmaqda, oxunmaqda və sevilməkdədir.

"Şeir haqqında yazmaq, şeir yazmaqdan çətindir" – deyirdi böyük nəzəriyyəçi, şərhçilik məktəbinin banisi Xətib Təbrizi (XI). Əlbəttə, şeir yazmaq da asan bir iş deyil. "Söz - Yaradanın mədhi-sənası, nəğməsidir" deyirdi dahi SÖZ ustası Məhəmməd Füzuli! Ona görə "şeir fəziləti də ayrı bir elm" idi.

Beləliklə, şeir insanlığa rəva görülmüş Allah əmanətidir, ancaq ilahi vergisi olan istedad sayəsində şairin qəlb aləmində yuva bağlayır, sözdən libas geyinib "köksün dar qəfəsindən ədəbiyyatın təmiz havasına çıxır." Bu sözlərin müəllifi məşhur tənqidçi V. Belinski, bəlkə də, elə buna görə deyirdi: "Şair özü də yüksək və müqəddəs bir sözdür. Bu sözdə ölməyən əbədi bir şöhrət vardır."

Çağdaş Azərbaycan ədəbiyyatında şair sözünün müqəddəsliyini qoruyan əbədi şöhrət sahiblərindən biri Ramiz Rövşəndir. Onun həm qalın, həm də qalan "Nəfəs" kitabı çağdaş poeziyamızın ilahi nurundan süzülüb gələn ətirli nəfəsdir:

Mənim bu dünyayla bir alverim var -
Aldığım, verdiyim nəfəsdi, nəfəs.

Ramiz Rövşən də bizim hamımız kimi "anaların aldadıb bu dünyaya atdığı" müasirimizdir. Fəqət hamımızdan fərqli olaraq onun nəfəsi genişdir, ən dərin və ən güclü vulkan kimidir. Poeziya vulkanıdır Ramiz Rövşən. Çağdaş poeziyamız onun poetik nəfəsi ilə qızınır, nəfəs alır. Onun bir neçə şeiri bizə bu poetik düsturu açmağa imkan verir, nəfəs almadan "Nəfəs"də oxuyuruq:

İnsan öz istəyi ilə şair olmur, insan şair doğulur. Şairlik peşə, sənət deyil, şairlik taledir. Füzuli, Puşkin, Vurğun, Berm, Bayron... şair doğulub. Şairin iki böyük enerji mənbəyi var: istedad və şəxsiyyət! Bu ikisinin tale evindəki iz-

divacdan dünyanın ən qiymətli gövhəri – SÖZ dünyaya gəlir. Ananın öz körpəsinə süd verməsi kimi sözə "ehya vermək" də şairin müqəddəs borcudur. R. Rövşən sözə ehya verən müasir dünya şairidir:

Yıxılıram, yıxılıram,
Özümdən yıxılıram.
Qəlbimdəki səbrdən,
Dözümdən yıxılıram.
Sığınmağa bir bucaq yox,
Yıxılmağa qucaq yox.
Gözümdən yıxılıram, Allah,
Gözüm yaşından yıxılıram,
Sözün başından yıxılıram.

Ruhən ona doğma olan Rayner Rilkeyə ithaf olunan "Yıxılıram" şeiri R. Rövşənin öz daxili portretini əks etdirir: "Özündən yıxılan", "Sözün başından yıxılan" şair. Dahi Füzulinin varisi məhz belə yazmalı idi. Poeziya, xüsusən, bunun ən zərif və ən dərin forması olan lirika şairin şıltaq qız kimi çətin ələ gələn obraza doğru ehtiraslı canatmasıdır. R. Rövşənin (eləcə də onun müasiri "Alnında ay doğan" Ç.Əlioğlunun!) ilk belə uğurlu və poetik obrazı Ay işığıdır. Əli Kərimin obrazı isti günəş, R. Rövşənin obrazı soyuq (fəqət buz kimi saf!) Ay işığıdır:

Ay işığı düşdü göydən,
Canımdan – qanımdan keçdi.
Gözümün içindən keçdi,
Özümün içindən keçdi.
Keçdi,dabanımdan keçdi,
Az qaldı ki,
İki yerə bölə məni,
Başımdan göyə mıxladı,
Dabanımdan yerə məni.
Ha istədim…
Addım ata bilmədim…
Aman, atam, o nə daşdı?!
O daş atan hara qaçdı?
İtlər canıma daraşdı,
Burax gedim, Ay işığı!

Ramiz Rövşənin lirik qəhrəmanı Ay işığının sevgisinə əsir düşmüş "evin mağmun uşağı" – xalqın böyük şairidir.

R. Rövşən Azərbaycan fəlsəfəsi – intellektual poeziya təmayülünün istedadlı və şəxsiyyətli nümayəndəsidir. XX əsrdə Xalq şairi Rəsul Rzanın başçılıq etdiyi bu unikal təmayülə B. Vahabzadə, M. Araz, F. Qoca, Ə. Salahzadə… daxildir. R. Rövşən bu təmayülün XX əsrdən – XXI əsrə, II minillikdən III minilliyə keçidinin banisi görünür. "Nəfəs" (2006) bu ədəbi-tarixi keçidin etibarlı körpüsü XXI əsrin və III minilliyin poetik ensiklopediyasıdır. Bu fikirimə dayaq üçün dillər əzbəri – ruhlar sərkəri olan və bir oxucu kimi yaddaşımda əbədiləşən bir neçə şeirin adını çəkmək istəyirəm: "Qədrimi bilmədi bu adam mənim", "Göy üzü daş saxlamaz", "İlan balası", "Çiçəklər doğulur bu yaz gecəsi", "Ayrılıq", "Qara paltarlı qadın", "Nəfəs", "Lal" və "Qapı" silsiləsi… Bəlkə, daha bir neçə şeiri də yada salmaq olardı…

Bilmirəm, hayandan tapdı ömrümü,
Bir dəli at kimi çapdı ömrümü,
Dağlara, daşlara çırpdı ömrümü,
Qədrimi bilmədi bu adam mənim,-
İlahi, al məni bunun əlindən!
Al məni, ver məni, özgələrə ver,
Sınıq aynalara, gözgülərə ver,
Bölünüm, yüz tikə, min tikə olum -
Bu adam üzümə baxa bilməsin.
Məni aynaların qırıqlarından
Toplaya bilməsin, yığa bilməsin.

Ayna qırıqlarından boylanan şair obrazı! – maraqlı deyilmi? Heç vaxt birləşməyəcək çiliklənmiş güzgüdə əbədiyyətə qovuşmaq – bir də adama – bu dünyaya görünməmək arzusu! – bizcə, bu lirik qəhrəmanın ən düzümlü və ən dözümlü obrazıdır.

Göy üzü müqəddəsdir. Çünki bəşəri təfəkkürə görə göy (7-ci göy) gözəgörünməz Allahın məkanıdır. Göy üzünə daş atmazlar, salavat çevirərlər! – bizcə, şairin estetik məramı budur:

Durub göy üzünə daş atan oğlan,
Göy üzü daş saxlamaz.
Baxırsan, göy üzü gözündən yekə,-
Durub göy üzünə daş atan oğlan.
Gözlərin böyüyər sən böyüdükcə
Gözündə yaş böyüyər.

Əllərin böyüyər sən böyüdükcə,
Göy üzünə atdığın daş böyüyər.
Bir gün bu dünyada qəbrin qazılsa.
Bəlkə də, baş daşın göydən düşəcək.

Daş atanın başına düşüb, başdaşına çevrilən daş! – bir qədər R. Rövşən sələfi M.Ə. Sabirin "daş qəlbli insanlar"ını xatırlatsa da, bu poetik obraz orijinal tapıntıdır. Dünya şair "mən"indən keçib, bütün gözəllikləri, eybəcərlikləri ilə şeirə çevrilir. Dünyanı özündən keçirib büllur kimi saf sözə çevirmək üçün şair daha hansı obrazlara çevrilmir?! Budur ən gözlənilməz obraz: ilan balası:

Ağlama, ağlama, ilan balası,
Baxtını qarğıma, ilan balası!
Bu da bir ömürdü, dözəsən gərək,
Beləymiş taleyin əmri, buyruğu;

Döşünün altında sevən bir ürək,
Dişinin altında zəhər tuluğu.
Tək bircə yol qalar sənə dünyada:
Başından quyruğunacan,
Zəhərli dişindən quyruğunacan.

Tək bircə yol qalar, - o yol özünsən,
Özün öz yolunsan, ilan balası.
Yüz cür sifətiylə, yüz cür üzüylə
Dünya səndən keçib durulur, bəlkə.

Özü öz yolu olan, yüz-yüz sifətli dünyanı özündən keçirib duruldan şairin öz obrazıdır. R. Rövşən şeirinin fəlsəfi təfəkkürlü lirik qəhrəmanı – dünyaya fəzadan baxan insan!

Şairin məşhur "Göy üzü daş saxlamaz" kitabına tənqidçi Kamil Vəliyevin yazdığı "Özün öz yolunsan" adlı yazıda isə Ramiz Rövşənin və ümumiyyətlə, 70-ci illər poeziyasının mühüm bir cəhəti lakonik şəkildə açıqlanıb.

"Bu şeirləri fantastik hekayə kimi də oxuya bilərsən, yuxusunu danışmağa gücü çatmayan adamın əzabı kimi də".

Doğrudan da, R.Rövşənin şeirlərini oxuduqda onun müəllifinin keçirdiyi mifik əzabı duymamaq olmur və yeri gəlmişkən, ötəri də olsa, qeyd edək ki, bu mifik əzabın mənşəyi klassik Azərbaycan poeziyası, Füzuli kədəri, ümumbəşəri kədərlə bağlı olduğu dərəcədə müasir dünya ədəbiyyatı, bu ədəbiyyatda gedən proseslər, haqq-ədalət axtarışlarında əldən düşüb ümidsizləşmiş, dünyanın sərvətlə idarə olunan şər qüvvələri tərəfindən tapdanıb əzilmiş, təhqir edilmiş və alçaldılmış "sadə, səmimi" adamlarını mücərrəd şəkildə əks etdirən Kafka, Kamyu, Markes və bunlardan da öncə Dostoyevski yaradıcılığı ilə bağlıdır.

O öz köklərinə, öz ədəbi zəmininə, öz folkloruna qırılmaz tellərlə bağlı olan bir sənətkardır. Bu baxımdan onu və ümumiyyətlə, onun poetik nəslini "dəlidən doğru xəbər" Azərbaycan atalar sözünün varisi, yetişdirməsi hesab etmək olar. Və bu cəhətinə görədir ki, bəzən şairin lirik qəhrəmanının düşdüyü real vəziyyəti ətrafdakılar, "övladı olduğu dövrün" adamları anlamırlar, yaxud anlamaq istəmirlər, yaxud anlamağa qorxurlar. Anlamadıqlarına, anlaya bilmədiklərinə, anlamaq istəmədiklərinə, anlamağa qorxduqlarına görə də özlərindən hesab etmirlər. "Kim bizim kimi düşünmürsə, bizim kimi hərəkət etmirsə, yeganə düzgün olan bizim yolumuzla getmirsə, demək, o dəlidir" – Sovet dövrünün, sosialist gerçəkliyinin bu məşhur postulatının əzici, üzücü təsirini Ramiz Rövşən də öz üzərində duyur, bəlkə, yuxarıda qeyd etdiyimiz əzabı da elə bu babətdən çəkir:

Dedilər dəlidir, nədi,
Hərə bir ad verdi mənə.
Kimi baxıb kül elədi,
Kimi baxıb güldü mənə.

Lakin Ramiz Rövşənin ümumi poetik yaradıcılığında indiyə qədər üzərində durduğumuz cəhət yalnız bir meyil, bir tendensiya təşkil edir, başqa sözlə, yaradıcılığın aparıcı xətlərindən, istiqamətlərindən yalnız biridir.

Ədəbi nəslinin bütün nümayəndələri kimi, Ramiz Rövşənin də poetik palitrası rəngarəng, çoxcəhətlidir. Bu isə özlüyündə oxucunu yormamağa, onu intellektual simvol və ideyalarla yükləməməyə, bezikdirməməyə xidmət edir. Bu cəhətdən R.Rövşən obraz və metafora tapmaq, özü də gözlənilməz, poeziya həvəskarında sevinc və razılıq hissi oyatmağa nail olan obrazlar tapmağın ustasıdır.

Bu cür metafora və obrazlar şairin bir çox şeirlərində parlaq qiymətli daş kimi özünü büruzə verir və bu barədə K.Vəliyevin sözlərini sərrast və uğurlu hesab etmək olar:

"Ramizin metaforası şeir boyuncadır, ilhamının canında, ruhunda, mayasındadır; hər şeiri bütövlükdə metaforik obraza çevirəcək dərəcədədir... bu obrazlarda məntiqlə hiss bir-birini üzvi şəkildə tamamlamaqdadır".

İnsan həyatının müdriklik çağı kimi səciyyələndirilən qocalıq haqqında yazılmış şeiri bu cəhətdən xarakterik örnək kimi təqdim etmək olar:

İlahi, qocalıq buymuş, deməli,
Dostlardan səssizcə qırılır adam.
Ömür bir bulanıq suymuş, deməli,
Ömür azaldıqca durulur adam.

Bu şeirdə Füzuli poeziyasının hər beytinə, hər misrasına xas olan çoxmənalılığı, həyati reallıqla dəqiq və qırılmaz surətdə bağlılığı sezməmək olmur.

R.Rövşən poeziyasının başqa bir tərəfini - yaşadığı dövrün ağrılı və aktual humanitar-siyasi problemlərinə reaksiyanı, onu "öz dövrünün övladı" kimi daha çox xarakterizə edən bu tendensiyanı da qeyd etsək, şairin poetik-fikri yaradıcılığının az-çox tamam mənzərəsini almış olarıq. R.Rövşənin siyasi lirikası öz həcminə və sanbalına görə onun yaradıcılığında önəmli yer tutur. İkinci Dünya müharibəsi mövzusunda yazılmış, Xirosimaya, Qarsia Lorkaya və b. həsr edilmiş şeirlərində şair öz dövrünün siyasi lirikləri kimi ümumilikdə insan ağrısının, insan kədərinin mənzərəsini verməyə nail olmuşdur.

R.Rövşən ideya və obrazlarında olduğu kimi, şeirin zahiri formal cəhətlərində də orijinallığa meyil edən sənətkardır. Bu cəhətdən də o, folklora müraciəti ilə seçilir, dastan poetikasından, nəsrlə nəzmin növbələşməsindən istifadə edir.

70-ci illərin bir protest, etiraz kimi doğurduğu Ramiz Rövşən fenomeni 80-ci illərin sonunda ayıq-sayıq ideologiya tərəfindən bir növ neytrallaşdırıldı. Bütün qadağan olunmuş mövzuların qadağalarına qadağa qoyulduğu kimi, indiki dövrdə də etiraz istiqamətli sənətkarlar sanki öz stixiyalarından bir növ kənara düşmüşlər. 70-ci illər poetik nəslinin get-gedə tarixə çevrilməsini, bəlkə də, bunda axtarmaq lazımdır.

R.Rövşən sadəcə bir etirazçı deyil. O, tarixin fəlsəfəsini şeir dilinə çevirir. Onun şeirləri zamanı un kimi üyüdən dəyirmana bənzəyir. Zaman şairin istedadına bu tərəfdən daxil olur, şeirə çevriləndə onun ancaq qırıq-sökük tikə-parçası qalır.

Qara paltarlı qadın kabus kimi, ölüm mələyi kimi H. Cavidin dramaturgiyasında var idi. XX əsr rus poeziyasına onu "gümüş dövr"ün nəhəngi A. Blok simvolizmin qəhrəmanı kimi gətirdi. Və R. Rövşənin də ən yaxşı şeirlərindən biri məhz o qara paltarlı qadının sayəsində yarandı:

Kişilər bir olmur, atam balası.
Qorxağı var, igidi var,
Amma hər kişinin öləndən sonra
Qəbri üstdə ağlamağa
Bir qara paltarlı gözəl bir qadına ümidi var.
Sən öləndə kim olacaq gözlərini bağlayan?
Qardaşmı olacaq, yadmı olacaq?
Bu dünyada, bəlkə, sənə ən çox ağlayan,
Ən çox ağlatdığın qadın olacaq?!

İllər boyu ağlatdığım bu qadın,
Görən, necə saxlayıbdır bu qədər göz yaşını?!

Bu qəbir də min qəbirdən biridir.
Baş daşımı bəsdir basdın bağrına,
Bütün mənə ağlayanlar kiridi,
Sən də kiri, qəbrim damır, ağlama...

Belə özünüifadə misilsizdir, poetik faktlar A. Blokda olduğu kimi, təkcə fəlsəfi-simvolik yox, həm də sufistikdir: qara paltarlı gözəl qadına!) ümid ən çox ağlayan, ən çox ağlatdıran qadın; qara paltarlı gözəlin bağrına basdığı (qara!) başdaşı; qəbrə daman göz yaşı! Bu poetik düsturların yaratdığı obraz işıqlı ümidə bükülmüş tragik kədərin xoşbəxt sifətidir. Lirika romantikasız ola bilməz. Romantika lirik poeziyamızın ətri, bahar nəfəsidir. Romantika şeirdə şair ehtiraslarının coşqun ilhamı, pafosudur. Elə Ramiz Rövşənin fəlsəfi-romantik "Nəfəs" şeirində olduğu kimi:

Mənim bu dünyayla bir alverim var:

aldığım-verdiyim nəfəsdi, nəfəs.
Daha özgə bazar açan deyiləm,
ölüncə bu alver mənə bəsdi, bəs.

Aldım nəfəsimi quş dimdiyindən,
ocaq tüstüsündən, çiçək iyindən.
Üzümə çırpılan yağışa-qara,
küləklərə verdim öz nəfəsimi.
Nəfəsim toxundu gül dodaqlara,
aldı neçə-neçə qız nəfəsimi.

Bu romantik-fəlsəfi şeir sərt və amansız bir israrla bitir: "Son şair boğulub öləndə, - göydən// Ölü Allah düşəcək". R. Rövşən Füzuli poetik ənənələrinə sadiq SÖZ-ü bağrı çatlayana qədər fikirlə yükləyən, söz yuvasında ətirli güllər bitirən lirik, fəlsəfi-romantik şairdir.

Bu görüş sonuncu görüşdü daha,
"Bu gün ayrılırıq" deyib gəlmişdin.
Bəs niyə mənimlə son ayrılığa
Ən gözəl donunu geyib gəlmişdin?
Bəs niyə o cürə gözəldin onda?
İndi bunu necə yozum, bilmirəm.
Bəlkə də, son dəfə mənim yadımda
Gözəl qalmaq idi arzun, bilmirəm.
Bir sevgi yarımçıq qırıldı o gün,
Yağış da kəsildi bulud da getdi
Bir qızla bir kişi ayrıldı o gün,
Hərəsi bir yana üz tutub getdi.

O qızdan gözəl qız tapılmaz daha,
Daha o kişidən igidi yoxdur.
Amma bu dünyada xoşbəxt olmağa
Daha heç birinin ümidi yoxdur.

R.Rövşənin bu misraları bizi ülvi bir sevginin qəm çağına aparır. Sevib- sevilməyin mümkünsüzlüyünü bu qədər aydın dərk etmək faciədir. İnsan qəlbini köksündən necə çıxardıb ata bilər?! Deyirlər ki, insan ölən anda gözəlləşir. Şairin sevgilisi də belədir. Əbədi ayrılıq anında gözəlliyin zəfər tacı ilə canlanır qarşımızda. Və bu gözəllik ayrılığın böyüklüyünü son həddə qədər artırır. Az qala soruşmaq istəyirsən: Belə bir gözəldən ayrılmaq olarmı? Bu ayrılığa dözmək olarmı? Elə sevginin əzəməti də, poeziyanın sehri də bu əbədi sualların heç vaxt tapılmayacaq cavabındadır...

...Dərsəm güllərini bu gələn yazın,
Sallanıb yellənsəm budaqlarından,
Eşitsəm adımı sevən bir qızın
Hələ öpülməmiş dodaqlarından, -
bu yaz gecəsində ölməyə nə var ?!

Həyata münasibətin bədii dəqiqliyinə, SÖZ-ə yanma həssaslığına, gözlənilməz iradə tərzinə, şeirin və şəxsiyyətin ayrılığına görə üç şairi XX əsr lirik şeirinin üç novator mərhələsi hesab etmək olar: Mikayıl Müşfiqi, Əli Kərimi və Ramiz Rövşəni!

Ramiz Rövşən poeziyası adi poeziya deyil, heç adiliyin poeziyası da deyil. Bu səssiz-küysüz, fəqət qəzəbli və inadkar bir fəryaddır. Onun şeirində ağaclar saçlarını yolur, daşlar hıçqırıb ağlayır, çap yaddaşı daş yaddaşından süzülüb burulur, saflaşır. Onun şeirlərində bir bütövlük var, bu şeirlər normal doğulmuş körpə kimi bütöv, əlli-ayaqlıdır. Onlardan hansısa hissəni ayırıb misal gətirmək olmur. Bu şeirlər elə məntiqli poetik bir sistemdir ki, burada forma özü məzmun kimi çıxış edir.

Ramiz Rövşən şeirini ölmüş allahlar və allahın sözü ilə bir yerdə ölmüş dünya haqqında nikbin elegiyalar adlandırmaq olar.

Vüsalə SÜLEYMAN

AŞİQƏM ÖLÜMƏ...

Bir gün yumub gözlərimi,
Aldadacam ölümü də.
Özümü sözümdən asıb,
Çəkəcəm bu zülümü də.

Sığa bilmirəm, incimə
Nə heçimə, nə köçümə.
Od vuracam öz içimə,
İsidəcəm çölümü də.

Ömür film- dərdli, sərli,
Yaşamaq da olmur fərli.
Qaçıracam ən dəyərli,
Ən maraqlı bölümü də.

Düşüb "ölüm"ün izinə,
Aşiq edəcəm özümə.
Son dəfə baxıb gözünə,
Bağlayacam dilimi də.

Ömür adlı yuxusundan,
Həsrət adlı qoxusundan,
Bu dünyanın yaxasından
Çəkəcəyəm əlimi də...

GEDİRƏM

Bir də oxuyarmı dodaqlar məni,
Sonuncu nəğmətək bitib gedirəm.
Qoy mənim dalımca ağlamasınlar,
Yağışda, dumanda itib gedirəm.

Açılmaz dərdimin səhəri daha,
Azalmaz sinəmin qəhəri daha,
Ən qatı, ən acı zəhəri daha
Yağ kimi, bal kimi udub gedirəm.

Dönüb duyğu dolu ürək olmuşam,
Çətində hamıya gərək olmuşam,
Yaman uşaqlaşıb kövrək olmuşam,
Özüm öz əlimdən tutub gedirəm.

Bu qədər iztirab nədi, Vüsalə?..
Bənzəyir qanamış könlünə lalə.
Solğun ay kimiyəm üzümdə halə,
Sübhü gözləməmiş batıb gedirəm.

GƏL...

Vaxt yetişib, yollarımız ayrılır,
Görüşməyə olmayacaq güman, gəl.
Məhəbbətdən gözlərinlə əl açıb,
Dilənçitək məndən sevgi uman, gəl.

Bu yollarda boran olar, qar olar,
Hicran açar intizarın, bar olar.
Mən ölərsəm, dünya sənə dar olar,
Əzraildən alsam bir az aman, gəl.

Bənövşəni koldan küsən gördünmü?
Qar altından baxan süsən gördünmü?
Mənim kimi səni süzən gördünmü?
Olmayacaq bir də belə zaman, gəl..

Biri gələr, biri gedər, həyatdı,
Gileylənmə bu nə yazı, nə baxtdı.
Gözləyirəm yollarını nə vaxtdı,
Xəbər kimi ürəyimə daman, gəl.

RAHAT YAT...

Gecə keçib yarıdan,
Pozur sükutu saat.
Mən burda yuxusuzam,
Nə vecinə, rahat yat...

Rəsmin düşmür gözümdən,
İncimə hər sözümdən.
Zəhləm gedir özümdən,
Nə vecinə, rahat yat...

Göz yaşım ulduz-ulduz,
Otaq soyuq, ürək buz.
Yaramın üstündə duz,
Nə vecinə, rahat yat...

Gəl gör, ürəyi çatam,
Dərdin əlində matam.
Mən burda narahatam,
Nə vecinə, rahat yat...

Tale

(hekayə)

Fərhad RAMİZOĞLU

İsti yay günlərindən biri idi. Universitet tələbələri semestr imtahanlarını verib yay tətilinə getməyə hazırlaşırdılar. Sonuncu kurs tələbələri imtahanları başa çatdırmışdılar. Hərə gələcək taleyini fikirləşir, müxtəlif planlar qurur, beynində dağı arana, aranı dağa daşıyırdı. Onların arasında zəmanənin gərdişindən baş çıxara bilənlər də az deyildi: bəziləri müxtəlif vasitələrlə paytaxtda işlərini sahmanlamışdı. Gələcək həyatlarını əvvəlcədən düzüb-qoşa bilənlər harada işləyəcəklərini hətta yaxın dostlarından belə gizlədirdilər. Nə bilmək olar? Bir də gördün, ən yaxın dost hesab etdiyin insan bu ədalətsizliyə dözməyib kiməsə şikayət elədi... İşi gərək ehtiyatlı tutasan.

Rauf da haqqında söhbət açmaq istədiyim tələbələrdən biridi. Beş il təhsil aldığı ali məktəbi yüksək qiymətlərlə başa vurmuşdu. Əslən Bakıdandı. Buna baxmayaraq, yeganə məzun idi ki, texniki fakültənin dekanlığına ərizə ilə müraciət edib ölkənin ən ucqar rayonlarından birinə göndərilməsini xahiş etmişdi. Oxucu elə başa düşməsin ki, Raufun nüfuzlu adamı olmadığından təyinat tədarükünü əvvəlcədən görə bilməmişdi. Xeyr. Həm valideynləri vəzifə sahibi idi, həm də yaxın qohumları yüksək postlarda oturmuşdular. Lakin özü də bir az ayrı cür düşünən adamlardan idi. O, həyatın çətinliklərini görmək, sadə insanların yaşadığı həyatı hiss etmək istəyirdi. Əlindən də hər iş gəlirdi: hər hansı bir çətinliklə qarşılaşanda heç kəsdən kömək ummurdu. Çalışırdı ki, bütün problemləri özü həll etsin. İndi isə tək yaşayıb işləmək, özünü daha böyük çətinliklərə hazırlamaq məqsədilə ucqar rayonlardan birinə göndərilməsini xahiş etmişdi.

Rauf mütaliəni çox sevirdi, xeyli kitab oxumuşdu. Böyük çətinliklərdən uğurla çıxan qəhrəmanlara oxşamaq istəyirdi. Bu xasiyyətdə olan gəncin məhz belə addım atmasını anlamaq, məncə, çətin deyildi.

Təbii ki, xahişi əlüstü yerinə yetirilmişdi. Dekanlığın əlaqədar şəxsləri üçün bu, lap göydəndüşmə olmuşdu. Haqqına fikirləşəndə, paytaxtda bircə yer olsa belə, o da Raufa düşməli idi. Həm əla qiymətlərlə oxumuşdu, həmişə intizamlı tələbə kimi tanınmışdı, həm də fakültədə hörməti vardı. Lakin özü öz xahişi ilə... Buna kim etiraz edə bilər ki...

Təyinat yeri Raufun lap ürəyincə oldu. Dəniz səviyyəsindən xeyli hündür, ətrafı dağ meşələri ilə əhatə olunmuş ərazi, şəlaləli dağ çayının şırıltısı, səhər alatoranında müxtəlif quşların cəhcəhi, tez-tez ətrafı bürüyən sıx duman pərdəsi arxasında bir anda hər şeyin görünməz olması – bir sözlə, hər şey onun ürəyincəydi. Tək bir

şeydən başqa. Təhsil müddətində yeganə xoşuna gələn bir qıza vurğunluğunu, onun da özünə qarşı biganə olmadığını hiss edən, lakin hər ikisinin utancaqlıqdanmı, yaxud da təvazökarlıqdanmı bir-birinə ürək açа bilməməsi ucbatından bu sevgi etirafının indiyəcən gizli qalması ona çox əziyyət verirdi. Qızın adı Cəmilə idi. Başıaşağı, tərbiyəli, mədəni, danışığını, oturuşunu-duruşunu bilən qız da ona biganə deyildi. Hər halda Rauf bunu həmişə hiss etmişdi. Düzdür, Rauf kursdakı qızların əksəriyyətinin ürəyincəydi, lakin sövq-təbii olaraq Raufla Cəmilənin gizli məhəbbətindən xəbərdar olduqlarından çox da dərinə getməyi lazım bilməmişdilər. Rauf burada yaşayıb işlədiyi dövrdə Cəmilənin ona nə qədər çox lazım olduğunu daha dərindən anlamağa başlamışdı.

Tanış-bilişinin olmadığı belə uzaq yerdə bu düşüncələr getdikcə ona daha çox əziyyət verirdi. "Axı niyə belə alındı?" deyə həmişə özünə sual verər, həmişə də cavabsız qalan bu sualların qarşısında özünü aciz hiss edər və bu hisslər ona daha çox əzab gətirərdi.

Beləcə xeyli vaxt keçdi. Rauf ilk məzuniyyəti çatan kimi paytaxta yollandı. Evləri, valideynləri, xüsusilə də Cəmilə üçün bərk darıxmışdı.

Valideynlərinin onu evləndirmək təkidi, özünün istəyi və əsasən də Cəmilənin bu izdivaca çox tez razılıq verməsi onun ailə qurmaq planını sürətləndirdi və geriyə - işlədiyi yerə qayıdanda yanında Cəmilə də vardı. Raufun ən çox ürəyincə olan da elə bu idi.

Raufla ilə Cəmiləyə elə gəlirdi ki, bundan gözəl tale ola bilməz. İki sevən ürəyin çulğaşdığı bir ailədə, təbii ki, hər şey öz axarı ilə getməlidir. Hər ikisi belə düşünürdü. Lakin günün birində Cəmilə özünü pis hiss etməyə başladı. Bundan narahat olan Rauf onu tez xəstəxanaya çatdırdı və ilkin müayinədən sonra öyrəndi ki, sevdiyi insan sağalmaz bəlaya düçar olub...

Böyük sevgi dolu həyat tez başa çatdı. Cəmilədən sonra burada, ümumiyyətlə, həyatda necə yaşaya biləcəyini heç cür ağlına sığışdıra bilməyən Rauf könüllü olaraq Milli Ordu sıralarına daxil olmağa qərar verdi. Bu elə dövrə təsadüf edirdi ki, ermənilər əliyalın əhalimizə qarşı qətliamlar törədərək torpaqlarımızı işğal edirdilər.

Atəşkəsədək Milli Ordumuzun tərkibində torpaqlarımızın, ərazi bütövlüyümüzün keşiyini çəkən Rauf tərxis ediləndən sonra evə gələndə ata-anası artıq dünyasını dəyişmişdi. Bu, Rauf üçün Cəmilədən sonra ikinci böyük itki oldu.

Paytaxtdakı Layihə bürosunda işə düzəldi. Savadlı və səriştəli mühəndis kimi az vaxtda kollektivdə hörmət və ehtiram yiyəsi oldu. Ən çətin qurğuların layihələrini ona etibar edirdilər. Bir müddət işlədikdən sonra müdiriyyət ona əsas şöbəyə rəhbərlik etməyi tapşırdı.

Əsasən qızların və gənc qadınların çalışdıqları Layihə bürosunda işləmək elə də asan deyildi. Bu iş insandan bilik və səriştədən savayı diqqətli olmağı, rəhbərlik qabiliyyəti tələb edirdi. Bütün bu keyfiyyətlər Raufda vardı. O, layihə sənədlərini həmişə böyük məsuliyyətlə, diqqətlə yoxlayır, qüsurları əməkdaşların nəzərinə çatdırır, onların düzgün hazırlanması üçün məsləhətlər verir, kömək edirdi. Məhz belə fəaliyyət üsulu, diqqətlilik nəticəsində şöbənin işi tərifənirdi. Bütün bunlar yaxşı idi və rəhbərlik tərəfindən qiymətləndirilirdi. Lakin kollektivdə hamının üzündən bir sual oxunurdu: Rauf müəllim niyə subaydır? Axı yaşı 45-i keçib. Belə əxlaqlı, tərbiyəli, bacarıqlı kişinin ürəyini fəth eləyən qadın olmayıbmı? Cəsarət edib bu sualları ona verə bilən kimsə yox idi.

Əvvəlcə şöbə əməkdaşlarının hər birinin ürəyində narahatlıq hissi yaradan bu sual vaxt ötdükcə açıq şəkildə müzakirə obyektinə çevrilməyə başladı. Hər dəfə bu məsələdən söhbət düşəndə Şövkətin sifət cizgilərinin dəyişildiyi şöbə əməkdaşlarının nəzərindən qaçmasa da, onlar buna əvvəllər məhəl qoymurdular. Hamı yaxşı bilirdi ki, dedi-qodunun nə olduğunu bilməyən Şövkət həmişə belə söz-söhbətdən kənar olub. Lakin bu hal getdikcə daha sirayətedici olduğundan hamını maraqlandırmağa başladı.

Şövkət şöbədə çoxdan çalışırdı. Təvazökarlığı, xüsusilə də ciddiliyi ona məxsusi hörmət qazandırmışdı. Büronun rəhbərliyindən tutmuş, ta sıravi işçilərədək hamı ona "Siz" deyə müraciət edirdi. İş yoldaşları yaxşı bilirdilər ki, hələ erkən gənclik çağlarından başı təhsilə, yaşlı valideynlərinə göstərdiyi qayğıya və digər ailə problemlərinə qarışdığından Şövkət şəxsi həyatını qura bilməmiş, beləcə də vaxt sürətlə axıb keçmiş, bir də başını qaldıranda yaşının 42-ni haqladığını görmüş və taleyinin bu axarı ilə

barışmış, Allahın bəxş etdiyi alın yazısı ilə razılaşmışdı. Səhərdən axşamadək iş, sonra yüngül bazarlıq, ev, mətbəx və s. Özü üçün tərtib etdiyi belə fəaliyyət cədvəli zaman keçdikcə onun həyat tərzinə çevrilmiş, sonra belə yaşayış tərzinə vərdiş etdiyindən başqa həyatın mümkünsüzlüyü qənaətinə gəlmişdi.

Raufun şöbəyə ilk gəlişindən sonra Şövkət özündə nəsə başqa bir əhval-ruhiyyənin yarandığını duysa da, buna çox diqqət ayırmamışdı. Düşünmüşdü ki, belə ötəri hisslərin hər kəsdə olması mümkündür. Düzdür, Rauf subaydır, ağıllıdır, ciddi adamdır... Bəs axı yaşı? Bu yaşda yenidən ailə qurmağa cəhd göstərmək... Adama nə deyərlər? Eləcə də mən... İndi artıq nə onun, nə də mənim o dövrümüzdür. Yox... Artıq belə şeylər üçün gecdir. Şövkət sağlam ağılla nə qədər belə düşünürdüsə də, ürəyi əksinə, başqa cür döyünürdü.

Rauf da qəlbində nəsə izaholunmaz hisslərin baş qaldırdığının fərqindəydi. Hər dəfə səhər-səhər işə tez çatmağa çalışırdı. Özü də hiss edirdi ki, bu hisslər təkcə işinə bəslədiyi dərin maraq və istəklə bağlı deyil. İş saatlarında hər dəfə Şövkət ilə rastlaşanda nəzərlərini yayındırırdı. Qorxurdu ki, baxışları qəlbindəkilərini ələ verər. Rauf ən çox bundan çəkinirdi. O da yaxşı bilirdi ki, artıq hər şey arxada qalıb. Özlüyündə yəqinləşdirmişdi ki, dünya dağılsa da, bundan sonra ürəyindəkiləri heç kəsə açа bilməz. Axı insan bir dəfə sevər. O da bir dəfə sevib. Cəmiləni. Bir də heç kəsi sevə bilməz.

Nə qədər çalışırdı ki, bu düşüncələrdən uzaq olsun, yenə də alınmırdı. Evə daxil olan kimi yenidən bu düşüncələrin məngənəsində sıxılırdı. Rauf belə böyük məhəbbəti öz daxilində saxlamaqda aciz qalmışdı. Bu hal davam edə bilməzdi...

Günlər, saatlar, dəqiqələr Rauf üçün olduqca çətin keçirdi. Bu vəziyyətə son qoymaq lazım idi. Bilirdi ki, Şövkətə olan sevgisini açıq etiraf etsə, bəlkə də, yaxşı olardı. Yüngülləşərdi. Qəbul ediləcəyinə əmin deyildi. Uzaqbaşı rədd olunacaqdı. Bununla belə, həm özü yüngülləşərdi, həm də başqasının əzabını azaldardı.

Səhəri dirigözlü açan Rauf, yuxusuzluğun bir qədər də ağırlaşdırdığı səhhətinin fənalığını hiss etdiyindən işə gedə bilməyəcəyini yəqinləşdirdi. Layihə bürosunun rəhbərliyinə zəng edib xəstələndiyini və bu səbəbdən də işə gələ bilməyəcəyini bildirdi. “Bəs sonra? Sonrası qalırdı Allahın ümidinə...” Bunu fikirləşən Rauf azacıq da olsa yuxulamağa səy göstərdi. Əhval-ruhiyyəsinin bu vaxtında belə fikirləşə bildiyinə görə ürəyində hətta gülümsündü də...

Nə qədər keçmişdi? Bunu həmin an anlaya bilməzdi. Bir saat, yoxsa iki saat... Qapı zənginin aramsız çalınması onu yuxudan oyadanda üstəlik başının ağrıdığını da hiss etdi. Bu kimdir belə? Narazı halda qapıya tərəf getdi. Heç kəsi gözləmədiyindən qəfil qonağın kimliyi, onu necə qarşılayacağı barədə götür-qoy edərək qapını açdı. Gözlərinə inanmadı. Bunun hələ də yuxusunun davamı olduğunu zənn etdiyindən əvvəlcə gözlərini ovuşdurdu. Ağlı heç nə kəsmədi. Özünü elə itirmişdi ki, qonağı hələ də kandarda saxlamışdı.

- İçəriyə dəvət etmək fikrin yoxdur?

İncə səs onu sanki yuxudan oyatdı. Rauf yer üzünün sakinlərindən hər kimi desən, görsəydi, belə təəccüblənməzdi. Kimin gəlişini qabaqcadan desəydilər, inanardı. Yalnız buna inanmazdı. Səsi titrədiyindən yalnız bircə söz ifadə edə bildi:

- Buyurun!

Əlində tər çiçək dəstəsi tutub qapıda dayanan Şövkət idi.

- Dedilər xəstələnmisən. Narahat olub gəldim. Gəldim ki, görüm necəsən.

Tarixdə sonrakı bir an qarşısında baş əyən dahilər çox olub. Lakin bu an o anlardan deyildi. Bu an tamam ayrı bir zaman məfhumu idi. Rauf üçün artıq zaman məfhumu yox idi: dayanmışdı...

Raufun siması işıqlanmışdı. Əhvalı yaxşılaşmışdı. Əlbəttə ki, bütün bunlar həmin bu dayanmış anın içərisində baş vermişdi... Şövkətin gəlişi, üstəlik çox yaxın məhrəm adam kimi ona “sən” deyə müraciət etməsi Rauf üçün gözlənilməz idi. Həmişə əlçatmaz bildiyi bu olay çəkdiyi bütün əzabları ona bir anın içində unutdurmuşdu...

- Buyurun! – bir də təkrar etdi. –Keçin içəri – deyib, qonağı mənzilə dəvət etdi.

Əsgər məktubu

Zaur SAHİL

* * *

Ağlayan vaxtlarımda
Göz yaşlarımdan islanan torpaq
Bir gün də sən ağlayacaqsan
Mən islanacam göz yaşlarında
Bax onda istəmirəm
Qəbrimin gözləri
Yaşlı olduğunu
Kimsə görsün

SAXLA GÖRÜM

Ay bizi havalı edən,
Dumanı saxla görüm.
Ucuzu bahalı edən,
Zamanı saxla görüm.

Əl qıranın əlindən,
Səhv deyənin dilindən,
İnsanın əməlindən,
Yamanı saxla görüm.

Qoyma güllər soluxsun,
Qoyma gözlər doluxsun,
Qoyma kimsə darıxsın,
Gümanı saxla görüm.

Modifikasiya

Hicran HÜSEYNOVA

Fraqment - 1

Piştaxtadakı üstü yarlıqlı almalar yağlı boyayla çəkilmiş rəssam işiydi elə bil, görənin gözünü oxşayırdı. Göz gözəllik sevir, nə edəsən? Bərq vururdu meyvələr, bəlkə də, yağla sürtüb parıldatmışdılar, məni qınamayın. Alma niyə belə parıldasın axı? Onlar o qədər gözəl idi ki... Öz görünüşünə vurulan super almalar aşağı rəflərdə üst-üstə qalanmış yerli almalara, yazıq almalara, solğun, hətta bir az da büzüşmüş almalara həqarətlə baxırdılar.

"Meyvələrin söhbəti"ni eşitdim:

- Nə gündəsiz, ay yazıqlar?

- Neyləyək, biz təbii, bol vitaminli, faydalı məhsullarıq. Sizin kimi geni dəyişdirilmiş deyilik ki.

- Paxıllar! Sizə nəzər salan kimdi ki, yuxarı başa da keçəsiz! Hansı yolla gəlməyimiz əsas deyil, əsas nəticədi! Kor-kor, gör-gör! Bəyəm görmürsüz ki, ən hörmətli yerlərə bizi alıb aparırlar? Həm də ki nə müqayisə, qiymətimiz üstümüzdədi.

... Təbii almalar söz tapmır deməyə, həm də sözlə nə dəyişəsidi ki?

Fraqment - 2

Bu təcrübə məhsulu olan toyuğun adı Çiçək idi. Özü də ağ, iri bir çiçək buketinə oxşayırdı. O qədər iri idi ki, qaça da bilmirdi. Yerişi, duruşu da qəribə idi, hətta yemək yeməyi də. O biri toyuqlar doyub çəkiləndə o yeyir, yeyir, doyduğunu belə hiss etmirdi. Deyəsən, doymaq hissi yox idi. Başqa bir qəribəliyi: yerli toyuqlar onu vururdu, Çiçək isə buna məhəl qoymur, yerindən də tərpənmirdi. Toran qovuşandan sonra da başqa toyuqlardan gec yatırdı. Bəzən uzun-uzadı bir yerdə oturur, bəzən də konsentrasiyanı itirir, özünü hara gəldi atırdı. Həm də çox mehribandı, adamdan qaçmazdı, heç kimdən, təhlükənin nə olduğunu bilmədiyindəndi, yəqin.

... Qaşqabaqlı günlərin birində Çiçək heç bir səbəb olmadan qəfil öldü, bir yaşına bir ay qalmış... Dedilər, bu toyuqlar bu qədər yaşayır, onlar böyüyən kimi kəsilməyə hesablanıb, sən demə. Daha nələr düşünmür insan əqli, ya Rəbb!

Fraqment-3

Göydə günəş gülümsəyir, yerdə güllər, çiçəklər. Sanki hava ətir saçır. Quşlar da rəqs edirmiş kimi uçuşur. Sehrli bir musiqi eşidilir küləyin səsində. Dünya yaz dönəmindədi.

Şairlərin vəsf edəcəyi bir gözəl gəlir. İncə yerişlə. Qarşımda dayanıb nəsə soruşur. Qəribəliyi ilk andaca hiss edirəm: qız gülümsəmək istəyir, nəsə alınmır. Nədən? - düşünürəm. Diqqət edirəm: dodaqlar o qədər şişkindi ki, gülsə, dartılacağı, tarım çəkiləcəyi, partlayacağı gəlir ağlıma. Yanaqlar da onun kimi. Adam təkcə dodaqları ilə gülmür axı. Yumru yanaqlar dolu yastıq kimi bərk dayanıb yerində, gülsə, nə kiçik bir batıq, nə xırda qırış görünəcək. Hanı, gülə bilirmi yazıq? Qaşlar, kirpiklər təcrübəli ustanın reklam işi ola bilər. Saçlar... yox, baxa bilmirəm saçlara... dırnaqlara caynaq desəm, daha düz alınar.

Bir sözlə, hiperkorreksiya!

Gənc qızın üzündə abır-həyanı çoxdan sıradan çıxarmış qəribə bir ifadə var. Bu ifadənin adı nədi, görən? Mən yazmıram ağlıma gələni. Özünüz baxarsız. Harda? Hər addımda! Elədir, hər addımda belə qızlara (elə oğlanlara da) rast gəlmək olar. Mən daxili dünyasına baxmadım, qorxdum, düzü. Həm də ki, görünən kəndə nə bələdçi?

Qız bu dəfə nifrətlə baxır... Bəlkə, gülümsəyə bilmir, ona görə?

...Baxın, üç vacib fraqment çəkdim sözlə. Gələn dəfə mənim yazımı da modifikasiya olunmuş görsəz, təəccüblənməyin.

Fəridə HACIYEVA

DÜŞDÜM GÖYÜN QARĞIŞINA

Addım-addım gedirəm,
Addımlar dönür günlərə.
Günlər çevrilir fəslə,
Fəsillər yaxın illərə.

Yolların sonu görünməz,
Haradı, hələ bilmirəm.
Zirvələrə əlim çatmır,
Yerlərdə qala bilmirəm.

Əlimdə bir şam gəzdirib,
Tuturam yolun tuşuna.
Bəlkə, günahım böyükmüş,
Düşdüm göyün qarğışına.

UÇACAĞAM

Tənhalığın qoynundayam,
Ruhumla qaldım baş-başa.
Ümman boyda arzularım
Dalğalanır daşa-daşa.

Od püskürür ürəyimdən,
Könlüm yenə işıqlanıb.
İçimdə bir tel qırılıb,
Varlığıma işıq damıb.

Yer kürəsi əlimdədi,
Qanad-qanad uçacağam.
Sirlə dolu qapıları
Yerə-göyə açacağam.

ÖZ RUHUMUN BƏZƏYİ

Gözlərinə baxdım, gülüm,
Gözlərində bir inci.
Sevən qəlbin nur içində,
Kövrək könlün sevinci.

Yer də, göy də sənə məftun,
Bir mələksən, əzizim.
Səni görcək halım dönür,
Təzələnir hər sözüm.

Bir dünyasan bu günümdə,
Varlığımın özəyi.
Üz qoyduğum pirim mənim,
Öz ruhumun bəzəyi.

YORULMUŞAM

Payızın havasında
Qəmə yoldaş olmuşam.
Düşüb çənə-çiskinə,
Bulud kimi dolmuşam.

Havanın tutqunluğu
Ürəyimi soyudur.
Hərdən elə gəlir ki,
Lap şaxtadır, soyuqdur.

Əhvalım himə bənddir,
Bircə anda kövrələm.
Tənhalığın içində
Bir mənəm, bir də qələm.

Gözlərim də yol çəkir,
Yollara sarılmışam.
Gözləməm gələn deyil,
Nə yaman yorulmuşam.

Aida Aysa

Hüsamettin Olğun

Aida Asanın təqdimatında

Onunla Osmanlı imperiyasının ilk paytaxtı olan qədim və əsrarəngiz Bursada tanış olduq. Həm də həkim kimi məşhur olan şairin indiyədək beş şeir kitabı nəşr olunub. Eyni zamanda Türkiyə Radio və Televiziya Qurumunun musiqi fondunda qorunan Türk Sənət Musiqisi formatında iki yüzə yaxın mahnının sözlərinin, bəzilərinin musiqilərinin də müəllifidir. Bu musiqiləri Emel Sayın, Melihat Gülses kimi sevilən türk sənətkarları ifa ediblər. Sözləri Hüsamettin Olğuna məxsus "Kıprıs marşı" isə Türk Silahlı Qüvvələrinin marş repertuarında yer alıb.

Hüsamettin Olğun böyük Nazim Hikmət yaradıcılığından baş alıb gələn, adları Azərbaycan oxucusuna da yaxşı tanış olan Fazil Hüsnü Dağlarca, Nəcib Fazil Kısakürək kimi görkəmli nümayəndələrinin əsərləri ilə bütün dünyada şöhrət qazanmış, çağdaş Türkiyə poeziyasında aparıcı rol oynayan modern şeirin istedadlı təmsilçilərindən biridir.

Onun poeziyası ilk növbədə mövzu rəngarəngliyi, humanist məzmunu ilə diqqəti cəlb edir.

Gözəlliklər diyarı adlandırdığı doğma Bursanı canından çox sevən, onun ictimai və mədəni həyatında yaxından iştirak edən şair burada böyük hörmət sahibidir. Şəhərdə baş tutan bütün mədəniyyət tədbirləri demək olar ki, onun rəhbərliyi ilə təşkil olunur. Bu üzdən Azərbaycanın ədəbi mühitindən də qonaqları olur. Azərbaycan ədəbiyyatına böyük marağı var. Ən çox sevdiyi Azərbaycan şairləri Şəhriyar və Bəxtiyar Vahabzadədir. Onların bir çox şeirlərini əzbər bilir.

Azərbaycanı da çox sevir Hüsamettin Olğun. "Türk xalqlarının Vətəni ayrı, milləti birdir. Dünyanın harasında əzilən və baxımsızlığı təhlükədə olan bir türk xalqı olsa, bizim bağrımız yanar"- deyir. Hələ Bakıya gəlmədiyini və bunu çox istədiyini də sözlərinə əlavə eləyir.

Gözəl misralarıyla yanaşı səmimiliyi, qonaqpərpərliyi, bizləri çox sevməsiylə yaddaşımda qalan şairin şeirlərindən bəzilərini Azərbaycanlı oxucularla bölüşmək istədim.

AFORİZMA

Siz ey gücün ilahları!
İçtiğiniz; alın teri ve soylu kan,
Yediğiniz; kutsal emek ve insan;

Gözünüze mil çekmiş şeytan!..

Siz ey paranın efendileri!
Sömürün, yarattığınız köleleri,
Açlıktan koksun, kesilen nefesleri,
Ölürken açık gitsin
feri kaçmış gözleri

Size lanet okusun; her kutsal isyan!..

Siz ey korku krallığının baronları,
Yeter,
haklı olmanız için
soylu doğmanız!
Yarasalar özgür kalsın diye mi,
bunca yıldır aydınlığı boğmanız?

Öfke; suskun bir volkan!

Siz ey leş kargaları!
Haksız savaşlarınızla
leş tarlasına çevirdiniz dünyayı,
doymadınız, doyamadınız;
doldurduğunuz çukurları,
saymadınız, sayamadınız!

Yürek yemekle, yürekli olunmuyor!
Çok yürek tükettiniz,
yürekli olamadınız!
kıyametler kopardınız,
kendi kıymetinizin sur sesini
duyamadınız!

Siz aynalardaki suretinize hayran; insanlık size kurban!

Siz ey doğmamış çocuğa kefen biçenler!
Nasıl şey,
yaşam kimine ölüm;
kimine hak!
Aslında
yarını olmamaktan yeğ,
doğmamış olmak!

Siz değil miydiniz, yalan tarihi yazan!

Ve siz ey zulmü kader sayanlar!
Ne zulüm
ne açlık
ne ihanet
uyandırabildi
ölüm uykusundan'..
Kurtulduğunuz gün
dünya değişecek
yenilmek korkusundan..
İnandığınız gün
zaferle çıkacaksınız
erdem savaşından..

İşte o gün, özgür kalacak insan!..

AH ÇOCUKLAR!

Bu akşam
huzur vermiyor mehtap!

Mudanya sahilinde
kıyıya vurmuş
Suriyeli canlar!
İçlerinde
şaşkın
ürkek
ve günahsız çocuklar!
Habersizler
kimin kıydığından
yarınlarına,
Kime lanet okusunlar!

Neden uzaktalar
vatanlarından,
Kim çaldı
oyuncaklarını,
Kim yıktı
evlerini başlarına,
Kim, nereye sakladı
çelik-çomaklarını,
Hangi bela rehin aldı
gözyaşlarını
Kim sorsunlar?

Ah çocuklar,
hepsi haklı
hepsi güçsüz
hepsi güzel çocuklar!
Size nasıl kıydılar!

AYNIYIZ

Varsın ayrı olsun
dinlediğimiz şarkılar
Hoşlandığımız renkler ayrı olsun
ne çıkar.
Sazımız bir
sözümüz bir
özümüz bir
dudaklarımızda aynı türkü
insanız biz, umut yüklü, aşk yüklü.

Anlarız çoban kavalının dilinden,
Biliriz sevda türkülerinin havasını
Analarımızın ölen kardeşlerimize
Ağıt yakarak tuttuğu yasını.

Biriz, birlik için çarpar
sevgi dolu yüreklerimiz.
Çocuklar kadar temiz
içimiz!..
Küçük şeylerle bizim olur dünyalar,
büyük şeyleri
dünyayla paylaşmak isteriz.
Ağlayanla ağlayıp gülenle güleriz,
dostluk dolu yüreğimizle
biriz biz, biriz.

Varsın ayrı olsun
dinlediğimiz şarkılar
Hoşlandığımız renkler ayrı olsun
ne çıkar.
Sazımız bir
sözümüz bir
özümüz bir
dudaklarımızda aynı türkü
insanız biz, umut yüklü, aşk yüklü.

BİLİYOR MUSUN?

Şimdi başka elleri ısıtıyor
bakışından süzülen cennet!.
Ruhumda zemheri ayazı;
hasretim titriyor, biliyor musun?

Bin imbikten süzülen
ve kanayan
hüzünleri
sabır tünellerine gizliyorum
Takatim tükeniyor, biliyor musun?

"Alaca aydınlık"ında
kıyamet telaşı gizli akşamların,
ve sis perdesi iniyor sensiz her geceye
zifiri karanlık hükmediyor zamana;
Vuslat hep gecikiyor, biliyor musun?

Öyle çok gittin ki,
öyle çok mahzun kaldı ki yüreğim
hayaline el sallamaktan yorgun düştü ellerim;
Yokluğuna alışmak, sevmekten çok daha zor,
biliyor musun?

GÜZ SANCISI

Kışı kıskanan
bir güz akşamı
Burgaz'da
ayaza kesiyor zaman!
Çıldırmış deniz,
çıldırmış dalgalar
havada güz matemi var!

Kıyıda
ruhu üşüyen
yürek sıcaklığında
"güze veda" senfonisi dinleyen
bir kaç insan;
Belli ki yeni çıkmışlar yangından!

Kediler
köpekler
ve martılar
Kimbilir hangi kuytudalar?
Çığlık çığlığa sükut!
Gün batımı duasında umut!

Bahtı kendinden siyah
saatçi kızlar
soğukla aynı renkte
acılar biriktiriyor!
Morarmış belki
elleri ve yüzü
farkedilmiyor!
Sıcak bir çay
yetiyor
yüzünün gülmesine
Öyle yakışıyor ki gülmek
yüreğim: "hep gülse!" diyor..

Ne soğuk
ne rüzgar
hiç mi hiç
üşütmüyor;
Acı yakıyor,
simsiyah kanıyor
yüreğim!

Hüseyin MUHERREM ARAT

Kəmalə Umudovanın
təqdimatında

SUFİ

Şah damarı atıyordu mütemadiyen
Ar damarı ise
Ha çatladı, ha çatlayacak...
Şeytan terazisinin bir kefesine şehveti,
Diğer kefesine tevbeyi yerleştirdiysen
Ağır basan tarafı sen bulmalısın sufi.
Her hayat ölümün tadına varacak.

İŞARET

Severiz yaşamayı çok, dolu dolu.
Ama
Uzaklaşıp giderken
Bu dünyadan
Sadece
Yaradan'ını bilenlerde kalmaz
Yok olma korkusu.

ZAMANLA

Elmas;
Baskı altında kıymetlenen bir kömür
parçasıdır...
Kalp;
Severek değer kazanan vücudun en kıymetli
organıdır...
Nasıl baskı altında kalan kömürün elmasa
dönüşmesi
Ona mükâfatsa,
Zorluklar karşısında bile seven bir kalbin
mükâfatı da
Paha biçilmez olmaktır...

DERVİŞ

Söyle bakalım derviş
Sevmek mi güzel, sevindirmek mi?
Kibir yoksa sevindirmek
Karşılıklıysa sevmek güzeldir.
Ama en güzeli
Gönülden sevmek
Ve
Sevindirmektir...

YOLCU

Buralar, oralar, şuralar,
Tamamen Allah'ın
Biz sadece içinden geçiyoruz,
Yolcu!
Sevgiyle bak dünyaya.

NEY NAĞMESİ

Gün batımında her şey nasıl da
Bitiktir;
Sular durgunlaşır, hayat yaşlanır
Sakinleşir...
Güzelim gün biter, bir sürü can
Sessizce gider.
Bir ney nağmesi eşliğinde
Yeniden doğar güneş
Yeni canlar taze umutlarla gelirler...
Muhakkak olacak ama bilinmez;
Hangi günbatımında ölürler…

KALBE DOKUNUŞ

İnsanın düşünenleri olmalı, merak edenleri…
Hesapsız kitapsız değer verenleri
Uzakta olunca özleyenleri,
Sesini duyunca sevinenleri olmalı...
Dualarına katanları... Kapısı…
Sofrası, gönlü
Hep açık olanları.
Kısacası cancağızım
Beklentisiz sevenleri olmalı.
Tıpkı
Benim seni sevdiğim gibi.

DÖRT MEVSİM

Nasıl biri diye sordum.
Seni, dört mevsimi, şiiri
Ve en çok da,
Rabb'ini sever dediler...
Kapıldım gittim peşinden...

TAŞ FIRIN

Sıcak fırından buz çıkmasını beklemek gibidir,
Soğuk kalplerden içinizi ısıtacak sözler duymak.

HANİ OLUR YA

Seni ömrü hayatında tanımamış birine,
Bütün hayatını anlatasın gelmişse bil ki
Yalnız ve garipsin.

MİNİATÜR

Vətən və həsrət...

İradə ƏLİLİ

Göygöl rayonunun Toğana kəndinə gedən yolun kənarında bir dəmir tablo diqqətimi çəkdi. KƏLBƏCƏR- 80 km. Bizi müşayiət edən dostlardan soruşdum: - "Kəlbəcər bura çox yaxındırmı? Bu yol hara gedir?" "Yaxındır", - dedilər. "Bu kəndin axırıncı cığırı təmas nöqtəsidir və bu yolun sonu Kəlbəcərə gedir çıxır." Ruhum bir anlıq elə bil məni tərk etdi. Narahat, həsrət dolu baxışlarım Murovdağa tərəf tuşlandı. Elə dərindən ah çəkdim ki… Vətən torpağının yaxınlığında ola-ola o torpaqlara getmək iqtidarında olmayasan. Vətən torpağında dəmir məftillər - "Dayan! Dur! Buradan o yana, əziz torpağına gedə bilməzsən" deyə yolunu kəsəcəklər. Heç zaman görmədiyim, gəzmədiyim Vətənimin bu yaralı hissəsini görmək istəyi keçdi ürəyimdən. Ancaq xəyalən Qarabağ torpağını gəzib dolaşmışdım. O yerlərdə qonaq olmuş, dünyasını dəyişən anamın danışdığı xatirələr canlanmışdı xəyalımda: "Gözəl təbiət, istiqanlı insanlar, ecazkar məkan, uca dağlar, sıldırım qayalar, şəfalı İstisu, gözəl bulaqlar, səsi insanın ruhunu oxşayan çaylar - bir sözlə, gözəl Vətən torpağı." Quştək qanad çalıb, bir addım belə uça bilməyəcəyim torpağıma mehman olmaq istədim... Gözlərim dolmuşdu, özümü ağlamaqdan zorla saxlayırdım. Bu andaca diqqətimi yağı tapdağında olan, ürəyinə həsrət damğası vurulmuş, bağrı yaralı Kəlbəcər istiqamətindən gələn Kürəkçay çəkdi və Kürəkçay kədərinə layla çala-çala, ağlaya-ağlaya axırdı, axdıqca torpaq həsrətini anladırdı. O yanda, o biri tərəfdə acı çəkən qərib Vətən torpağının ağısını deyə-deyə axıb gedirdi. Kürəkçayın kədərinə qoşulub, qovuşub göz yaşlarımı saxlaya bilməyib, hönkürüb, ağlaya-ağlaya "Tanrım, sən özün Vətənimi azad et!" deyə yanan ürəyimlə haray çəkdim, - Tanrım, Vətənimi qoru!

Pərviz SEYİDLİ

1992-ci ildə Bakıda doğulub. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rejissorluq fakültəsini bitirib. Universitetdə oxuduğu müddətdə qısametrajlı filmlər çəkib, bir neçə film festivalında qalib olub. Tələbə vaxtı çəkdiyi "Səninləyəm" adlı qısametrajlı film kinofestivalda xüsusi mükafata layiq görülüb. Diplom tamaşası olan İlqar Fəhminin "Aktrisa" əsəri maraqla qarşılanıb. Dövrü mətbuatda şeirləri çap olunub. Sərhəd qoşunlarının keçirdiyi hekayə müsabiqəsində hermetik dedektiv janrında yazdığı "On iki addım" hekayəsi birinci yerə layiq görülüb. Hazırda ATV kanalında yayımlanan "Dəfnə ağacı" teleserialının ssenari müəlliflərindən biridir. Yeni açılmış M.Teatr studiyasında "Maraqlı fiqur və yaxud siçan qız" hekayəsi əsasında tamaşa hazırlanır. Bu yaxınlarda ilk foto sərgisi və kitabının təqdimatı keçiriləcək.

DƏRGİDƏ KİTAB

Tünd qəhvə ətirli talelər

İŞIQ. KÖLGƏ

Onun həyatda tutduğu yer pəncərə məhəccərinə yığılmış kitabların yerindən bir qədər böyük idi. Elə məhəccərin yanındaydı. Pəncərənin yanına qoyulmuş balaca stul onun eviydi. Həmişə əlində tutduğu sarı rəngli daraqdan başqa ona məxsus heç nə yox idi. Həmin daraq onun rəfiqəsi, sirdaşı və onun başını sığallayan yeganə əzizi idi.

Tək yaşamırdı, valideynləri rəhmətə gedəndən sonra qardaşının yanında qalırdı. İnsafən qardaşı da, onun arvadı da, qardaşı uşaqları da onunla pis davranmırdılar. Qardaşın evində yaşayan xəstə bacıya heç kim dəyib, toxunmurdu. Onsuz da o da evdə heç kimə mane olmurdu. Səhər tezdən oyanıb məhəccərin yanındakı stulda oturar, əlindəki sarı daraqla saçlarını darayar, gecənin yarısına qədər də ordan ayağa qalxmazdı. Arada adama elə gəlirdi ki, bu ruhi xəstə qız məhəccərin bir hissəsidir. Pəncərəni, məhəccəri onsuz təsəvvür etmək olmaz. O, məhəccərin dəyişməz butaforiyasıdır.

Dediyim kimi, daha doğrusu, yazdığım kimi, hər səhər məhəccərin yanındakı stulda oturub saçlarını darayırdı. Oxucuya qadının siması çox maraqlıdısa, zəhmət olmasa, bu məlumatla kifayətlənsin-üzündə həyat əlaməti görsənən yer gözləri idi. Gözlərində həyat eşqinə rast gəlmək olardı. Eybəcər deyildi. Hər halda gözəl sayıla bilərdi (nəyə görə ruhi xəstədir, beləmi doğulub, yoxsa sonradan belə olub, bunu da özünüz müəyyənləşdirin).

Heç vaxt xoşuma gəlməyən, hər addımbaşı qabağıma çıxan realist təsvirlərdən yaxa qurtarıb hekayəmin özümə maraqlı olan yerlərini yazmağa davam edim.

Sarı rəngli daraqla saçlarını darayıb, pəncərədən çölə baxırdı. Kənardan ona baxan adama elə gəlirdi ki, hərəkət edən robotu xatırladan bu qızın heç bir hissi, düşüncəsi yoxdur. Amma belə deyildi... Onun da hissləri, bir-iki cılız düşüncəsi, dahi yazıçı təxəyyülündən də böyük xəyalları vardı... Bu haqda bir azdan ətraflı yazacam. Fikrimi dağıtmayın.

Bu qızcığaz və yaxud qadın (necə istəyirsiz) niyə məhz məhəccərin yanında, pəncərə tərəfdə otururdu, bilirsiz?!

Çünki onun əsl həyatı balaca otaqda yox, pəncərənin o tayında, çöldə idi.

O, pəncərənin yanında oturar, saçlarını daraqla darayar və çölə baxardı. Yoldan keçən maşınlara elə maraqla, elə şövqlə tamaşa edirdi ki, sanki dörd rezin üstündə hərəkət edən dəmir parçaları dünyanın ən qəribə məxluqlarıdır.

Ən çox da axşamın düşməyini gözləyirdi. Gündüzlər sanki bütün günü axşama görə saçlarını darayırdı. Axşam pəncərədən çölə-maşınlar şütüyən yola daha böyük maraqla, həvəslə baxırdı.

Yoldan keçən maşınların işıqları pəncərədən yola baxan qızın üzünə qəribə işıq salırdı. Maşınlar keçdikcə onun üzü işıqlanırdı. Hər maşın onun baxdığı yoldan keçəndə üzündə işıq yaranıb sönürdü. İşıqla, kölgə onun üzündə rəqs edirdi. Mənə elə gəlir, əsl kinonun mahiyyətindən başı çıxan, nuar janrında çəkilən kinoları sevən kinoman saatlarla onun simasına-işıqla kölgənin dayanmadan yerini dəyişdiyi bu gözəlliyə tamaşa etmək istəyərdi.

O, pəncərədən yola baxdıqca elə bil ruhu bədənindən çıxır, pəncərənin arasından süzülüb

yoldan keçən maşınların birinə qoşulub harasa uzaqlara gedirdi.

Onu yaşadan iki şey var idi; biri əlindəki sarı daraq, ikincisi isə pəncərədən baxmaq. Daha doğrusu, yoldan keçən maşınlara baxmaq. Bu ikisindən biri olmazsa, o qızın yarımçıq və balaca dünyasından bir neçə kərpic də düşər, xəyalında qurduğu büllur saray uçulardı.

Əslində, hər şey qıraqdan insana çox asan görünür. Məsəlçün, onun boş gözlərlə pəncərədən yoldan keçən maşınlara baxmağı çoxumuza adi hal kimi gələ bilər. Amma...

O, axşamın düşməyini ona görə arzulayırdı ki, maşınlar yollarda çoxalsın. O da yoldan keçən maşınların arasından birini seçsin (o, maşını rənginə görə yox, sürətinə görə seçirdi). Axşamlar ən sürətli gedən maşınlara tez nəzər yetirib özünü o maşının içində hiss edirdi.

Yoldan şütüyən maşınlara baxanda gözlərində elə maraq yaranırdı ki, adama elə gəlirdi, ruhu gözlərindən çıxıb qaçaraq həmin maşına əyləşəcək.

O, seçdiyi maşına əyləşəndən sonra uzaqlara gedirdi. Dəqiq hara getdiyini mən də bilmirəm. Amma getdiyi yerdə xoşbəxt idi ki, hər gecə ora getmək istəyirdi. Onun həyatı bundan ibarət idi. Axşama qədər gözləmək öz maşınını tapmaq və getmək...

Bir gün o gedə bilmədi. Bir gün onun üzündə işıqla kölgə rəqs eləmədi. Çünki həmin gün onun pəncərəsindən görünən yoldan heç bir maşın keçmədi. O, nə qədər gözləsə də, yoldan bir dənə də olsun maşın keçmirdi. Gözləri yoldaydı. Bir an belə baxışlarını bu boş yoldan çəkmirdi. Ancaq yolda heç bir maşın gözə dəymirdi.

Səhərlər oyanıb məhəccərin yanında oturar, saçlarını darayar, axşamın düşməyini gözləyib yola baxırdı. Amma nə olmuşdusa, maşınlar artıq yoldan keçmirdilər. O, bir ay bu minvalla gözlədi. Getdikcə gözləri solğunlaşdı, işıqla kölgəyə həsrət qalan üzünə kədər yayıldı. Hətta, deyəsən, saçları da ağardı (şişirtmirəm).

Səhər onun qaldığı məhəlləyə bir xeyli adam toplaşmışdı. Deyirdilər, binada yaşayan ruhi xəstə gənc qadın əlindəki daraq yerə düşdüyü üçün özünü darağın ardıyca pəncərədən aşağı atıb.

...Dəfnindən iki saat sonra həmin yolda maşınlar görünməyə başladı. Bir aylıq yol təmiri başa çatmış, yollar nəhayət ki açılmışdı. Axşamlar həmişəki kimi, maşınlar yoldan sürətlə keçirdilər. Amma artıq o yox idi. Maşınlar onun üzünə işıq salmırdılar. Ümumiyyətlə, maşınların heç nədən xəbəri yox idi. Maşınlar dörd rezin üstündə hərəkət edən dəmir parçasından başqa bir şey deyildi.

KİTABSIZ YAZIÇI

Mən atamı üç dəfə tanımışam. İlk dəfə tanıyanda yeddi yaşım var idi. Mənim üçün qəhrəman, məğlubedilməz qladiator, yenilməz supermen idi. İkinci dəfə atamı on iki yaşımda tanıdım: mağmun, zəif, əzilmiş və gücsüz... Atamı üçüncü dəfə tanıyanda... Bir dəqiqə... Mənim nə freydizmdən ağıllı-ağıllı danışmaq, nə də insan qəlbinin mərhəmət çalarına toxunan ağrılı hekayə yazıb "yaxşı" yazıçı olmaq fikrim var.

Sadəcə olaraq, içimdə eşələndiyim günlərdə atam və özümlə bağlı üstünü toz basmış xatirələrin arasından tapıb çıxardığım bir neçə həqiqəti hekayə halına salaraq, həmişə gözümün qabağında olması üçün yazıram.

Atamı üçüncü dəfə keçən ay, yəni ölümündən iki ay sonra tanıdım. Bu üçüncü kitabımın çapdan çıxmasından iki ay əvvələ təsadüf edir.

Uşaqlıqdan yazıram. Yazdıqca ləzzət alıram. Ləzzət aldıqca daha da şövqlə, inamla yazıram. Müsahibələrin birində roman və hekayələrimin oxucusu olan jurnalistin verdiyi "Niyə yazırsınız?" kimi klişe suala yuxarıda qeyd elədiyim klişe cavabı vermişdim. Sonrakı klişe saydığım "Necə oldu ki, yazmağa başladınız? Sizi yazıya gətirən səbəb nə idi?" sualına bir xeyli fikirləşib: "Bilmirəm. Bu dünyadan qaçmaq istəyi, alternativ dünya qurmaq həvəsi" kimi pafoslu cavab vermişdim. Amma klişe saydığım bu sual arabir beynimdə gəzişir, özünə cavab axtarırdı.

Bu cavabı keçən ay tapdım. Mənim yazıçı olmağımda səbəbkar - ATAM idi.

Qətiyyən! Qətiyyən elə bir şey ağlınıza gəlməsin. Birdən fikirləşərsiz ki, atam köhnə realist sovet yazıçısı, qoca materialist filosof və yaxud Karl Marksa pərəstiş edən fəal kommunist olub.

Atam leksikonumuza təzəlikcə daxil olan "freelance", yəni azad işçi, harda iş, üç-beş manat çörək pulu olsa, orda çalışan adam idi. Altı ay ev təmir edirdi, beş ay dükanlara şirniyyat paylayırdı, dörd ay çörək sexində çörək bişirirdi, üç ay da nəsə başqa bir iş tapıb çalışırdı. Ali təhsili yox idi. Bəlkə, olsaydı, nəsə yaxşı bir yerdə işləyərdi. Neyləsin, oxumamışdı da...

Kasıb deyildik. Bəlkə də, kasıb idik, varlı olmağın necə olduğunu bilmədiyim üçün hər halda elə fikirləşirdim. Bircə onu bilirdim ki, "Xalxın kişiləri" kimi yaşamırdıq. Uşaq vaxtı düşünürdüm ki, görəsən, bu "Xalxın kişiləri" kimdir? Anam hər əsəbiləşəndə onları atama misal çəkirdi. Ancaq onların ovçu olduğunu bilirdim. Çünki anam axşam şəhərə qaranlıq yenicə düşən vaxt, Bakıya qəribə hüzn çökən zamanlarda "Xalxın kişiləri qaz vurub qazan doldururlar" deyirdi.

İndi yazdıqlarımı suda boğulan adama uzanan əl kimi yaddaşımın arasından tapıb çıxarıram.

Hər gecə yuxu məni özüylə uzaqlara apar-mağa çalışsa da, var gücümlə yatmamağa çalışırdım. Atamı gözləyirdim... Atam gecə işdən gələr, əl-üzünü yuyandan sonra mətbəxdə sarı rəngli köhnə divana uzanar, məni qucağına alıb başına gələn macəralarını danışardı.

Mən hər gecə o macəralara qulaq asmaq üçün yuxuyla döyüşürdüm. Çünki atam evə çox vaxt gec gəlirdi. Axşamlar fikirləşirdim ki, görəsən, bu yuxu məndən nə istəyir?! Yatmaq istəmirəmsə, çıxıb getsin də... Heç vaxt üzünü görmədiyim qorxaq yuxu hər gecə gəlir, məni yatızdırmaq istəyirdi. Nə qədər hirslənsəm də, yuxuyla döyüşmək istəsəm də, çox vaxt məğlub olurdum. Amma həmişə yox... Elə vaxt olurdu ki, yatmıyıb oyaq qalmağı bacararaq atamı gözləyirdim. Bəzən yuxuya yaltaqlanmaq istəyirdim. Nə qədər eləsəm də, yolunu tapa bilmirdim.

Atam başına gələn maraqlı əhvalatları mənə danışırdı. Ürəyimdə fikirləşirdim, görəsən, başqa uşaqların da atasının başına maraqlı əhvalatlar gəlir?! Sonda cavab tapırdım. Yox!

Hər gec yuxulu gözlərlə qapının döyülməsini, ilk kitabımın çap olunmasından daha böyük həyəcanla gözlədiyimi indi daha yaxşı xatırlayıram.

Gecə həmin köhnə, sarı divanda atamın sinəsi üstünə uzanaraq başına gələn əhvalatlara qulaq asa-asa, böyüyəndə atama oxşamaq istəyirdim.

Atamın danışdığı əhvalatlar çox maraqlı idi. Nədənsə həmin günlər yaddaşımda öləziyən işıq kimi qalsa da, danışdığı əhvalatların hamısı yadımdadır.

Gecələrin birində başımı sığallayaraq danışırdı:

- Bir gün ev təmir edirdim. Divarları rəngləyirdim. Divarın tən ortasında bir yer var idi ki, nə qədər rəngləyirdim rənglənmir, əvvəlki rəngində qalırdı. Əlimdəki fırçanı yerə qoyub əlimi həmin yerə vuranda kimsə həmin rəngsiz hissədən məni özünə tərəf çəkdi. Bir də gördüm başqa yerdəyəm. Hər yer yaşıllıq idi. Ətrafımda çoxlu dinozavrlar var idi, nəhəng dinozavrların ağzından alov çıxırdı. Vaxtında həmin divarı tapmasaydım, dinozavrlar məni yeyəcəkdi.

- Bəs divarı necə tapdın?

- Mən sənin atanam. Birtəhər tapdım da...

Başqa gecələrin birində kefi kök halda başına gələn başqa hadisəni mənə danışırdı:

- Çörək sexində xəmir qarışdıran yekə maşının başında dayanmışdım. Böyük, yumru maşın fırlanaraq xəmiri qarışdırırdı. Birdən maşının içində nəsə parıltı gördüm. Xəmir qarışdıranın içinə əyilib baxmaq istəyəndə yıxıldım içinə. Maşın məni də xəmirlə bir yerdə fırlatmağa başladı. Gözümü açanda gördüm ki, başqa planetdəyəm. Ətrafımda çoxlu yadplanetlilər dayanıb. Onlar mənim kim olduğumu soruşanda dedim ki, mən çörəkçiyəm. Nə qədər dedimsə, sözümə inanmadılar. Dedilər, onda gedək yer planetinə, görək harda yaşayırsan. Onların kosmik gəmisiylə birgə yerə endik.

- Ata, kosmik gəmi nədir? - böyük maraqla soruşdum.

Atam bir az fikirləşdi.

-Yadplanetlilərin maşını. Gecə sən yatmışdın. Gəldilər bizə. Səni görəndən sonra inandılar ki, mən pis adam deyiləm. Təsadüfən onların planetinə düşmüşəm. Sənin də başını sığallayıb getdilər.

Mənim gözlərim doldu.

- Onları görmək istəyirdim. Niyə demədin qalsınlar?!

Atam mətbəxdə qabları yuyan anama baxıb gülümsündü:

- Mən istəyirdim, anan icazə vermədi. Dedi, kimdir gecə vaxtı bunlara yer salan?!

- Neçə nəfər idilər?

- Üç nəfər.

Başqa əhvalatda atam Supermenlə dost olurdu, başqa hekayədə kapitan Nemonun sualtı gəmisində orqan musiqisinə qulaq asırdı. Digər başına gələn hadisədə şəhərdə peyda olan əcaib məxluqları təkbaşına məhv edirdi...

Atam mənə onlarla, bəlkə, yüzlərlə bu cür əhvalatlar danışırdı. Mən necə də ona oxşamaq istəyirdim!

İllər keçir, mən böyüyürdüm. Hərdən mənə elə gəlirdi ki, mən atamın qucağına sığmadığım üçün artıq onun başına heç bir hadisə gəlmir. Amma mən yenə onun başına gələn əhvalatlara qulaq asmaq istəyirdim. O əhvalatlar üçün darıxırdım. Atam işdən gələndə qucağına çıxmaqdan utanırdım. Bu hissin nədən yarandığını anlaya bilmirdim. Yəqin ki, boyum uzanmış, bir az böyümüşdüm.

Məktəbdə təbiətşünaslıq dərsi idi. Müəllim dinozavrlardan danışırdı. Birdən atamın mənə dinozavrlardan danışdığı əhvalatlar yadıma düşdü. Düzdür, mən onların artıq atamın uydurmaları olduğunu bilirdim, buna baxmayaraq, həmin əhvalatları yenə eşitmək istəyərdim.

Evə gəlib yemək yeyəndən sonra bir hekayə yazdım. Təsadüfən keçmiş dövrə düşən adamın dinozavrlarla mübarizəsindən bəhs edirdi.

Hekayəni bitirəndən sonra ən azı üç dəfə təkrar oxudum. Böyük səbirsizliklə atamı gözləyirdim. Gələn kimi yazdığım hekayəni ona verəcəkdim. Artıq xəyalımda atamın yazdığım hekayəni oxuyandan sonra məni qucaqlayıb öpməsini, öz oğluyla fəxr eləməsini təsəvvür edirdim.

Əvvəl istədim hekayəmi anama da göstərim. Sonra bu fikrimdən daşındım. Çünki həmin gün anam çox əsəbiydi. Sükutun üzünə yayılmasından, başını yuxarı qaldırmadan mətbəxdəki işlərini görməyindən, otaqda kədərin qəribə bir hakimiyyətindən və cüzi dərd qoxuyan "korvalol"un iyindən bilirdim ki, atamla dalaşıblar. Arada belə şeylər olurdu...

Atam qapını özünəməxsus şəkildə döyərdi. Əlinin tərsiylə barmaqlarını bir neçə saniyə ritmlə qapıya vurardı. Onun qapı döyməyi zərb alət-

lərində ifa edən musiqiçilərin mahnının sonluğunu bitirməsinə bənzəyirdi.

Ancaq bu dəfə qapı tamam başqa cür döyüldü. Sanki piano çala bilməyən biri zarafatca pianonun klavişlərini möhkəm-möhkəm basırdı. Mən anamın yanında, mətbəxdə oturmuşdum. Anam sanki qapının səsini eşitmirdi.

Qapını açdım, atam içəri keçdi. Ayaqqabılarını çıxaranda az qaldı aşsın. Sərxoş idi... Onun qolundan yapışdım. Məni itələdi.

- Böyümüsən? Uje atana kömək-zad eləyirsən? - Səsində həmişəki qürur hissindən çox ilk dəfə duyduğum istehza var idi.

Mətbəxə keçib bir müddət guya başı işə qarışmış anama baxdı. Anam ona qətiyyən fikir vermirdi. Atam mətbəx şkafının üstündəki su dolu qrafini başına çəkdi. Sonra yenidən anama baxdı.

- Guya məni görmürsən də? - atamı heç vaxt bu cür görməmişdim. Ümumiyyətlə, ilk dəfəydi ki, onu sərxoş görürdüm.

Anamın onun üzünə baxmamağı, susmağı atamı daha da əsəbiləşdirdi.

- Sənlə deyiləm? - Anamın qolundan yapışdı.

Anam əsəblə ona baxdı. Birdən anam var gücüylə qışqırdı...

Çox, çox, çox qorxdum...

Anam qışqırırdı. Atam qəfildən ona sillə vurdu. Mən ağlayırdım. On iki yaşım olmasına baxmayaraq, ağlayırdım. Anamsa ağlamırdı. Sillədən sonra bayaqkı çığırtısı kəsilmiş, onun yerinə qışqırıqdan da dəhşətli bir sükut yaranmışdı. Anam həmin sükutla atamı məhv eləmək istəyirdi. Elə də oldu... Atam birdən ağlamağa başladı. Səndələyərək qəhrəman olduğu vaxtlarda məni qucağına alıb başına gələn əhvalatları danışdığı köhnə, sarı divanda oturdu. Mən qapının yanında çənəmdən naxışlı xalçanın üstünə damcılayan göz yaşlarımla onlara baxırdım.

Anam yemək yediyimiz masanın yanındakı stulu çəkib oturaraq əllərini masaya söykəyib baxışlarını xalçanın naxışlarına zillədi.

Mənə elə gəldi ki, bütün bu şeylərin səbəbkarı həmin xalçanın naxışlarının arasında gizlənib. Diqqətlə naxışlara baxır, orda özüm də bilmədiyim nəyisə axtarırdım.

Atam başını əllərinin arasına alaraq başını qaldırmadan dünyanın ən məzlum səsiylə anamdan üzr istədi.

- Bağışla, Firuzə... Qurban olum, bağışla...

- ... – anam susurdu

- Firuzə, sən əvvəl belə deyildin, indi kim nə deyir, inanırsan.

- Öz gözlərimlə gördüm, - anam pıçıltıyla dedi.

Atam bir qədər susandan sonra başını qaldırıb anama baxdı.

- Nəyi gördün e, gör mən onu neçə ildir görmürdüm, bu gün çıxdı qabağıma. Dedi ki, yüküm ağırdı mənə kömək elə dayanacağa qədər. Mən də kömək elədim, vəssalam... - atamın gözlərindəki qəzəb öz yerini yetim ümidlərə vermişdi.

Anam nəyisə xatırlayıbmış kimi çevrilib qapının kandarında dayanmış mənə baxdı.

- Get, yat!... - Anam bir cümlə bunu deyə bildi. Yenə hönkürdü...

Atam ayağa durub anamın yanına gəldi. Əlini çiyninə qoyanda anam onun əlini itələdi.

- Çıx get... əl vurma mənə... İyrənirəm səndən!

- Firuzə, bir səhfdi eləmişəm. Söz verirəm, bir də onu görəndə salam da verməyəcəm. - Atam anamın nə deyəcəyini gözləyirdi.

- Yalan deyirsən, bəlkə də, neçə ildir, o qəhbəylə bir yerdəsən.

Atam heç nə demədi.

- Düz deyirəm hə? - Anam sakitcə soruşdu - yox, səhf deyirsən. - Anamın dediklərini inkar eləsə də, səsindəki inamsızlıq yalanının üstünü açırdı. Anam yenə hönkürdü. Sonra özünü ələ almağa çalışdı.

- Özümü öldürəcəm. - Anam dedi.

Bu cümləni eşidəndə nəfəsim kəsildi. Nə qədər istəsəm də, nəfəs ala bilmədim. Elə bildim, bundan sonra bir də nəfəs ala bilməyəcəm...

Atam yataq otağına keçib bu qədər şeydən sonra heç bir söz demədən yerinə uzanıb yatdı. Anam səhərə qədər mətbəxdə, sarı divanımızda, mətbəxin axırındakı məhəccərin yanında ağladı. Mən də səhərə kimi yatmadım. Anamın "özümü öldürəcəm" sözü yadımdan çıxmırdı. Birdən özünü öldürər - deyə mən də mətbəxin qapısının arxasında dayanaraq ağlayan anama baxdım.

Səhər oyananda öz yatağımdaydım. Yəqin, gecə qapının ağzında yatıb qalmışdım, anam da məni yerimə qoyub.

Məktəbə gecikmişdim. Fikirləşdim ki, anam məni nə əcəb oyatmayıb. Tələsə-tələsə geyinib evdən çıxmaq istəyirdim. Köynəyimi düymələyəndə anamın səsini eşitdim.

- Bu gün məktəbə getmə, onsuz da gecikmisən... - anamın səsindəki mülayimlik və bu mülayimliyin içində gizlənən yazıqlıq hissi mənim boğazımda düyün yaratdı. Heç nə demədən başımı aşağı-yuraxı yellədim. Atam getmişdi.

Sözün əsl mənasında atam çıxıb getmişdi. Mən atamı uzun illər görmədim...

Başına gələn yeni əhvalatlarını da özüylə aparıb getmişdi. Mən həmin gündən sonra getmək sözündən qorxmağa başladım...

Atamın evə gəlmədiyi günlərin birində yazdığım ilk hekayəni bir də oxudum. Əvvəlcə cırmaq istədim, sonra fikrimdən daşındım. Kağız parçasını sarı divanın açılıb-yığılan yerinə atdım.

Bir müddət sonra anamdan, daha doğrusu, anamla xalamın söhbətindən bildim ki, atam başqa bir arvada ilişibmiş. İndi də onun yanında yaşayır.

Uzun illər atamı görmədim. Üç il heç bir hekayə-filan yazmadım. Hekayələrdən zəhləm gedirdi. Bütün yazıçılara nifrət edirdim. Ədəbiyyat fənnində hansısa yazıçının həyatını, yaradıcılığını öyrənəndə həmişə fikirləşirdim ki, çox şeyi düz yazmırlar. Məndə belə bir fikir yaranmışdı, nəyisə özündən uydura bilən, olmamış şeyləri quraşdırıb yaza bilən insan mütləq saxtakardır. Mən buna əmin idim, atamın təhsili olsaydı, o, dahi bir yazıçı olardı.

Get-gedə hər şeyə marağım azalırdı. Həyatımda nəsə çatışmırdı. Nəsə əksik idi. Elə bilməyin ki, bu atam idi. Çünki ona nifət edirdim. Düz üç il sonra başa düşdüm ki, mən atam üçün yox, onun əhvalatları üçün darıxmağa başlamışam. Uşaqlığım üçün burnumun ucu göynəyirdi. Yenə də o əhvalatları dinləmək, dinozavrların yanına, yadplanetlilərin dünyasına, okenanın dibindəki gəmiyə getmək istəyirdim. Bir müddət sonra bunun həllini qismən tapdım. Başqa saxtakar (indi özüm də onlardanam, başda özüm olmaqla hər birindən üzr istəyirəm, amma, məncə, bir az bu haqda fikirləşmək lazımdır) yazıçıların əsərlərini oxumağa başladım. İstədiyimə az da olsa nail olurdum. Başqa insanlar, başqa əhvalatlar, başqa məkanlar məni bu dünyadan az da olsa ayıra bilirdi. Artıq yeni dünyama (saxtakarların dünyasına) o qədər aludə olmuşdum ki, yaşadığım dünyanı unutmağa başlamışdım. Bir neçə aydan sonra cəhd eləyib kiçik bir hekayə yazdım. Daha doğrusu, gördüyüm yuxunu hekayəyə çevirdim.

Yuxuda gördüm, saray kimi bir yerdəyəm. Sarayda çoxlu adamlar var. Qəribəsi bu idi ki, mən bu adamları tanıyırdım. Hamısı oxuduğum yazıçılar idi. İçində oxumadıqlarım da var idi. Saray yazıçıların geyimləri-ümumiyyətlə, yuxu özü mənə şərq miniatürlərini xatırladırdı. Yazıçıların hamısı bir-birinə oxşayırdı. Çox cüzi fərqlə onları bir-birindən ayırmaq olurdu. Məsəlçün, Çexovu eynəyindən, Tolstoyu saqqalından, Nazim Hikməti gözlərindən tanıdım. Bəlkə də, indi çoxlarını tanıyıram. Nəzərə alsaq ki, mən o yuxunu on beş yaşımda görmüşəm, məni başa düşmək olar. Hamı sarayda sakitcə dayanıb kiminsə gəlişini gözləyirdi. Birdən qapı açıldı, bütün yazıçılar gələn adama baş əydilər. Çox güman ki, gələn sarayın şahı idi. Mən irəli keçib şahı görmək üçün boylananda başında tac, öz taxtında əyləşən atamı gördüm. Atam yenicə oturduğu taxtdan ayağa qalxaraq çıxış eləməyə başladı.

- Çox hörmətli yalançılar və saxtakarlar. Mən artıq yaşlaşıram. Çox yaxın zamanda öz yerimə başqa birini qoymaq niyyətindəyəm. Mənim yerimə mənim varisim keçməlidir. - Atamın səsi çox hökmlü idi.

Atam Herman Hessenin arxasında dayanaraq ona baxdığımı görüb məni hüzuruna çağırdı. Tacı başından götürüb mənim başıma qoydu.

- Bu gündən yalançılar diyarının şahı sənsən.

Mən yuxunun bu yerində ayılmışdım. Ayılandan sonra bu qəribə yuxumu hekayə şəklində yazdım. O gündən etibarən hekayələr, povestlər, romanlar yazmağa başladım.

İllər keçdi. İki kitabım çap olunmuş, artıq üçüncü kitabımın çapdan çıxmasına az qalmışdı. Axşam işdən qayıdanda anam qapını açdı. Nəsə, gözümə birtəhər dəydi. Dəhlizdəki ayaqqabını görəndə evdə qonaq olduğunu başa düşdüm. Pıçıltıyla anamdan kim olduğunu soruşdum. Dedi ki, özün keç bax.

Mən otağa keçəndə köhnə, sarı divanımızda oturan atamı gördüm. Qocalmış, arıqlamışdı,

mənə elə gəldi ki, gözlərinin rəngi solğunlaşmışdı. Özümü itirdim. İki-üç kitab yazıb özünü beş nəfərin içində ağıllı aparmaqla deyil ki...

Özümü bacardıqca ələ alıb onunla görüşdüm. Məni qucaqladı... Mən də ona sarıldım (nə bilim, belə lazım bildim). Üzbəüz oturduq. Atam mehribanlıqla mənə baxırdı:

- Eşitdim böyük yazıçı olmusan? - Nədənsə illər öncə gördüyüm yuxunu xatırladım.

- Böyük yox, elə-belə yazıram da... - çox sakit səslə dedim

- Halal olsun, mən heç vaxt sənin bu cür istedadın olduğunu bilmirdim. -Məncə, utandı.

- Sən gedəndən çox sonra başladım. Ona görə bilmirsən, yəqin. - Həyəcanımı gizlədə-gizlədə dedim.

-Yazdığın kitablardan oxumaq istəyirəm. Birini verə bilərsən?

-Yox, evdə qalmayıb. Satışda da qurtarıb. Nəyəsə görə ondan intiqam almaq istədim. İstəmədim, mənim yalanlarımı oxusun.

Atam məhəccərin üstündə olan kitablarıma baxdı, amma heç nə demədi. Sanki o, öz yalançı oğlunu başa düşdü.

- Sənlə fəxr edirəm - bir az susub əlavə elədi, -mənim o vaxt sənə danışdığım əhvalatlardan da salmısan ora? - maraqla mənə baxdı.

Özümü birdən narahat hiss eləməyə başladım.

- Yox, istəsən salaram - dedim

- Əşi, yox, mən ağlıma nə gəldi qoşub danışırdım da. Özü də bu divanın üstündə. Heç mənim yadımda qalmayıb onlar, qaldı ki sənin...

- Hamısı mənim yadımdadır - onun sözünü kəsdim.

Atam bir neçə dəqiqə danışmadı. Sonra ayağa qalxıb məni qucaqladı. Evinin yerini başa saldı. Dedi, istədiyin vaxt gələ bilərsən.

Anam mənim neçə il əvvəl gecə dayandığım qapının kandarında eyni həyəcanla bizə baxırdı. Atam qapıdan çıxanda mənim gözlərimə baxdı.

- Yadında qalıbsa, onlardan da salarsan kitablarına. Mən başımı "hə" mənasında aşağı-yuxarı yellədim.

Yemək yeyəndə anam dedi ki, gərək kitablarından atana verərdin. Mən heç nə demədim.

Anam çay süzüb gətirəndə atamın elə-belə gəlmədiyini dedi. Sonra əlavə elədi ki, onu tanıyan bir tanışı deyib ki, xərçəngdir, vaxtına az qalıb.

Gecə yatanda kitablarımı çarpayımın yanına qoydum ki, səhər atama aparım.

Səhər yuxudan oyananda isə aparmadım. Aparmaq istəmədim. Xərçəng xəstəsi olan yaşlı kişiyə öz kitablarımı vermək istəmədim.

Təxminən iki ay sonra evə yeni əşyalar aldım. Yeni divan, yeni kreslo, yeni kitab rəfi. Anam yeni aldığımız divanı köhnə sarı divanın yerinə qoymaq istədiyini dedi. Mən razılaşdım. Ev darısqal olduğu üçün köhnə divanı tullamalı olacaqdıq.

Uzun müddət kitab rəfim olmadığına görə kitablarımı divanın açılıb-yığılan yerinə-alt hissəsinə qoyurdum. Divanı qaldırıb içində olan kitabları bir-bir kənara qoydum. Demək olar ki, divanın içində kitab qalmamışdı. Bircə divanın dərinliyində tozlu kağız parçası var idi. Kağızı götürüb baxdım. Bu, yazdığım ilk hekayə idi. Atamın danışdığı əhvalatlara oxşayan dinozavrların diyarına düşən adam haqda olan kiçik, zəif, cılız, kövrək cümlə yığını...

Qeyri-ixtiyari ayağa qalxdım. Evdən çıxıb atamın dediyi ünvana getdim. İlk hekayəmi mütləq oxumalıydı. Mən ilk əsərimi öz müəllimim üçün, ustadım üçün yazmışdım. Yalançıların şahı mənim ilk hekayəmi oxumalıydı. Cəhənnəm olsun qalın romanlar, tarixi dramlar, fəlsəfi yazılar... Məhz bu hekayə... hər şeyin başlanğıcı... Yaradıcılığımın substansiyası olan dinozavrlar haqda olan bu hekayəni atam oxumalıydı!

Mən onun dediyi evə çatıb qapını döydüm. Qapını qara paltarda olan bir qadın açıb məni içəri dəvət elədi. Bu, yəqin ki, atamın ikinci arvadı idi. Mən əlimlə cibimdəki kağız parçasından möhkəm yapışmışdım. Mən qəhvəyi rəngli divanda oturdum. Əlim hələ də cibimdəydi... Qadın birbaşa rəhmətliyin nəyi olduğumu soruşdu...

Cibimdəki kağızı var qüvvəmlə sıxdım. Mənə elə gəldi ki, hekayədəki dinozavrlar ağızlarından çıxan alovla mənim əlimi yandırırlar. Mən bir müddət danışa bilmədim.

- Oğlusuz? - Qadın özü başa düşdü.
- Hə, oğluyam, - dedim.
- Son iki ayı ancaq sizdən danışırdı.
- Nə danışırdı?
- Deyirdi, siz dahi yazıçısız. - Qadın çox ciddiydi.

Mən heç nə deyə bilmədim.

- Hər gün sizi gözləyirdi.-qadının gözləri doldu. Mən də özümü güclə saxlayırdım.
- Nə vaxt rəhmətə gedib?
- On gün olar.

Mən dərindən nəfəs aldım. Otağa hardasa on bir-on iki yaşlarında bir oğlan uşağı daxil oldu. Qadın uşağı yanına çağırdı.

- Oğlumdur, - qadın uşağın başını sığalladı.

Mən uşaqla görüşdüm.

Qadın təbəssümlə mənə baxdı:

- O da sizin kimi yazıçı olmaq istəyir.

Mən təəccüblə qadına baxdım.

Sizin haqqınızda heç nə bilmir. Atası o qədər uşağa əhvalatlar danışırdı ki, bir gecə yatmayıb atasını gözlədi. Sonra öz yazdığını atasına göstərdi. Atası oxuyub çox sevindi. Sonra dedi ki, mənim bir dostum yazıçıdır, bir gün səni onunla tanış edəcəm. Sənə kömək edəcək. Daha yaxşı yazacaqsan.-Qadın yenə oğlunun başını sığalladı.

Məncə, cibimdəki kağız artıq cırılmışdı.

- Mən sizə çay gətirim, vaxtınız varsa, siz də Cavidin cızma-qarasına baxın.

Mən razılaşdım. Uşaq cibindən telefonu çıxarıb qeydlər yerinə daxil olaraq mənə verdi. Nədənsə mən uşağın hekayəni kağızda verəcəyini düşünmüşdüm.

Hekayəsi Marsa uçan adamın orda başına gələn əhvalatlarından bəhs eləyirdi. Məncə, mənim dinozavrlarımdan Cavidin yadplanetliləri daha maraqlıydı.

Qadının gətirdiyi çayı içəndən sonra ayağa qalxdım. Telefon nömrəmi uşağa verdim. Dedim, arada zəng elə, görüşək. Sənə maraqlı kitablar verəcəm. Cavid sevindi.

Üçüncü kitabım bu yaxınlarda çapdan çıxdı. Cavid də mənə üç hekayə yollayıb. Getdikcə daha yaxşı yazır.

Arada atamı xatırlayıram. Hər xatırlayanda yazı yazmaq istəyirəm. Bəlkə də, buna görə onu heç vaxt unutmaq istəmirəm...

Yəqin, daha çox xatırlamaq üçün tez-tez bu hekayəni oxuyacam. Siz də oxuyun amma inanmayın. Bəlkə, belə şeylər olmayıb, bəlkə də, mən yalan danışıram?!

MARAQLI FİQUR VƏ YA SİÇAN QIZ

Hekayə ekspressiya

- Sən həmişə mənə fiqur kimi baxmısan...

Yarıçılpaq vəziyyətdə, əlində nar tutan qız üzünü onu çəkən fotoqrafa tutaraq danışır:

- Gedirəm... Sibirdə yaşayacağıq. Nişanlımın bütün işləri ordadır. Elə sevinirəm ki, səndən canım qurtaracaq. Zəhləmgetmiş tələbəlik illərindən bu günə qədər sənin fiqurun olaraq qalmışam. Heç vaxt mənə...

Oğlan yaxınlaşıb əliylə qızın çənəsini sağ tərəfə, bir az aşağı əyib yenidən qurduğu kompozisiyaya baxmaq üçün yerinə qayıdır.

Qız həmin vəziyyətdə danışmağa davam eləyir:

- Heç vaxt mənə sevgilin kimi, bir qadın kimi, ən azından neçə illər sənin yanında olan biri kimi dəyər verməmisən. Ancaq fiqur. Vəssalam…

Oğlan bir neçə foto çəkir. Hiss olunur ki, hələ də istədiyini almayıb, bir neçə dəfə də öz dayandığı yeri dəyişərək başqa rakursdan çəkir. Qız isə oğlanın düzəltiyi tərzdə dayanıb danışır. O danışdıqca adama elə gəlir ki, hansısa hipperrealist heykəltəraşın düzəltdiyi heykəl dil açıb adamla söhbət eləyir:

- Məni başqa qadınlardan fərqləndirən isə, öz dediyin kimi, hətta kompliment kimi işlətdiyin "Sən mənimçün maraqlı fiqursan" sözlərin olub. Yəni fiqur olmağına fiquram, amma "maraqlı" fiquram. Bu illər ərzində mən...

Oğlan qızın yanına gələrək, bu dəfə başını sol tərəfə yuxarı istiqamətə qaldırır.

Qız bu dəfə yeni pozada dayanıb tərpənməməyə çalışır.

- Bu illər ərzində mən səndən başqasına gözümün ucuyla da baxmamışam. Nə qədər oğlan var idi ətrafımda, hamısı da dərdimdən ölürdü. Birinə də baxmırdım, çünki sən var idin. Mən ancaq səni sevmişəm. Sən isə mənə ancaq öz ekperimental siçanın kimi baxmısan.

Oğlan fotoaparatı gözündən çəkib qızın üzünə baxır. Qız bunu görüb daha da qızışır.

- Hə, məhz eksperimental siçan. Xaraba qalmış "incəsənət"in 309-cu otağı... Dərsdən sonra otağın qapısını bağlayıb məni hazırladığın monotamaşalarda oynadırdın. Əlində siqaret səhnədə oynayan aktrisandan zövq almaq adətə çevrilmişdi. Əvvəllər bu mənim də xoşuma gəlirdi. Sən əlində siqaret mənə elə maraqla baxırdın ki, mən hər dəfə çalışırdım, daha yaxşı oynayım.

İki il sonra yeni bir məşğuliyyət tapdın. Özünə yeni zövq...

Oğlan gələrək qızın başını bu dəfə düz istiqamətdə tutur, hər iki əlini narı saxlamaq üçün bir araya gətirir və bir az yuxarı qaldırır. Oğlan geri qayıdan kimi qız da qaldığı yerdən davam eləyir:

- Özünə yeni zövq tapmışdın. Yazdığın hekayələrə qısa filmlər çəkməyə başladın. Bu dəfə isə monofilmlər çəkirdin. Başqası ilə işləmirdin, ancaq mən...

Çox xoşuna gəlirdim, arada özümlə qürur duyurdum ki, məhz mənlə çalışırsan, amma sonra başa düşdüm ki, məndən yaxşı siçanın olmayacaq. Heç vaxt... Mən bu işi çox yaxşı bacarırdım.

Bir il də filmlər çəkdin. Hərdən çəkilişdən evə qayıdanda küçədə gördüyüm pişiklərdən qorxmağa başlamışdım. Əvvəlcə bu hissin hardan yarandığını başa düşə bilmirdim. Sonra anladım... Mən siçana çevrilirdim, get-gedə ruhum dəyişirdi. Mən sənin sevgilindən, aktrisandan çox çevrilib sənin yaradıcılıq laboratoriyanın təcrübə siçanı olurdum. Amma səndən ayrıla bilmirdim. Sonra filmin də daşını atdın.

Sən mənim - öz eksperimental siçanının köməyi ilə özünü axtarırdın. Özünü qazanmağa, özünü tapmağa, özünü yaratmağa çalışırdın. Son kursda isə qəribə bir əyləncə tapdın. Heç kimə lazım olma...

Oğlan onun nar tutan əlini daha da yuxarı qaldıraraq başını azca aşağı əyib yerinə qayıdır.

- Heç kimə lazım olmayan şeirlər yazmağa başladın.

Oğlan bu dəfə də gözlərini aparatdan çəkib qızın üzünə baxır, qız gözlərini qaçırtmağa çalışır.

-Yaxşı, razıyam, pis şeirlər deyildi. Bəs sən neyləyirdin?! Balaca bir otaqda işıqları söndürüb, şamları yandırırdın, mən də sənin yazdığın şeirləri oxuyurdum. Bu sənə necə də həzz verirdi!

Neçə dəfələrlə bu cür şeir gecələri keçirtdin. İki nəfərlik şeir gecələri. Yox, yox bir nəfərlik... Mən sənin üçün yox idim. Sən mənim yanımda özün kimi olurdun. Mən sənin yanında olanda bütünləşirdin və sənə elə gəlirdi ki, yanında heç kim yoxdur. Mən isə... Qəlbimin dərinliyində bilirdim ki, o şeirlərin heç biri mənə aid deyil. Başqa qızlara, qadınlara yazdığın şeirləri öz "siçan"ına oxudurdun. Mən necə də əzab çəkirdim, amma yenə də oxuyurdum.

Çünki mən razı idim, mən pişiklərdən qorxmağa razı idim. Bir gün məni siçan kimi yox, qadın kimi sevəcəyini gözləyirdim. Amma eləmədin...

Universitet bitəndən sonra sənlə görüşməyəcəyimə and içmişdim, özümə söz vermişdim ki, bir də sənlə görüşməyəcəm.

Keçən həftə səni görəndə üzümü nə qədər çevirmək istəsəm də, alınmadı. Ayaqlarım özümdən asılı olmadan sənə tərəf yeridi. Sənə tərəf gələndə içimdə qəribə hiss var idi. Son üç ildə içimdə yuxulamış bir şey oyandı. Bu, həmin siçan idi... Mən yox, içimdəki siçan sənincün it kimi darıxmışdı.

Salam-sağoldan sonra deyəndə ki, foto ilə məşğulsan, içimdə sanki bir şey hərəkətə gəldi. Bu, neçə ildir yuxuya getmiş həmin siçandan başqası deyildi.

Gözlərimin içinə baxıb soruşanda ki, səni çəkməyimi istəyərsənmi?! Mən bütün varlığımla "yox" demək istəyirdim, ancaq həmin dəqiqə ruhumu gəmirməyə başlayan siçan mənə mane oldu. Elə bil ki, mənim yerimə o cavab verdi:

- Hə, əlbəttə, olar.

Budur, mən axırıncı dəfə sənin yanındayam. Yenə də son dəfə sənin siçanınam. Qəribəsi budur, ya sadəcə olaraq mənə elə gəlir ki, sən də məndən başqa heç kimlə işləyə bilmirsən, sadəcə bacarmırsan... Artıq gecdir, buralardan gedirəm, özü də çox uzaqlara. Bəlkə də, Sibirə, uzaqlara getməyimin səbəbi sənsən.

Bilirsən... Mən həmişə sənin SİÇANIN yox, QADININ olmaq istəmişəm. Heç...

Oğlan elə bil yuxudan ayılır, həyəcanlanır, qızın yanına gələrək narı əlindən alıb kənara atır, əllərini saçına aparır. Baxışırlar... Qızın gözlərindən yaş axır. Qız bir anlıq elə hiss edir ki, oğlan onun göz yaşlarını siləcək, amma oğlan qızın başını bir az yuxarı qaldıraraq düz aparatın obyektivinə tərəf tutub öz dayandığı yerə dönür. Qız bir az da məyus olur.

- Ancaq sən heç vaxt bu haqda düşünməmisən, mən, mənim hisslərim heç vaxt sənə maraqlı olmayıb. Mənə ancaq fiqur kimi baxmısan.

Qızın gözləri bir az da dolur, gözlərindən yaş axır.

Oğlan gözlərini aparatın gözlüyündən çəkib qıza baxaraq, sentimental bir səslə danışmağa başlayır:

- Elə bilirsən, mən sənə qarşı laqeyd olmuşam?! Mən sənə ancaq fiqur kimi baxmışam?! Yanılırsan! Mən həmişə səni başqalarından ayırmışam. Sən mənim üçün tamam başqa olmusan. Bu illər ərzində elə bilirsən, sənsiz yaşamaq mənim üçün asan idi?! Hiss edirdim ki, içimdə bir boşluq var. Nəsə çatmır. Bax, bu çatışmayan sən idin. Sən yox idin... mən gördüyüm işlərin hamısını iş görmək xətrinə edirdim. Amma sən yanımda olanda hər şey tamam başqa cür olurdu. Sən yanımda olanda mən ruhumu bütün gücüylə işə salıb nəsə yarada bilirəm.

Duruxur, pıçıltıyla:

- SƏNİ SEVİRƏM - deyir.

Oğlana heyranlıqla qulaq asan qız, "səni sevirəm" sözünü eşidəndə göz yaşlarını saxlaya bilmir.

Üzündə yaranan təbəssümlə gözlərindən axan yaş qəribə kontrast yaradır.

Bu vaxt oğlan qızın şəklini çəkir və dodaqlarının altında qızın eşidə biləcəyi səslə:

- ALINDI!!! - pıçıldayır.

Qızın üzündəki təbəssüm bir anda yoxa çıxır. Ağlaya-ağlaya:

Mən həmişə sənincün "maraqlı fiqur" olmuşam, başqa heç nə...

Qız hıçqıraraq dodağının altında daha nə isə mızıldanır. Oğlan isə sanki qızı eşitmir, böyük heyranlıqla çəkdiyi fotoya baxır...